# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 214 (8807) ÇƏRŞƏNBƏ, 6 oktyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az


# Elə bir yeni Azərbaycan, yeni Qarabağ, yeni Zəngəzur quracağıq ki, bütün dünya bizə qibtə edəcək




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Cəbrayıl rayonunda səfərdə olub.**

- Cəbrayılda "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin təməlini qoyub.
- Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməlini qoyub.
- "Cəbrayıl" yarımstansiyasının açılışında iştirak edib.
- Cəbrayılda Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışında iştirak edib.
- Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının, məktəb binasının və Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməllərini qoyub.
- Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşüb.
- Cəbrayıl Memorial Kompleksinin və Cəbrayıl şəhərinin bərpasının təməl daşını qoyub.

*Bax: səh. 2-7*



## Əməkdaşlıq bundan sonra da möhkəmlənəcək

Oktyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmona telefonla zəng edib.

Dövlətimizin başçısı Emoməli Rəhmonu ad günü münasibətilə təbrik edib, ona möhkəm cansağlığı və ölkənin inkişafı naminə fəaliyyətində uğurlar arzulayıb.

Tacikistan Prezidenti göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları Azərbaycanla Tacikistan arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluq ifadə edib, əməkdaşlığımızın bundan sonra da möhkəmlənəcəyinə əmin olduqlarını bildirib, əlaqələrimizin perspektivləri barədə fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

## Güc və qətiyyətin quruculuq meydanındakı təcəssümü

### İlham Əliyev işğaldan azad olunmuş ərazilərimizin şöhrətini bərpa edir

Azərbaycan xalqı əlamətdar hadisə ərəfəsindədir. Bir neçə gündən sonra müstəqilliyimizin bərpasının 30-cu ildönümü tamam olacaq.

Əvvəlki illərdən fərqli olaraq bu dəfə 18 oktyabr tarixini, müstəqilliyimizin bərpa olunmasını daha qürurla, ürəkdolusu qarşılayırıq. Çünki artıq ərazi bütövlüyümüzü də bərpa etmişik. Öz müdrik və müstəqil siyasəti ilə müstəqilliyimizi möhkəmləndirən, sarsılmaz edən Prezident İlham Əliyev torpaqlarımızı işğaldan azad edərək, müstəqillik və dövlətçilik tariximizin şanlı qəhrəmanlıq salnaməsini yaratdı.

### Əhatəli və qürurverici işlər

İkinci Qarabağ müharibəsindəki zəfərlə Azərbaycan regiona yeni reallıqlar gətirib. Sözsüz ki, ən böyük reallıq torpaqlarımızın işğaldan azad olunmasıdır. Bu həm də son ikiəsrlik tariximizin əsas hadisələrindən biridir. 30 ilə yaxın işğal altında olan torpaqlarını azad edən Azərbaycan bununla yalnız Ermənistana deyil, dünya erməniliyinə qalib gəldi. Bu zəfərlə onilliklər boyu ermənilərin yaratdığı miflər darmadağın edildi, stereotiplər aradan qaldırıldı.

*Ardı 10-cu səh.*



## "Heç kim bizi dayandıra bilməz"

### İlham Əliyev Cəbrayıldan Qalib Komandan kimi Ermənistana, onun havadarlarına və Azərbaycana iftira atan bəzi dairələrə çox ciddi xəbərdarlıq etdi

*İkinci Qarabağ müharibəsinin qalib dövləti kimi Azərbaycan regionun hərtərəfli inkişafı istiqamətində ciddi addımlar atır. Yaranmış yeni reallıqlar fonunda həyata keçirilən proseslər göstərir ki, qarşıdakı yaxın illərdə Azərbaycan iqtisadi cəhətdən daha da güclənəcək və böyük qayıdışı reallaşdıracaq.*

*Bax: səh. 10*

## Serjik Ermənistanda yenə istehza hədəfi oldu

Əli günahsız azərbaycanlıların qanına batmış, Xocalı cəlladı kimi ad çıxarmış Serjik Sarkisyanın vaxtaşırı boşboğazlıq etməsi Ermənistanda da gülüş və istehza obyektidir. Çünki Serjikin ikiüzlü, alçaq, korrupsioner olduğunu Ermənistan xalqı da yaxşı bilir.

Elə bu günlər tanınmış erməni ictimai xadim, "İKM" proqramının koordinatoru Daniyel İohanisyan hərbi cinayətkar Serjik Sarkisyanla bağlı sensasion faktlar açıqlayıb.

*Ardı 12-ci səh.*

## Xızı rayonunun Giləzi-Xızı (18 km)-Qarabulaq avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Giləzi-Xızı (18 km)-Qarabulaq avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 6,4 milyon (altı milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 oktyabr 2021-ci il*

# Elə bir yeni Azərbaycan, yeni Qarabağ, yeni Zəngəzur

## Cəbrayılda “KamAZ” ASC ilə “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyinin birgə servis mərkəzinin təməli qoyulub





Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Cəbrayıl rayonunda səfərdə olub.



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev “KamAZ” ASC ilə “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyinin birgə servis mərkəzinin təməlqoyma mərasimində iştirak edib.

Dövlət başçısı burada Rusiya Federasiyası Tatarıstan Respublikasının Baş nazirinin müavini, sənaye və ticarət naziri Albert Kərimov və “KamAZ” ASC-nin baş direktorunun müavini Rüstəm Şamsutdinovla görüşüb.

Albert Kərimov Rusiya Federasiyası Tatarıstan Respublikasının Prezidenti Rüstəm Minnixanovun salamlarını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev Rüstəm Minnixanovun salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Tatarıstan Prezidentinə çatdırmağı xahiş edib. Dövlətimizin başçısı Rüstəm Minnixanovla keçirdiyi görüşləri xatırladıb.

Tatarıstan Respublikasının Baş nazirinin müavini Füzuli Beynəlxalq Hava Limanına endiklərini bildirib və bu hava limanının yüksək səviyyədə yaradıldığını qeyd edib.

Bildirilib ki, son illərdə Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlığa əsaslanan dostluq münasibətləri bütün digər sahələrdə olduğu kimi, iqtisadi sahədə də uğurla inkişaf edir. Azərbaycanın Rusiyanın ayrı-ayrı regionları, o cümlədən Tatarıstan Respublikası ilə səmərəli qarşılıqlı əməkdaşlıq münasibətləri var. Yük maşınlarının istehsalı üzrə dünyanın aparıcı şirkətlərindən olan “KamAZ”ın Cəbrayılda “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyi ilə birgə servis mərkəzinin yaradılması bunun göstəricisidir.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi torpaqlarımızın işğaldan azad edilməsi kənd təsərrüfatı texnikasına, eləcə də digər texnikalara və texniki xidmətlərə tələbatı artırıb. Bu baxımdan Qarabağ bölgəsində yük avtomobilləri və kənd təsərrüfatı texnikaları üçün “KamAZ” ASC ilə “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyinin birgə servis mərkəzinin yaradılması xüsusi əhəmiyyət daşıyır.

Qeyd edək ki, layihə bu ilin iyul ayında Rusiya şirkətlərinin nümayəndələrinin Azərbaycana işgüzar missiyası çərçivəsində “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyi ilə “KamAZ” ASC arasında imzalanmış anlaşma memorandumuna uyğun olaraq “KamAZ” avtomobil zavodu ilə birlikdə həyata keçiriləcək.

“Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında yaradılacaq regional servis mərkəzinin ümumi ərazisi 1,5 hektar olacaq. Ərazidə satış zalı, maliyyə xidmətləri şöbəsi, xidmət bürosu, menecer şöbələri, təmir zonası ustalarının ofisləri və ehtiyat hissələri anbarının yerləşəcəyi inzibati bina, yük avtomobilləri və kənd təsərrüfatı texnikalarına xidmət üçün qulluq blokları, təmir sexləri, avtoyuma və dayanacaq fəaliyyət göstərəcək. Mərkəzdə “KamAZ” ilə yanaşı, digər yük avtomobilləri, eləcə də kənd təsərrüfatı texnikalarına, o cümlədən traktor və kombaynlara texniki servis xidməti göstəriləcək. Burada 36 yeni iş yerinin yaradılması nəzərdə tutulur.

“KamAZ” ASC-nin “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyi ilə birgə layihəsinə 2014-cü ildə start verilib. “KamAZ”ın ilk partiyası 2015-ci ildə buraxılıb. Hazırda orada 8 model “KamAZ” buraxılır və indiyədək 1000-dən çox maşın istehsal olunub. Əməkdaşlığın inkişafı ilə bağlı perspektiv planlar da var. Belə ki, Rusiya bankının maliyyəsinin cəlb edilməsi ilə gələcəkdə lizinq şirkətinin, ehtiyat hissələri üzrə regional anbarların yaradılması, mövcud xidmət mərkəzlərinin müasirləşdirilməsi nəzərdə tutulur. Bundan başqa, Cəlilabad, İsmayıllı və İmişlidəki servis mərkəzləri modernləşdiriləcək. Diqqətə çatdırılıb ki, Zəngəzur dəhlizinin işə düşməsi ilə yükdaşımaların həcmi artacaq.



## Prezident İlham Əliyev Şərqi Zəngəzur iqtisadi rayonunda “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının təməlini qoyub



Oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının təməlini qoyub.

AZƏRTAC xəbər verir ki, dövlət başçısına sənaye parkı haqqında məlumat verildi.

Bildirildi ki, Cəbrayıl rayonunda yaradılacaq sənaye parkı 200 hektar ərazini əhatə edəcək. Ərazi kənd təsərrüfatı məhsullarının emalı, sənaye, sosial və texniki zonalara bölünəcək. Burada logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin yaradılması planlaşdırılır. Sənaye parkında tikinti üçün üzlük və izolyasiya materialları, müxtəlif qatqı maddələri, metal konstruksiya istehsalı müəssisələrinin təşkili nəzərdə tutulur. Parkın ərazisində, həmçinin kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, süd və ət məhsulları istehsalı və emalı, şərab, yem, gübrə istehsalı, ipəkçilik müəssisələrinin, soyuducu kameraların qurulması, kiçik istehsal və xidmət sahələrinin yaradılması planlaşdırılır.

Sənaye parkının yaxınlığında yaşayış məntəqəsi olmadığı üçün sosial zonada 150 nəfərlik konteyner şəhərciyi qurulacaq. Şəhərcikdə parkın idarə olunması və rezidentlər üçün ofis binaları, inzibati heyət, rezidentlər, tikintini həyata keçirən mühəndis və fəhlələr üçün yaşayış binaları və xidmət obyektləri, tibb məntəqəsi, idman meydançası və digər infrastruktur yaradılacaq.

Bu layihənin həyata keçirilməsi bölgənin potensialının ölkə iqtisadiyyatına reinteqrasiyasına, yerli istehsalın inkişafına böyük təkan verəcək, məşğulluq səviyyəsinin yüksəlməsinə əlavə imkanlar yaradacaq.

Qeyd edək ki, işğaldan azad edilmiş Cəbrayıl rayonu qum-çınqıl, mişar daşı, kərpic gili, sement xammalı, gəc, əhəng və yəşəm kimi faydalı qazıntılarla zəngindir. İşğaldan əvvəlki dövrdə rayon iqtisadiyyatının əsas sahələri üzümçülük, tütünçülük, heyvandarlıq və taxılçılıq olub. Həmçinin rayonda qaramal kökəltmə, quşçuluq və baramaçılıq təsərrüfatları, xalçaçılıq müəssisəsi, üzüm emalı, çörək zavodları, kənd təsərrüfatı texnikasının təmiri müəssisələri fəaliyyət göstərib.

# “Cəbrayıl” yarımstansiyasının açılışı olub







Oktyabrın 4-də Cəbrayıl rayonunda 110/35/10 kilovoltluq “Cəbrayıl” yarımstansiyasının açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yarımstansiyanın açılışında iştirak edib.

Dövlət başçısına yarımstansiyada yaradılan şərait barədə məlumat verilib. Bildirilib ki, 44 günlük Vətən müharibəsində işğaldan azad edilən Cəbrayıl rayonuna Füzulidəki “Şükürbəyli” yarımstansiyasından uzunluğu 31 kilometr olan 110 kilovoltluq ikidövrəli 1-ci və 2-ci “Cəbrayıl” hava xətləri çəkilib. Bir vaxtlar qoşunların təmas xətti olduğundan tamamilə minalanmış yerlərdən keçən xəttin uzandığı ərazi partlamamış sursatlardan təmizlənib. Hava xəttinin ildırımdan mühafizəsi və yarımstansiyalararası siqnalların ötürülməsi üçün zəruri işlər görülüb. Yeni yarımstansiyada 110 kilovoltluq açıq paylayıcı qurğu tikilib. O cümlədən 110/35/10 kilovoltluq “Qubadlı” və “Zəngilan” yarımstansiyalarının qidalandırılması məqsədilə Cəbrayıldan çəkilən ikidövrəli ötürmə xətlərinin qoşulması üçün texniki cəhətdən yarımstansiyada lazımi şərait yaradılıb. “Cəbrayıl” yarımstansiyası yeni avadanlıqlarla komplektləşdirilib, burada müasir rəqəmsal idarəetmə, mühafizə və avtomatika sistemləri quraşdırılıb. Yarımstansiyanın iş rejiminə real zamanda nəzarət olunması və göstəricilərin “Azərenerji” ASC-nin SCADA sisteminə ötürülməsi məqsədilə yerli mikro-Scada dispetçer idarəetmə sistemi qurulub və enerjisistemin mərkəzi SCADA sisteminə inteqrasiya olunaraq rəqəmsallaşdırılıb.

“Cəbrayıl” yarımstansiyası, ilk növbədə, bu rayonda yerləşən hərbi obyektləri, yeni yaradılan sosial-iqtisadi infrastruktur layihələrini, eləcə də rayonun ümumi şəhərsalma konsepsiyasına əsasən, Cəbrayıl şəhərini və bütövlükdə rayonun bütün kənd-qəsəbələrini elektrik enerjisi ilə təmin edəcək.



# quracağıq ki, bütün dünya bizə qibtə edəcək

## Müzəffər Ali Baş Komandan İlham Əliyev Cəbrayılda Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışını edib

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev oktyabrın 4-də Cəbrayılda Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışını edib.

AZƏRTAC xəbər verir ki, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin açılış mərasimində iştirak etməsi münasibətilə hərbi hissədə mərmər yaddaş daşı və lövhəsi quraşdırılıb.

Hərbi hissənin silah və döyüş texnikası arsenalına "Harop" və "Quzğun" zərbəendirici pilotsuz uçuş aparatları, tank əleyhinə dəzgahlı qumbaraatanlar, tank əleyhinə idarə olunan raketlər, 120 millimetrlik və 82 millimetrlik minaatanlar, zenit qurğuları və digər müasir silah sistemləri, atıcı, qrup və snayper silahları, müşahidə və gecəgörmə cihazları, termal qurğular və nişangahlar, xüsusi təyinatlı avadanlıqlar, həmçinin zirehli transportyorlar, yüksək keçidli avtomobillər, zirehli döyüş maşınları daxil edilib. Dövlət başçısının tapşırığına əsasən işğaldan azad olunan ərazilərdə zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması üzrə fəaliyyətlər davam etdirilir.

Prezident İlham Əliyev zirehli döyüş avtomobilini idarə edib, "Harop" pilotsuz uçuş aparatlarına baxıb.

Ərazisi 64 hektar olan hərbi hissə kompleksinə qərargah binası və əsgər yataqxanası, şəxsi heyətin xidməti yüksək səviyyədə aparması üçün lazımi şəraitlə təmin edilən iş otaqları, yeməkxana binası, hamam-camaşırxana, yaşayış şəhərciyi, avtomobil texnikasının saxlanması üçün bokslar, silah, yanacaq, ərzaq və əşya-geyim anbarları daxildir. Kompleksin təlim şəhərciyində hərbi qulluqçuların döyüş hazırlığının yüksəldilməsi üzrə məşqlərin təşkili, atış poliqonunda müxtəlif cür atıcı və iriçaplı silahlardan atışların keçirilməsi və nəticələrinin qiymətləndirilməsi, şəxsi heyətin mövcud silah və döyüş texnikasından istifadə bacarıqlarının təkmilləşdirilməsinə imkan verən zəruri şərait yaradılıb. İdman şəhərciyində hərbi qulluqçuların idmanla məşğul olmaları üçün futbol və voleybol meydançaları, həmçinin ən müasir standartlara uyğun avadanlıqlar və alətlərlə təchiz olunan idman zalı vardır. Ərazidə əsaslı abadlıq işləri aparılıb.


















## Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının özülü qoyulub

Oktyabrın 4-də Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının təməlqoyma mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlət başçısına məlumat verilib ki, Baş Planın layihəsinə əsasən şəhərin cənub hissəsində yerləşəcək yeni xəstəxananın ümumi ərazisi 2,6 hektardır. 150 çarpayılıq xəstəxananın ərazisində yoluxucu xəstəliklər korpusu və bir sıra texniki təyinatlı binalar olacaq. Burada rayon sakinlərinə yüksək səviyyədə tibbi xidmət göstərmək üçün hər cür şərait yaradılacaq. Beləliklə, öz doğma yurdlarına qayıdacaq rayon sakinləri bu tibb ocağının istifadəyə verilməsi ilə hərtərəfli tibbi xidmətlə əhatə olunacaqlar.

Prezident İlham Əliyev Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının təməlini qoyub.

## Prezident İlham Əliyev Cəbrayılda akademik Mehdi Mehdizadə adına tam orta məktəbin bünövrəsini qoyub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Cəbrayıl şəhərində akademik Mehdi Mehdizadə adına tam orta məktəbin təməlqoyma mərasimində iştirak edib.



AZƏRTAC xəbər verir ki, dövlət başçısına məktəbdə yaradılacaq şərait barədə məlumat verilib.

Bildirilib ki, 960 şagirdin təhsil alacağı yeni məktəb binasında hər cür inventarla təchiz olunmuş sinif otaqları, fənn kabinetləri fəaliyyət göstərəcək. Məktəbin həyətində geniş idman meydançası tikiləcək ki, bu da sağlam nəslin yetişməsi üçün vacib amillərdəndir. Bir sözlə, doğma torpaqlarına geri dönən cəbrayıllı şagirdlər ən müasir tələblərə cavab verən təhsil ocağında oxuyacaqlar. 145 yaşlı bu tam orta məktəblə yanaşı, Cəbrayıl şəhərində daha 3 məktəbin tikilməsi də nəzərdə tutulur. Qeyd edək ki, məktəb 1876-cı ildə tikilib istifadəyə verilmişdi.

Prezident İlham Əliyev məktəbin təməlini qoyub.



## Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməlqoyma mərasimi keçirilib

Oktyabrın 4-də Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməlqoyma mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlət başçısına məlumat verilib ki, 10,5 hektar ərazini əhatə edən yaşayış məhəlləsi mərhələli şəkildə tikilib istifadəyə veriləcək. İlk mərhələdə 5 bina tikiləcək və buraya 200-ə yaxın ailə, yəni 654 sakin köçürüləcək. Məhəllədə 4, 5 və 6 mərtəbəli yaşayış, o cümlədən digər təyinatlı binalar olacaq. Bu məhəllədə və ümumiyyətlə, şəhərin mərkəzində tikiləcək binaların fasad və eyvanlarına tarixilikləri qorunmaqla, müasir görkəm veriləcək.

Qeyd edək ki, Cəbrayıl rayonunda işğaldan əvvəl 52 min sakin yaşayırdısa, indi onların sayı 82 minə çatıb. Burada ən vacib amillərdən biri də şəhərdə yaşayacaq insanlara veriləcək suyun yeraltı mənbələrdən çəkilməsidir. Doğma şəhərlərinə uzun illərdən sonra yenidən ayaq basan rayon sakinlərinə burada rahat yaşamaları üçün hər cür şərait yaradılır.

Prezident İlham Əliyev yaşayış məhəlləsinin təməlini qoyub.

# Sülh dövrünü də zəfərlə başlamışıq,

## Prezident İlham Əliyev Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşüb, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoyub





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşüb, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoyub.
AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev əvvəlcə Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşüb.
Dövlət başçısı görüşdə çıxış edib.

## Prezident İlham Əliyevin çıxışı

- Əziz cəbrayıllılar, əziz dostlar, sizi səmimiyyətlə salamlayıram və Cəbrayıla xoş gəlmisiniz deyirəm.

Cəbrayıllılarla müzəffər Ordumuzun Qələbəsindən sonra ilk görüşümdür və bu görüşü məhz oktyabrın 4-də keçirmək xüsusi məna daşıyır. Çünki düz bir il əvvəl məhz oktyabrın 4-də Azərbaycan Ordusu Cəbrayıl şəhərini işğalçılardan azad etdi və bu gün bu şanlı tarixi birlikdə qeyd etmək üçün mən cəbrayıllıları onların öz yurduna, vətəninə dəvət etdim. Ona görə "Cəbrayıla xoş gəlmisiniz" sözləri ilə öz çıxışıma başlayıram. Amma əminəm ki, bundan sonra mən Cəbrayıla gələndə həmişə cəbrayıllılar mənə "Xoş gəlmisiniz, cənab Prezident" deyəcəklər.

Buna nail olmaq üçün əməli işlər aparılır və bu gün artıq bir neçə obyektin təməl daşı qoyuldu. Bu gün Cəbrayıl şəhərinin baş planının təqdimatı olacaqdır və fəal işlər başlamışdır. Bu gün bir ilə görülmüş işlərə qiymət verərkən, əlbəttə, görürük ki, dövlətimizin, xalqımızın nə qədər böyük potensialı var. Çünki ermənilər tərəfindən tamamilə dağıdılmış ərazilərə cəmi bir ildən sonra həyatı qaytarmaq, insanları qaytarmaq böyük potensialdan xəbər verir. Biz bütün gücləri səfərbər etmişik və edəcəyik ki, qısa müddət ərzində Cəbrayılı və bütün başqa rayonlarımızı yenidən quraq, bərpa edək. Buraya gələn hər bir insan bu dağıntıları görür və erməni vəhşiliyinin, erməni vandallığının şahidi olur. Bu vəhşilik, bu vandallıq işğal dövründə törədildi. Müharibə dövründə bu qədər dağıntılar ola bilməzdi. İşğal dövründə ermənilər bütün evləri, binaları kərpic-kərpic sökərək talançılıqla, soyğunçuluqla məşğul olurdular və bütün dünya buna göz yumurdu. Bunu görən beynəlxalq təşkilatlar, bunu görən Ermənistanın havadarları buna sadəcə olaraq biganə qalırdılar, göz yumurdular. Amma bu gün bütün dünya bunu görür və bunu görmək istəməyənlər də görməlidirlər. Çünki Cəbrayıl şəhərindən demək olar ki, əsər-əlamət qalmayıb. Cəmi beşmərtəbəli iki bina qalıbdır, onlardan da erməni hərbçiləri istifadə edirdilər və keçmiş xəstəxananı onlar hərbi hissəyə çevirmişdilər. Bundan başqa, bütün binaları, bütün tarixi abidələri yerləyeksan etdilər.

Oktyabrın 4-ü bizim tariximizdə əbədi qalacaq. Çünki oktyabrın 4-də Cəbrayıl şəhəri işğalçılardan azad edildi və bu Qələbənin çox böyük mənası var idi. Çünki ilk dəfə olaraq müharibənin birinci həftəsində şəhər, rayon mərkəzi azad edilmişdi. Bunun çox böyük rəmzi mənası var idi. Bu, bizim Ordumuza əlavə güc verdi, inam verdi. Bu Qələbədən sonra bizim şanlı Ordumuz öz tarixi missiyasını digər yerlərdə də icra etmişdir. Cəbrayıllılar yaxşı bilirlər ki, müharibənin ilk günündə Cəbrayılın iki kəndi işğalçılardan azad edilmişdir - Böyük Mərcanlı və Nüzgar kəndləri, Füzuli rayonunun 4 kəndi bizim birinci uğurumuz idi. Amma ondan sonra bir həftə ərzində şiddətli döyüşlər getdiyi zaman hər hansı bir yeni yaşayış məntəqəsini azad etmək mümkün olmamışdır. Yəni müharibənin obyektiv gedişatı bunu diktə edirdi və oktyabrın 3-də Suqovuşan qəsəbəsi və Talış kəndi, eyni zamanda Cəbrayıl rayonunun bir neçə kəndi işğalçılardan azad edildi. Bu, Ordumuza əlavə mənəvi güc verdi.

Oktyabrın 4-də cəbrayıllıları və bütün Azərbaycan xalqını mən bu xoş müjdə ilə sevindirmişdim - Cəbrayıl şəhəri azad edilmişdir! Bir il bundan əvvəlki dövrə qayıtsaq, Qələbəmizin əzəmətini bir daha görərik. Çünki müharibə getdiyi zaman, əlbəttə, bizim gündəlik fəaliyyətimiz qələbəni möhkəmləndirmək, işğal edilmiş bütün torpaqları azad etməkdən ibarət idi. Yəni əldə edilmiş uğurları təhlil etmək üçün heç vaxt yox idi və buna heç gərək də yox idi. Amma bu gün müharibədən və Cəbrayılın azad olunmasından bir il keçməsindən sonra bunu daha dəqiq və aydın təhlil edərkən görürük ki, bu Qələbənin çox böyük əhəmiyyəti olmuşdur. Eyni zamanda məhz burada, bu ərazidə düşmən bir neçə xətdən ibarət istehkamlar qurmuşdu və bu istehkamları yarmaq çox böyük qəhrəmanlıq və fədakarlıq tələb edirdi. Bizim əsgər və zabitlərimiz sözün əsl mənasında ölümə gedirdilər. Biz şəhidlərimizin canı-qanı bahasına öz doğma torpaqlarımıza qayıtmışıq. Fürsətdən istifadə edərək bir daha əziz şəhidlərimizin xatirəsini yad etmək istəyirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Cəbrayıl əməliyyatının əhəmiyyəti eyni zamanda ondan ibarət idi ki, Cəbrayıl azad olunandan sonra o vaxt işğal altında olan bizim digər rayonlara uğurlu addımlarımız mümkün olmuşdur. Cəbrayıldan sonra Zəngilan, ondan sonra Qubadlı və Laçın rayonunun cənub hissəsi işğalçılardan azad edildi. Beləliklə, Laçın dəhlizini biz tam nəzarətə götürə bildik. Mən demişəm, bir daha demək istəyirəm ki, Soltanlı və Əmirvarlı kəndləri uğrunda bir neçə gün çox şiddətli döyüşlər gedirdi və bu, o yerlərdən biri idi ki, Ermənistan ordusu orada dirəniş göstərmişdi və orada böyük istehkamlar qurulmuşdu.

Yəni bir neçə gün bizə lazım oldu ki, strateji əhəmiyyət daşıyan o kəndləri azad edək və ondan sonra artıq Zəngilanın azad edilməsi labüd idi. Deyə bilərəm ki, Zəngilan şəhərini Ermənistan ordusu demək olar ki, az müdafiə edirdi. Artıq onların gözlərini qorxu o qədər tutmuşdu ki, onlar silahları yerə qoyub qaçırdılar. Eyni zamanda Füzuli, Cəbrayıl əməliyyatlarından sonra Hadruta yolumuz açıldı. Oktyabrın 9-da Hadrut qəsəbəsi azad edildi və Şuşaya yolumuz açıldı. Həm də Cəbrayıl əməliyyatının çox böyük əhəmiyyəti var idi və deyə bilərəm ki, həlledici əhəmiyyəti var idi. Çünki biz düşmənin müdafiə xəttini məhz bu istiqamətdə yara bilmişik.

Cəbrayılın azad olunması artıq beş il bundan əvvəl başlamışdı. Aprel döyüşləri nəticəsində Cocuq Mərcanlı kəndinə insanları qaytarmaq üçün imkanlar əldə edildi. Strateji yüksəkliklər işğalçılardan azad olunandan sonra Cocuq Mərcanlıya həyatın qayıtması artıq mümkün olmuşdur və bu, bizim önəmli qələbəmiz idi. Çünki bu, uzun fasilədən, atəşkəsdən sonra ilk böyük qələbəmiz idi. Düzdür, ermənilər o vaxt bu qələbəni kiçiltmək istəmişdilər. Hətta bəyan edirdilər ki, bu, o qədər də böyük əhəmiyyət daşıyan ərazilər deyil və sanki Ermənistan tərəfi qalib gəlmişdi. Mən hələ o vaxt deyirdim ki, biz gəlmişik onların qazdıqları səngərlərdə yerləşmişik, necə ola bilər ki, Ermənistan burada qalib gəlib?! Biz o vaxt böyük ərazini, əlbəttə ki, o vaxt üçün böyük ərazini - bir neçə min hektarı azad etmişdik və təqribən 9-10 min hektar əraziyə nəzarəti əlimizə keçirmişdik. Təkcə bu istiqamətdə yox, eyni zamanda Ağdərə istiqamətində çox önəmli strateji yüksəklikləri biz o vaxt götürdük ki, İkinci Qarabağ müharibəsində bu yüksəkliklərin çox böyük əhəmiyyəti olmuşdur. O vaxt biz haqlı olaraq Aprel döyüşlərindəki qələbəni Ordumuzun şanlı Qələbəsi kimi qeyd edirdik və bizim qayıdışımızın da başlanğıcı məhz o vaxt olmuşdur. Cocuq Mərcanlıya qayıdış Böyük Qayıdışın başlanğıcı idi. Mənim xatirimdədir, o vaxt Dövlətqaçqınkomun sədri Əli Həsənovdan soruşmuşdum ki, belə bir fikrim var, Cocuq Mərcanlı sakinlərini öz kəndinə qaytaraq. O vaxt orada bir ailə - Oktay Həziyevin ailəsi yaşayırdı. Dedim ki, siz öyrənin görün gəlmək istəyirlər, istəmirlər? Artıq uzun müddət keçib, bəziləri Biləsuvarda, bəziləri Bakıda işləyirlər, indi iş yerləri var, qayıtmaq istəyirlər, yoxsa yox? Bir müddət keçəndən sonra Əli müəllim mənə dedi ki, demək olar onların hamısı qayıtmaq istəyir. Bu, məni çox sevindirdi. Çünki o vaxt müxtəlif fikirlər var idi ki, torpaqlar azad olunarsa, məcburi köçkünlər qayıdacaq, qayıtmayacaq, onların bir çoxları o yerləri görməyiblər, onların uşaqları, nəvələri. Ancaq o sözlər bir daha göstərdi ki, xalqımız nə qədər böyük xalqdır.

Dərhal göstəriş verdim və Dövlətqaçqınkom qısa müddət ərzində böyük bir qəsəbəni saldı və mən 2017-ci ildə o qəsəbənin açılışına gəlmişdim. O vaxt mərhələli şəkildə 150 evdən ibarət qəsəbə salındı, məktəb, tibb məntəqəsi tikildi. Şuşa məscidinin bənzəri olan məscid inşa edildi, iş yerləri üçün imkanlar yarandı. Mən Cocuq Mərcanlıda olarkən demişdim ki, bu gün Şuşa məscidinin - Gövhər ağa məscidinin bənzərini biz burada inşa etmişik, bu, rəmzi məna daşıyır. Şuşa işğaldan azad olunandan sonra ermənilər tərəfindən dağıdılmış bütün məscidlərimizi bərpa edəcəyik. Dörd il keçəndən, daha doğrusu, üç il keçəndən sonra artıq bu sözlər həyatda öz yerini tapmışdır.

Yəni bizim Böyük Qayıdışımız Cəbrayıldan başlamışdır və İkinci Qarabağ müharibəsindəki birinci ciddi uğurumuz da məhz Cəbrayıl şəhəri ilə, Cəbrayıl rayonu ilə bağlıdır. Bu, ölkəmizin tarixində əbədi qalacaq bir hadisədir. Çünki İkinci Qarabağ müharibəsindəki Qələbəmiz tarixi qələbədir. Buna bənzər Qələbə xalqımızın çoxəsrlik tarixində olmamışdır. Bütün xalq bu Qələbəni əldə etmək üçün birləşdi, Ordumuzun arxasında durdu və Ordumuz Ali Baş Komandanın əmrlərini ləyaqətlə yerinə yetirdi. Bir daha demək istəyirəm ki, qəhrəmanlıq, fədakarlıq göstərərək, qan tökərək, şəhidlər verərək biz tarixi ədaləti bərpa etdik, düşməni öz torpağımızdan qovduq, düşmənə lazımi dərsi verdik. Düşmən bizim qabağımızda diz çökdü, ağ bayraq qaldırdı və bundan sonra Azərbaycan xalqı əbədi olaraq qalib xalq kimi yaşayacaq.

Biz həm beynəlxalq hüququ, həm tarixi ədaləti, həm insani ədaləti bərpa etdik. Çünki bax, bu dağıntıları törədən insan deyil, buna insan demək olmaz. Bunu törədən Azərbaycan xalqına o qədər nifrət etməli idi ki, bax, bu çirkin əməllərə əl atsın. O Azərbaycan xalqına ki, ermənilərə vaxtilə qucaq açıb. O Azərbaycan xalqına ki, vaxtilə çar Rusiyası tərəfindən İrandan köçürülmüş ermənilərə burada yer verib. Düzdür, Cəbrayıl rayonunda ermənilər yaşamayıb, heç bir faiz də erməni əhalisi olmayıb. Mən arayışa baxdım, işğaldan əvvəl Cəbrayılda cəmi 10 erməni yaşayırdı. Ancaq Qarabağın digər yerlərində Azərbaycan xalqı onlara yer verdi. Sənə çörək verənə qarşı belə nankorluq, belə qəddarlıq, bu qədər vəhşilik hesab edirəm ki, dünya tarixində misli-bərabəri olmayan barbarlıq və vandallıqdır. Bu gün Ermənistanın havadarları, bax, bunu görməlidirlər. Görmək istəməsələr də, görməlidirlər və görəcəklər. Bütün dünya görür. Biz artıq kitablar nəşr etməyə başlamışıq. Biz təqdimatlar keçirməyə başlamışıq. Biz bütün dünyaya erməni vəhşiliyi ilə bağlı dolğun məlumatın verilməsinə nail olacağıq. Bu prosesə start verilib. Bütün dünya görməlidir ki, biz təkcə özümüzü müdafiə etməmişik, öz ərazimizi bərpa etməmişik, biz erməni faşizminin belini qırmışıq. Erməni faşizmi bu bölgədə qol-qanad açıb və xarici havadarlarının dəstəyinə arxalanıb bizim ərazimizi otuz il ərzində işğal altında saxlamışdı.

Biz hərbçilərimizlə haqlı olaraq fəxr edirik və fəxr edəcəyik. Onlar əsl qəhrəmandırlar. Biz bütün xalqımızla fəxr edirik. Çünki bu 44 gün ərzində göstərilən həmrəylik, göstərilən birlik bütün dünyaya Azərbaycan xalqını çox ləyaqətli və böyük xalq kimi təqdim etdi. Bizim Qələbəmizin rəmzi olan yumruq təkcə güc rəmzi deyil, bu, birlik rəmzidir. Biz birləşdik və istədiyimizə nail olduq, tarixi ədaləti bərpa etdik. Baxın, görün, Ermənistan indi hansı bəyanatlar verir? Otuz il ərzində uydurulan mifologiyadan əsər-əlamət yoxdur. Bəs haradadır onların "müzəffər" ordusu? Haradadır "yenilməz" erməni əsgəri? Bizə qarşı otuz il ərzində çirkin təbliğat aparan, Azərbaycan xalqının ləyaqətini alçaltmağa çalışan artıq öz payını aldı, öz dərsini aldı. Daha heç kim dünyada "müzəffər erməni əsgəri" haqqında bir söz demir. Çünki on min fərarisi olan orduda hansı şücaətdən, hansı qəhrəmanlıqdan söhbət gedə bilər? Heç kim "yenilməz Ermənistan ordusu" haqqında danışmır. Ermənistan ordusu yoxdur. Biz onu məhv etmişik, dibdən-kökdən məhv etmişik. Onların otuz il ərzində yığdıqları bütün texnikanı darmadağın etmişik. Onun bir hissəsi Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Canlı qüvvəsini məhv etmişik. Bunu Azərbaycan xalqı edib və öz üstünlüyünü göstərib.

Ona görə bu mifologiyaya son qoyuldu. Bizə qarşı olan bütün digər erməni iddialarına tədricən son qoyulmalıdır. Mən bunu demişəm və mən söz deyəndə elə-belə söz demirəm. Bu günə qədər nəyi demişəmsə, hamısını da etmişəm. Ona görə bundan sonra da Ermənistan cəmiyyətində real vəziyyətin düzgün təhlili getməlidir. Artıq mifologiyadan əl çəkməlidirlər. Böyük Ermənistan xülyasından əl çəkməlidirlər. Dənizdən-dənizə qədər mifik Ermənistan xülyasından əl çəkməlidirlər. Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarından əl çəkməlidirlər və əl çəkəcəklər. Bunun başqa yolu yoxdur. Məcbur edəcəyik onları.

Əgər kimsə hesab edir ki, müharibə bitdi və indi hər şey necə deyərlər, əvvəlki məcraya düşəcək, səhv edir. Müharibə bitdi, biz qalib gəldik, yeni reallıq yaratdıq, hər kəs bu reallıqla hesablaşmalıdır və hesablaşacaq. Mən deyəndə ki, biz imkan vermərik Ermənistanda yenə də bizə qarşı hansısa təxribat hazırlansın, mən bunu nəzərdə tuturam. Bizim legitim hüququmuzdur, əgər təhlükə görsək, əgər təhlükənin kiçik bir təzahürünü görsək, biz lazımi addımı atacağıq və heç kim bizi dayandıra bilməz, heç kim bizim qabağımızda dura bilməz. İkinci Qarabağ müharibəsi dövründə Ermənistanın havadarları bizim işimizə müxtəlif yollarla əngəl törətməyə çalışdılar - bəziləri bəyanatlar verməklə, bəziləri başqa yollarla onlara praktiki kömək göstərməklə. Ancaq bunun heç bir xeyri olmadı, bundan sonra da olmayacaq.

Ona görə İkinci Qarabağ müharibəsinin bitməsi o demək deyil ki, region əvvəlki vəziyyətə qayıdacaq. Heç vaxt əvvəlki vəziyyət olmayacaq. Bunu hər kəs bilməlidir. Bilirəm ki, bəziləri bundan narahatdır. Bəziləri hesab edirlər ki, onlar indi gələcək proseslərdən kənarda qaldılar. Onların öz işidir. Biz hər halda bütün qonşu ölkələrə əməkdaşlıq platformasını təqdim etdik. Türkiyə Prezidenti tərəfindən təklif olunan əməkdaşlıq platformasına Azərbaycan birinci ölkə olaraq öz dəstəyini göstərmişdir. Əgər bu, kimisə qane etmirsə, o platforma bizə də lazım deyil.

Hazırda regionda real praktiki əməkdaşlıq çərçivələri müəyyən olunur. Türkiyə-Rusiya əməkdaşlığı regionumuzun sabitliyinin təminatçısıdır. Bu yaxınlarda Türkiyə və Rusiya prezidentlərinin görüşü zamanı Ermənistan-Azərbaycan münasibətləri müzakirə olundu və həm Türkiyə, həm Rusiya ilə biz daim təmasdayıq. Mən Prezident olaraq daim təmasdayam. Bölgədə bu gün sabitliyin bərqərar olmasında Türkiyə və Rusiyanın rolu çox böyükdür. Yəni bizə bu format kifayətdir. Ermənistan da bu formata qoşulacaq. Çünki başqa yolu yoxdur. İndi reallıq bundan ibarətdir. Son vaxtlar Türkiyə-Ermənistan əlaqələrinin normallaşdırılması ilə bağlı verilən ifadələri də biz dəstəkləyirik. Biz açıq demişik ki, biz bunu dəstəkləyirik. Hesab edirik ki, bu, region üçün lazımdır. Yəni artıq bu, müharibənin hər hansı bir riskini aradan götürmək üçün lazımdır. Yəni bizim üçün bu format kifayətdir - Türkiyə-Rusiya-Azərbaycan-Ermənistan. Kim istəyir qoşulsun, kim istəmir özü bilər. Hər halda bu gün Azərbaycanın razılığı olmadan bu bölgədə hər hansı bir təşəbbüs gerçəkləşə bilməz. Bunu hər kəs bilməlidir.

Biz xoş niyyət göstəririk. Amma bu, o demək deyil ki, biz özümüzə qarşı əsassız ittihamları qəbul edəcəyik. Mən bunu burada - Cəbrayılda, bax, burada Araz çayının kənarında deyirəm, Azərbaycan xalqına və bütün dünyaya, bizə qarşı əsassız ittihamlar cavabsız qalmayacaq. Biz bu ittihamları rədd edirik, qəbul etmirik və sübutlar tələb edirik. Bilirsiniz, bu yaxınlarda İranın hansısa əyalət mollası ağzını açıb Azərbaycana qarşı iftiralar uydurmuşdur. Mənə məlumat verildi, mən dedim ki, fikir verməyin. Hansısa əyalət mollasının sözləri ilə biz indi bu fikirlərə əhəmiyyət verəsi deyilik. O kimdir ki?! Sadəcə olaraq, əhəmiyyət verməyin. Amma sonra əfsuslar olsun ki, rəsmi şəxslər bizə qarşı əsassız ittihamlar irəli sürməyə başlamışlar. Guya ki, Azərbaycan bu bölgələrə İsraili gətirib. Gözlərini açsınlar, görsünlər. Onlar İsraili burada harada görüblər?! Burada bir adam da yaşamır. Burada bir bina da yoxdur. Sübutlar var? Yoxdur. Sübutlar yoxdursa, hər kəs gərək dediyi sözlərə görə cavabdehlik daşısın. Biz imkan verə bilmərik ki, bizə qarşı kimsə əsassız iftira uydursun.

Azərbaycan müstəqil siyasət aparan ölkədir. Bunu hər kəs bilir və birinci il deyil ki, müstəqil siyasət aparırıq. Qonşularımızla və bütün başqa ölkələrlə münasibətləri müstəqil siyasət əsnasında qururuq. Heç kim bizim daxili işimizə qarışmasın. Biz hansı ölkə ilə hansı səviyyədə münasibətlər qururuq, bizim öz işimizdir. Axı biz Ermənistan ilə sıx dostluq əlaqələri olan ölkələrə qarşı iddia qaldırmırıq. Görün Ermənistanın nə qədər havadarı var, İkinci Qarabağ müharibəsi bunu göstərdi. Görün bu gün Ermənistanı dəstəkləyən nə qədər ölkə var. Yəni biz bu ölkələrlə düşmən olaq? Yox. Bu, ölkələrin suveren hüququnu biz qəbul edirik. Onların suveren işidir. Bəli, haradasa daxili aləmimizdə bundan narahat ola bilərik, bizi incidə bilər, xüsusilə yaxın olan ölkələr Ermənistanla münasibətlərdə xüsusi canfəşanlıq edəndə. Amma biz bunu heç vaxt dilə gətirmirik. Biz hər bir ölkənin suveren hüquqlarına hörmətlə yanaşırıq və tələb edirik ki, bizim suveren hüquqlarımıza hər kəs hörmətlə yanaşsın, bizim daxili işlərimizə müdaxilə etməsin. Belə cəhdlər əvvəllər də olub, onların hamısı uğursuz olub. Bir daha demək istəyirəm, rəsmi qaydada bizə qarşı səsləndirilən ittihamlar sübuta yetirilməlidir. Gəlsinlər, tapsınlar bir xarici vətəndaş var bu bölgədə?

Biz 130 kilometr Azərbaycan-İran sərhədini işğalçılardan təmizlədik. 130 kilometr Ermənistanın işğalı altında idi. O vaxt burada hansı proseslər gedirdi, onu gərək araşdırsınlar. Hansı əlaqələr var idi, bunu biz indi araşdırırıq. Yoxsa durduğu yerdə Azərbaycanı ittiham etmək ki, Azərbaycan hansısa ölkəni Azərbaycana gətirib. Guya Azərbaycanı Azərbaycan xalqı yox, Azərbaycan dövləti yox, hansısa kənar qüvvə idarə edir. Bu, bizə qarşı hörmətsizlikdir. Biz bunu heç vaxt qəbul edə bilmərik. Hər kəs də bunu bilməlidir. Bundan sonra da Azərbaycan öz xarici əlaqələrini və daxili işlərini bildiyi tərzdə planlaşdıracaq. Heç kim bizim işimizə burnunu soxmasın.

O ki qaldı regionun gələcək inkişafı ilə bağlı, biz əməkdaşlığa hazırıq. Bu yaxınlarda Azərbaycan və Ermənistan xarici işlər nazirləri görüşmüşdülər. BMT Baş Assambleyasının sessiyası əsnasında, o cümlədən onların arasında ikitərəfli görüş olmuşdur. Mənə bizim xarici işlər naziri məruzə elədi və bildirdi ki, görüş konstruktiv keçib. Biz də elə bunun tərəfdarıyıq. Eyni zamanda yəqin Azərbaycan ictimaiyyəti bilir, bu yaxınlarda mən demişdim ki, Ermənistan baş naziri ilə görüşməyə hazıram. O da demişdi ki, hazırdır. Yəni bu, nəyi göstərir? Bu onu göstərir ki, bizim gündəliyimiz artıq burada qəbul olunur. Bəziləri yəqin ki, bundan narahatdır. Amma əsas odur ki, Azərbaycanla Ermənistan arasında barışıq olsun, yəni sülh müqaviləsi imzalansın. Biz bunu istəyirik. Sərhədlərin delimitasiyası həyata keçirilsin. Yoxsa kimsə bizi ittiham edir ki, biz bölgədə sərhədləri dəyişdirmək istəyirik. Nəyin əsasında bizə qarşı bu ittiham səsləndirilir? Bizim sərhədlərimiz 30 il ərzində pozulmuş vəziyyətdə olanda nədənsə Ermənistana qarşı belə ittihamlar irəli sürülmürdü. O qəbul idi? Biz heç kimin sərhədini pozmamışıq. Biz Laçın və Kəlbəcər rayonlarında Ermənistanla həmsərhəd olan bölgələrə 30 ildən sonra gəlmişik. Qar əriyəndən sonra gəlmişik, may ayında. Qar tez ərisəydi, tez gələrdik. Yəni 30 il ərzində bu sərhəd ermənilərin əlində idi. Əgər sərhəd oradan keçirdisə, qoruyardılar da bu sərhədi. Əgər biz sərhədi pozmuşuqsa, gəlib çıxarardılar da bizi oradan. Gəlib hücum edərdilər. Barışıblar axı onlar bununla, barışıblar. İndi Ermənistan bununla barışdığı bir dövrdə kimsə gəlir deyir ki, biz kiminsə sərhədini pozmuşuq. Biz heç kimin sərhədini pozmamışıq.

# zəfərlə başa vuracağıq

## Prezident İlham Əliyev Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşüb, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoyub







Xəritələr var, 1920-ci ilin xəritələri, çar Rusiyasının xəritələri. Gəlsinlər görsünlər sərhəd haradan keçir. Biz harada yerləşmişik oranı Azərbaycan ərazisi sayırıq və düz də edirik. İndi Ermənistan rəhbərliyi ən yüksək səviyyədə açıq-aydın bəyan edir ki, Azərbaycan Gorus-Qafan yolunun müəyyən hissəsində haqlı olaraq yerləşib. Çünki sovet dövründəki xəritələr bunu göstərir. Biz öz ərazimizdəyik. İndi Ermənistan bunu deyir. Başqası deyir ki, biz kiminsə sərhədini pozmuşuq, gülməlidir. Ona görə regionda yeni dövr başlayır. Biz hesab edirik ki, bu dövrü müsbət istiqamətə yönləndirmək lazımdır. Hər halda Ermənistanla Azərbaycan arasındakı bu ədavət əbədi olmamalıdır. Bütün bu dağıntılara, barbarlığa, vəhşiliyə baxmayaraq, biz gələcəyə baxmalıyıq. Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası, sülh müqaviləsi, bir-birinin ərazi bütövlüyünün tanınması istiqamətində, ondan sonra iqtisadi əlaqələrin bərpası, nəqliyyat kommunikasiyalarının açılması, bütün bunlar gündəlikdə olan məsələlərdir. Azərbaycan tərəfində siyasi iradə var. Ermənistan tərəfində də olarsa, hesab edirəm ki, iki ölkə özləri heç bir vasitəçisiz bu məsələləri həll edə bilər və bölgədə uzunmüddətli sülh ola bilər.

Bu gün Cəbrayıl rayonunun inkişafı ilə bağlı çox önəmli gündür. Çünki bu gün artıq bir neçə obyektin təməli qoyuldu. Bu obyektlərin inşası və inşaatından sonra fəaliyyəti zamanı bir çox sosial-iqtisadi məsələlər öz həllini tapacaq. İlk növbədə, təhlükəsizliklə bağlı tədbirlər. Bu gün mən Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissəsinin açılışını etdim. Orada nümayiş etdirilən ən müasir silahlar, sursatlar bizim sərhədlərimizi möhkəm, lazımi səviyyədə qorumaq üçün bizə imkanlar yaradacaq. Bu gün iqtisadi fəallıq üçün önəmli addımlar atıldı. "Araz Vadisi İqtisadi Zonası"nın təməli qoyuldu. Bu, 200 hektarı əhatə edən böyük bir layihədir. Artıq ilkin maliyyə vəsaiti ayrıldı. İlkin investorlar da müəyyən olundu. Bu gün "KamAZ" şirkətinin vitse-prezidenti və Rusiyanın Tatarıstan Respublikasının Baş nazirinin müavini xüsusi olaraq Azərbaycana gəlib və mənimlə bərabər "KamAZ" regional xidmət mərkəzinin açılışında iştirak etmişlər. Bu da çox önəmli hadisədir. Artıq Rusiya şirkəti də bu bölgəyə investisiya qoymağa başlayıbdır. Bildiyiniz kimi, Türkiyə şirkətləri də artıq Zəngilan rayonunda böyük kənd təsərrüfatı layihəsinə investisiya qoymağa başlamışlar. Bizim iki dost, qonşu ölkəmiz Azərbaycana bax, bu münasibəti bəsləyir. Azərbaycan da onlara eyni xoş münasibət bəsləyir. Eyni zamanda, sosial obyektlərin təməli qoyuldu. Xəstəxana, məktəb, bütün bunlar buraya insanların qayıdışı üçün əsas şərtlərdir.

Biz Cəbrayıl rayonunun elektrik təchizatının artıq demək olar ki, bütün işlərini gördük. Bu gün Cəbrayıl yarımstansiyası istifadəyə verildi. Laçın və Kəlbəcər rayonlarında hazırda su elektrik stansiyalarının bərpası işləri gedir. Artıq bir neçə stansiya işə başlayıb, o cümlədən Tərtər rayonunda Suqovuşan Su Elektrik stansiyaları. Mən tapşırıq vermişəm, ermənilər tərəfindən, - onlar qaça-qaç dövründə, Kəlbəcəri, Laçını tərk edən dövrdə, - dağıdılmış stansiyaların 10-nu biz gələn il, qalan 20-dən çoxunu isə ondan sonrakı illərdə bərpa edəcəyik. Yəni, Cəbrayıl rayonunun elektrik təchizatı artıq var. Bu, əsasdır. Çünki bu olmasa, heç nə etmək mümkün olmayacaq.

İndi gəldiyiniz yola da yəqin ki, fikir verdiniz. Görün, nə gözəl yol çəkilir. Cəbrayıla 4-6 zolaqlı yol çəkilir. Vaxtilə Ermənistan rəhbərliyi Cəbrayıla yol çəkmək istəyirdi. O da yarımçıq qaldı, onların bütün arzuları kimi. İndi biz Cəbrayıla yol çəkirik. Bizim haqqımız var. Ən gözəl yollardan biri olacaq. Mən xüsusi tapşırıq verdim ki, geniş olsun, həm Cəbrayıla gələn vətəndaşlar rahat gəlsinlər, həm də buradan keçən Zəngəzur dəhlizi də bu yoldan istifadə edəcək. Bu gün birinci yaşayış binasının təməli qoyuldu. Artıq bu binanın da inşasına start verilir. Bu bina hazır olan kimi Cəbrayıl şəhərinin birinci sakinləri orada yerləşəcək. O vaxta qədər həm xəstəxana olacaq, məktəb olacaq, iş yerləri olacaq. Rayonun bütün kəndlərinin tədricən bərpa edilməsi proqramı da təsdiq edildi. Bu gün, eyni zamanda, Zəfər və İşğal muzeylərinin təməli qoyulacaq. Hesab edirəm, ən önəmlisi odur ki, Cəbrayıl şəhərinin baş planı siz cəbrayıllılara təqdim ediləcək. Biz bu plana bərabər baxacağıq. Əgər razılığınız olarsa, bu planı da təsdiq edəcəyik. Bizim planlarımız bundan ibarətdir. Biz müharibəni Zəfərlə başa vurduq. İndi sülh dövrünü də zəfərlə başlamışıq, zəfərlə başa vuracağıq. Sizi ürəkdən salamlayıram. Sizin simanızda bütün cəbrayıllıları qucaqlayıram, öpürəm. Allah sizə cansağlığı versin. Bundan sonra cəbrayıllılar Cəbrayılda yaşayacaqlar. Sağ olun.

* * *

Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, Baş nazirin sabiq müavini **Əli HƏSƏNOV** dedi:

- Çox hörmətli cənab Prezident. Sizi bu gün Cəbrayıl torpağında görməkdən buradakıların qismində bütün cəbrayıllılar qürur və şərəf hissi keçirirlər. Siz 2003-cü il oktyabrın 1-də cəbrayıllılarla prezident seçkisi qabağı ilk seçicilərlə - cəbrayıllılarla görüşdünüz. Azad edilən ilk kənd Cəbrayıl kəndi, ilk şəhər - rayon mərkəzi Cəbrayıl olub. Deyə bilmərəm, bu təsadüfdür, ya təsadüf deyil, ancaq onu deyə bilərəm ki, Cəbrayıl əhalisi tarixən dövlətə sadiq olub, sadiqdir və bu sadiqlik daim davam edəcək. Yəqin ki, burada təsadüfi hal yoxdur. O ki qaldı 44 günlük Vətən müharibəsinə, bu 44 günün hər biri möhtəşəm, hər bir saatı Qələbə saatıdır. Siz insanları elə öyrətmişdiniz ki, hamı gözləyirdi, hər dəqiqə nə isə deyilməlidir, hər saat nə isə deyilməlidir. Yəni, bir anlığa 28 illik həsrəti yaddan çıxarırdılar, unudurdular ki, 28 ildir biz həsrət içindəyik.



Cənab Prezident, Siz bu torpağın sahiblərinin, sakinlərinin 28 illik itirilmiş sakinliyini, sahibliyini özünə qaytardınız. Bu elə bir Qələbədir ki, bunun dünya tarixində bənzəri olmayıb və olmayacaq. O hərbi əməliyyatların dünya hərb tarixində də bənzəri yoxdur və olmayacaq. Olmayacaq ona görə deyirəm ki, bu gün dünyada 70-ə qədər belə münaqişə var. Əgər kimsə bunu edə bilərdisə, hansı dövlət başçısı bunu həll edə bilərdisə o münaqişələri həll edərdilər, çünki o cür dövlət başçısı, o cür dövlət rəhbəri hansı ki, o xasiyyət, o qabiliyyət, o bacarıq, o siyasət, o dünyagörüşü, o mərdlik, o cəsarət Sizdə var, onlarda yoxdur, olsaydı edərdilər. Bəlkə bundan sonra ola bilər kimsə həvəsə düşsün, amma düşməsin, uduzacaq, onların heç biri İlham Əliyev ola bilməz. Elə bilməsinlər ki, bu, asandır.

Siz hərb tarixinə yenilik gətirdiniz. Siz Azərbaycana çox yenilik gətirmisiniz, artıq çox Azərbaycan modelləri var, bütün o brendlər ki var, onların hamısının müəllifi Sizsiniz. Dünya hərb tarixinə yeni bir model - Azərbaycan modeli gətirdiniz. 44 günlük hərbi əməliyyatlar yeni hərbi brenddir, o, cənab İlham Əliyevin brendidir. Ona görə böyük Qələbəmiz münasibətilə Sizi bir daha təbrik edirik, Sizə möhkəm cansağlığı, yeni-yeni uğurlar, qələbələr arzu edirik. Biz əminik ki, bu, belə də olacaq.

2003-cü ildəki görüşdə Siz dediniz ki, mənim bir arzum var, hesab edirəm, bu, hamının arzusudur. Torpaqları işğaldan azad edib, Cəbrayıla gəlib, sizin qonağınız olacağam. Düzdür, bu gün bir balaca fərqli oldu, biz Sizin qonağınız olduq. Görünür, belə də olmalı imiş.

O ki qaldı 10 noyabr Bəyanatına, düzdür, onu siyasətçilər geniş təhlil edirlər, ancaq mən hesab edirəm ki, o da Sizin siyasətinizin gücü idi - üç ölkənin bir yerə gəlməsi, Rusiyanın vasitəçilik etməsi. Hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanla Sizin Şuşa Bəyannaməniz də tarixi hadisədir. Özünüz də qeyd etdiniz ki, həqiqətən son 100 ildə Türkiyə ilə Azərbaycan arasında belə milli birlik, qardaşlıq olmayıb. Bu, son 17 ildə Sizin, o cümlədən cənab Rəcəb Tayyib Ərdoğanın prezidentlik fəaliyyətiniz dövründə daha yüksək zirvəyə qalxdı. Bu gün biz hər şeyi açıq deməliyik. Bu gün gənc nəsil bilməlidir ki, biz haradan haraya gəlmişik. Siz bu tövsiyələri həmişə edirsiniz. Çünki çox təəssüflər olsun, bugünkü gənc nəslin beynini korlayanlar da var. Ona görə də nə olub, hansı nailiyyətlər olub, necə qazanılıb, Ulu Öndərin 1969-cu ildən gördüyü işləri hamı bilməlidir. Əslində, bu hazırlıq 50 ildir gedirdi, amma Siz onu 17 ildə bu zirvəyə çatdırdınız.

O nə millətdir ki, onun dini rəhbəri faşizm ideologiyasını təbliğ edir. Bundan millətmi olar? Dünyada bu cür ikinci millət harada var ki, gənclərinin beynini, ruhunu faşizm ideologiyası ilə korlasın. Siz bunların hamısını məhv etdiniz. Ermənilərin qaməti bundan belə heç vaxt düzəlməyəcək. Bizim əyilmiş qamətimizi düzəltdiniz. Biz başıaşağı gəzirdik, başımızı dikəltdiniz. Siz elə bir şöhrət qazanmısınız, elə bir Qələbə çalmısınız, Azərbaycan xalqına elə bir sevinc bəxş etmisiniz ki, onun əvəzi yoxdur, olmayacaq, bənzəri də dünya tarixində olmayacaq.

Var olun, sağ olun, Sizə möhkəm cansağlığı, yeni qələbələr, yeni uğurlar arzulayırıq.

Sonda mən öz sözümü deyirəm, bir cümlə deyəcəyəm, 10 saniyə vaxtınızı alacağam. 2001-ci ilin noyabr ayında Yeni Azərbaycan Partiyasının II qurultayı idi. Orada çıxışımın sonunda bir cümlə işlətdim, qurultaya aidiyyəti də yox idi. Dedim, bütün Azərbaycan xalqı deyir ki, Şuşasız Qarabağ olmaz, Qarabağsız Şuşa olmaz, mən isə deyirəm ki, Əliyevlərsiz Azərbaycan olmaz və olmayacaq!

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

* * *

Cocuq Mərcanlı kəndinin sakini, 1-ci dərəcəli "Əmək" ordenli **Oqtay HƏZİYEV** dedi:

- Cənab Prezident, əvvəlcə mən Sizi bütün cəbrayıllılar adından salamlayıram. Bütün cəbrayıllılar adından Sizə böyük təşəkkürümü bildirirəm. Çox sağ olun, cənab Prezident.

Siz 2017-ci ildə Cocuq Mərcanlıya gələndə bizim ailənin qonağı oldunuz və dediniz ki, Qarabağ torpağı qarışına qədər azad olunacaq. Biz Sizin sayənizdə bunun bariz nümunəsini gördük. Sizin rəhbərliyinizlə yaradılmış yenilməz Azərbaycan Ordusu və Sizin dəmir yumruğunuz, Sizin qətiyyətiniz sayəsində torpaqlarımız işğaldan azad olundu. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Qazilərimizə şəfa diləyirik ki, onlar tez bir zamanda sağalıb həyata qayıtsınlar.

Çox sağ olun, cənab Prezident. Siz əsl sərkərdə, əsl Ali Baş Komandan kimi tarix yazdınız. Sizin bütün xidmətləriniz Azərbaycan xalqının gözü önündədir. Çünki işğaldan azad olunmuş bütün ərazilərdə ən yüksək səviyyədə quruculuq-abadlıq işləri gedir. Noyabrın 10-da mənim Şuşa şəhərində yaşamağımın bir ili tamam olacaq. Orada və Qarabağın bütün ərazisində böyük, möhtəşəm, bənzəri olmayan quruculuq işləri gedir. Bu, Sizin sayənizdədir. Yəni, müharibədən çıxmış bir ölkənin bu qədər genişmiqyaslı quruculuq işləri aparması dünya tarixində görünməyib.

Sağ olun, cənab Prezident. Sizin Azərbaycan xalqı qarşısında danılmaz, böyük xidmətləriniz var. Siz əsl sərkərdəsiniz. Siz əsl Ali Baş Komandansınız. Var olun. Sizə nə qədər təşəkkür etsək, azdır. Allah Sizin canınızı sağ eləsin. Ailənizlə, balalarınızla xoşbəxt yaşayasınız. Allah-Təala Sizi həmişə zirvədə saxlasın, Azərbaycan xalqının başı üzərində Ali Baş Komandan kimi, sərkərdə kimi qalasınız.

* * *

**Prezident İlham ƏLİYEV:** Çox sağ ol, Oqtay, təşəkkür edirəm. Oqtay Həziyev o insanlardandır ki, heç nəyə baxmadan, heç kimdən qorxmadan təkbaşına öz ailəsi ilə Cocuq Mərcanlıda 20 ildən çox yaşayıb. Mən sonra xəbər tutdum. Biz Cocuq Mərcanlının ətrafını təmizləyəndən sonra mən Əli müəllimdən soruşanda, dedi ki, belə bir ailə var, orada yaşayır, heç yerə getməyib. Hətta orada böyük təsərrüfatla məşğuldur və ordumuza da kömək göstərir, ərzaq göndərir. Öz əlinin zəhməti ilə əldə etdiyi imkanları ordu ilə bölüşür. Dedim, gör nə qədər böyük bir şəxsiyyətdir. Cocuq Mərcanlıya gələndə o vaxt mən "Əmək" ordenini təzə təsis etmişdim və onu heç kimə vermirdim. Halbuki namizədlər var idi, dedim ki, yox, mən onu o kişiyə verəcəyəm. Mən birinci ordeni o kişiyə verdim və evində də təqdim etdim, qucaqladım, öpdüm. Doğrudan da, Azərbaycan Oqtay kimi insanların üstündə dayanır. Sağ ol, Oqtay, sağ ol.

* * *

Milli Məclisin deputatı **Ceyhun MƏMMƏDOV** dedi:

- Çox hörmətli cənab Prezident. Mən də cəbrayıllılar adından Sizi salamlayıram. Biz çox sevinirik ki, bu gün Sizi Cəbrayıl torpağında qarşılayırıq. Bu gün Sizin rəhbərliyinizlə Azərbaycan öz tarixinin ən şərəfli, qürurlu günlərindən birini yaşayır. Son 200 ildə Azərbaycan ilk dəfə torpaq itirmədi, itirilmiş torpaqlarını bərpa etdi. Mən hesab edirəm ki, bunu yalnız Siz edə bilərdiniz. Bu siyasətin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Siz bu uzaqgörən və müdrik siyasəti davam etdirdiniz və Azərbaycanı xoş günlərə gətirib çıxardınız.

Bu gün dünyada çoxlu sayda ölkələr var. Eləsi var, onun 50-100 il müstəqillik tarixi var, ancaq onlar bu gün nə dövlət qura biliblər, nə də ordu qura biliblər. Amma Siz Azərbaycanda bütün sahələrdə böyük inkişafa nail oldunuz. Mən xatırlayıram, 1993-cü ilin iyun ayı idi. Biz hamımız televizorun qarşısında idik. Ulu Öndərin Azərbaycana qayıdışından söhbət gedirdi və hamı deyirdi ki, Azərbaycanın bir nicat yolu var, o da Ulu Öndərin Azərbaycana qayıdışıdır və həqiqətən də belə oldu. Ulu Öndər gəldi, Azərbaycanda sabitlik təmin olundu və sonra da Siz bu siyasəti davam etdirdiniz.

Eyni zamanda, bu gün mən bir məsələyə də toxunmaq istəyirəm. Siz Cocuq Mərcanlıda olarkən çox qəti şəkildə dediniz ki, zaman gələcək, biz Qarabağdakı məscidlərimizi də bərpa edəcəyik, tikəcəyik. Bu gün biz bunu Şuşanın timsalında görürük və inanırıq ki, bu siyasət Cəbrayılda da davam etdiriləcək. Şərq dünyasında belə bir söz var - fateh. Torpaqları işğaldan azad edən insanlara fateh deyirlər və mən hesab edirəm ki, Qarabağın fatehi Sizsiniz. Biz izləyirdik, Siz 44 günlük müharibədə informasiya cəbhəsində də çox uğurlu siyasət həyata keçirirdiniz. Siz mətbuata, televiziyaya verdiyiniz 26-dan çox müsahibə ilə bu müharibənin önündə gedirdiniz. Eyni zamanda, ordumuza rəhbərlik edərək bizi möhtəşəm Qələbəyə gətirib çıxardınız. Siz bunu daim qeyd edirsiniz ki, erməni faşizminin belini qırdınız, ümumiyyətlə, dünyada bu faşizmi məhv etdiniz.

Bu gün bir çox ölkələrdə münaqişələr var, ancaq onların heç biri həll olunmayıb. Sizin rəhbərliyinizlə Azərbaycan bu münaqişəni həll etdi və bu gün dünya dövlətləri Azərbaycana qibtə edirlər. Hesab edirəm ki, bu gün Ulu Öndərin ruhu bizimlədir, getdiyimiz bütün torpaqlardadır. Siz qeyd etmişdiniz ki, Ulu Öndərin ən böyük arzularından biri də torpaqlarımızın azad olunması idi. Çox şükür ki, torpaqlarımız azad olunub və biz Sizinlə bir yerdə bu günü qeyd edirik, Qələbə ilini qeyd edirik. Biz inanırıq ki, Sizinlə daha böyük uğurlara nail olacağıq. Mən Sizə cansağlığı, daha böyük uğurlar arzulayıram. Allah Sizi qorusun.

**Prezident İlham ƏLİYEV:** Sağ ol.

* * *

Mədəniyyət və İncəsənət Universitetinin dosenti, Əməkdar artist **Yaqut ABDULLAYEVA** dedi:

- Möhtərəm Prezidentimiz, cənab Ali Baş Komandan, dahi sərkərdə. Sizin siyasətiniz sayəsində biz bu gün gözəl Cəbrayıldayıq. Cəbrayıllılar Sizi çox istəyir, Allah da Sizi çox istəyir. Allah bizim bütün dualarımızı qəbul etdi. Siz Şuşada çıxış edəndə dediniz ki, Allah bizim dualarımızı eşitdi. Sizi hamı çox sevir, bütün Azərbaycan sevir. Biz Sizinlə fəxr edirik. Bütün şəhidlərin ruhu qarşısında baş əyirəm.

# Sülh dövrünü də zəfərlə başlamışıq,

## Prezident İlham Əliyev Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşüb, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoyub






Cənab Prezident, bütün cəbrayıllılar adından Sizə minnətdarlığımı bildirirəm. Allahdan Ulu Öndərimizə, şəhidlərimizə rəhmət diləyirəm. Bu gün Ulu Öndərimizin, şəhidlərimizin müqəddəs ruhları şaddır. Bütün şəhid analarının qarşısında baş əyirəm. Cənab Prezident, Allahım Sizi qorusun. Həmişə var olun, biz Sizi çox istəyirik, həmişə də çox istəyəcəyik. Siz bizim ürəyimizsiniz. Amma, nə olar, sözümü yerə salmayın, mənim bir il ərzində bir arzum var idi - Sizin dəmir yumruğunuzu öpüb gözümün üstünə qoymaq.

* * *

AZƏRTAC-ın İdarə Heyətinin sədri **Aslan ASLANOV** dedi:

- Möhtərəm cənab Prezident, Müzəffər Ali Baş Komandan. Bu gün həqiqətən həyatımızın ən xoşbəxt günlərindən birini yaşayırıq. Region üçün nümunə olacaq Cəbrayılın təməl daşlarını qoymağınız bütün cəbrayıllılar tərəfindən böyük rəğbətlə, hörmətlə, qürur hissi ilə qəbul olunur. Biz - bu gün buraya toplaşan cəbrayıllılar isə xoşbəxtik ki, - görünür bu da taleyin qismətidir, - bu cür tarixi hadisənin şahidiyik və həm də Müzəffər Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyev ilə bir yerdəyik. Buna görə də bu xoşbəxt günü bizə bəxş etdiyiniz üçün Sizə ürəkdən minnətdarıq. Tanrı Sizi qorusun, Siz Azərbaycan xalqının, sözün həqiqi mənasında, xilaskarısınız. Siz Cəbrayılın işğaldan azad olunması mesajını verəndən sonra qələbələr bir-birini əvəz etdi. Azərbaycan torpağı Sizin, sözün həqiqi mənasında, dahi sərkərdəliyiniz sayəsində 44 gündə dünyada, hərb elmində tayı-bərabəri olmayan Qələbə qazandı, Azərbaycan torpaqları işğaldan azad edildi, düşmən diz çökdürüldü və məcbur edildi ki, təslim aktına imza atsın. Bunlar bizim üçün, bütün Azərbaycan xalqı üçün böyük şərəf və qürurdur. Siz Azərbaycan xalqının qalib xalq, qəhrəman xalq olduğunu bütün dünyaya göstərdiniz. Bütün dünyaya dediniz ki, bu xalq ləyaqətli xalqdır, bu xalq qürurlu xalqdır, bu xalq döyüşməyi bacaran xalqdır, bu xalq torpağı uğrunda ölməyə, şəhid olmağa hazır xalqdır. Siz bütün dünyaya bunu göstərdiniz və bu, tarixdə əbədi qalacaq.

Cənab Prezident, Müzəffər Ali Baş Komandan, bu, böyük bir tarixdir. Siz çoxəsrlik Azərbaycan tarixinə şanlı, şərəfli səhifələr yazdınız və bu səhifələr yeni quruculuq işləri ilə bundan sonra da davam edəcək.

Biz bütün cəbrayıllılar böyük fəxrlə demək istəyirik ki, bu işlərin görülməsində həm də xalqımızın sevimlisi olan Mehriban xanım Sizinlə çiyin-çiyinə, əsl silahdaş kimi Sizə dayaqdır, köməkdir. Müharibə dövründə Mehriban xanımın verdiyi mənəvi, siyasi dəstək, etdiyi çağırışlar, işğaldan azad olunan bölgələrə səfərləriniz tariximizin ən parlaq səhifələridir.

Cənab Prezident, xüsusi vurğulamalıyam ki, Ulu Öndər Heydər Əliyev xalqımızın ilk xilaskarı idi. 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyev Azərbaycana gəldi və dağılan, parçalanan, dünyanın gözü götürməyən Azərbaycanı yenidən qurdu, müasir müstəqil Azərbaycan dövlətinin banisi oldu. Cənab Müzəffər Ali Baş Komandan, biz fəxr edirik ki, Siz Heydər Əliyevin qurub yaratdığı Azərbaycanı dünyada ən inkişaf etmiş ölkələrdən birinə çevirdiniz. Siz Azərbaycanı qüdrətli dövlətə çevirdiniz. Bütün dünya Azərbaycan ilə hesablaşır, bütün dünya İlham Əliyev siyasəti ilə hesablaşır. Bütün dünya Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf yolu ilə, Sizin müdrik siyasətinizlə istər-istəməz hesablaşmağa məcburdur.

Cənab Prezident, Tanrı Sizi qorusun. İnanın ki, bütün cəbrayıllılar, bütün Azərbaycan xalqı hər səhər, hər axşam öz dualarına onunla başlayır ki, Müzəffər Ali Baş Komandan, Tanrı Sizi qorusun. Siz Azərbaycanın taleyini həll etdiniz.

Sağ olun, minnətdaram, təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

* * *

Cəbrayıl Rayon Ağsaqqallar Şurasının sədri **Vaqif MƏHƏRRƏMOV** dedi:

- Çox hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan. Sizin Ali rəhbərliyiniz və sərkərdəliyiniz ilə qısa müddətdə - 44 gün ərzində torpaqlarımız işğaldan azad olundu. Bütün cəbrayıllılar Sizin hər bir çıxışınızı televizor qarşısında ayaq üstə alqışlayırdılar. Müharibənin hər günü cəbrayıllılar üçün, demək olar ki, bir ilə bərabər idi. Niyə? Çünki ön cəbhədə gedən döyüşləri səbirsizliklə izləyirdilər və nəticəni də Allaha şükür, gördük. Bu gün bütün cəbrayıllılar Sizinlə öyünür, fəxr edir, həqiqətən, onların sevincinin həddi-hüdudu yoxdur.

Siz və Ordumuz bizim qamətimizi, qəddimizi düzəltdiniz. Ona görə də biz bu gün sevinirik, fərəhlənirik, Sizinlə fəxr edirik.

Cənab Prezident, mən Cəbrayıl ağsaqqallarının adından da bir söz deyəcəyəm. Çünki Cəbrayıl ağsaqqallarının dilində bu gün bir söz səslənir və o sözü onlar hər yerdə səsləndirirlər. Cəbrayıl ağsaqqalları istəyirlər ki, Müzəffər Ali Baş Komandan, cənab Prezident ölkəmizin daimi Prezidenti olsun. Ona görə də böyük məmnuniyyətlə deyirik, cənab Prezident, Sizə eşq olsun. Cəbrayıllılar Sizi çox sevir, həqiqətən bütün Cəbrayıl Sizin arxanızdadır. Allah Sizi qorusun. Sağ olun.

* * *

**Prezident İlham ƏLİYEV** dedi:

- Xoş sözlərə görə təşəkkür edirəm. Bu gün, doğrudan da, tarixi bir gündür. Birincisi ona görə ki, 4 oktyabr Cəbrayıl rayonunun tarixində Zəfər Günü, işğaldan qurtuluş günü kimi əbədi qalacaq. Digər tərəfdən, bu gün Cəbrayılın bərpası işlərinə bərabər start veririk. Həm Zəfər, həm də bərpa işləri dövlətimizin, xalqımızın gücünü göstərir. Çünki gücümüz olmasaydı, biz bu Zəfəri əldə edə bilməzdik. Mən Prezident kimi öz fəaliyyətimi bunun üzərində qurmuşdum. Çünki bizim əsas hədəfimiz Qarabağın işğaldan azad edilməsi idi. Bütün başqa addımlar - Regionların sosial-iqtisadi inkişafı Proqramı, neft-qaz, nəqliyyat sahələrindəki təşəbbüslərimiz, ölkə iqtisadiyyatının canlandırılması, Neft Fondunun valyuta ehtiyatlarının toplanması, xarici siyasət, böyük dövlətlərlə münasibətlərimiz, qonşu dövlətlərlə münasibətlərimiz - bütün bu işlərin fövqündə bu müqəddəs an dayanmışdı - Zəfər Günü. Biz bütün bu gücləri səfərbər edib xalqımızın zəhməti, qəhrəmanlığı hesabına istədiyimizə nail olduq.



Əlbəttə, Ulu Öndər haqqında burada deyildi. Əgər Azərbaycan xalqı 1993-cü ildə özünə xas olan müdriklik göstərməsəydi, Ulu Öndəri dəvət etməsəydi, Azərbaycanın taleyi çox qaranlıq ola bilərdi. Biz o vaxt itirilmiş torpaqları nəinki bərpa edə bilərdik, biz daha böyük fəlakətlərlə üz-üzə qala bilərdik. Biz hələ yaranmaqda olan dövlətçiliyi itirə bilərdik. Bu, tam həqiqətdir. Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətləri bu gün burada özünü göstərib. Çünki bu təməli O qoydu - ordu quruculuğu, islahatlar, neft kontraktları, ölkəmizə ilk valyutanın gəlməsi. Elə ilk vəsaiti də məhz köçkünlərin yaşayış şəraitinin yaxşılaşmasına O istiqamətləndirmişdi. Əli müəllim yaxşı xatırlayır, Aşağı Ağcakənd kəndində, o yağışlı havada, yadınızdadır, biz bərabər idik, Ulu Öndərin arxasında durmuşduq. Aşağı Ağcakənd kəndinin yenidən qurulması çox böyük məna daşıyırdı. Çünki sovet vaxtında ona Şaumyan rayonu deyirdilər. Köçkünlər üçün birinci şəhərciyi məhz orada saldı, birinci vəsaiti oraya ayırdı. O vaxt bizim pulumuz yox idi, xəzinə boş idi. Neftin satışından ilk pul gəldi, dedi ki, onu da oraya verəcəyik. Mən də bu yolla getdim. 2003-cü ildə xalq mənə etimad göstərəndə dedim ki, atamın yolu ilə gedəcəyəm. Məcburi köçkünlər üçün nə qədər böyük işlər görüldü. Əli müəllim bu işlərin icraçısı idi, 100-dən çox şəhərcik salındı. Amma hər dəfə keçmiş köçkünlərlə görüşəndə deyirdim ki, - onlar da, əlbəttə, təşəkkürünü bildirirdilər, - bu, müvəqqətidir. Yadınızdadır, deyirdim müvəqqətidir. Torpaqlar azad olunandan sonra daha yaxşı evlər tikəcəyik. Bax, bu gün ediləcək təqdimat həmin sözlərin təsdiqidir. O evlər də yaxşı evlər idi. Xaricdən gələnlər, beynəlxalq təşkilatların nümayəndələri müharibədən əvvəl köçkünlərə baş çəkəndə məəttəl qalırdılar ki, siz burada köçkünlər üçün beşulduzlu hotel səviyyəsində şəhərciklər salırsınız. Biz də deyirdik ki, bizim standartlarımız budur. Bizim üçün ən prioritet kateqoriya insanlar bunlardır. Bunlar əziyyət içində yaşayıblar, gərək ən yaxşı şəraitdə yaşasınlar. Deyirdim ki, daha yaxşı şərait yaradacağıq və yaradırıq.

Bu gün həm Cəbrayılda, həm də işləri artıq başlanan Ağdamda, Şuşada ən yüksəksəviyyəli işlər görüləcək. Mən bu işləri hər hansı bir başqa standartlarla müqayisə etmək istəmirəm, çünki o, şəhərsalma işlərində mövcud deyil. Bu praktika şəhərsalma işlərində birinci praktikadır və biz dünyanın ən gözəl təcrübəsini gətirmişik. Bütün işlər ən mütərəqqi texnologiyalar əsasında qurulacaq və bu işləri biz, necə deyərlər, özümüzə borc bilib görəcəyik.

Qayıdıram o sözlərə - əgər Ulu Öndər bu ölkənin təməlini düzgün qoymasaydı və dövlətçilik qurmasaydı, bu gün Zəfərdən söhbət gedə bilməzdi. Sadəcə olaraq, Azərbaycan xalqı müdriklik göstərib, 2003-cü ildə və ondan sonrakı illərdə onun siyasətinə səs verib. Bütün təzyiqlərə, hədə-qorxulara, təhqirlərə, yalanlara, uydurmalara baxmayaraq, biz bu yoldan dönmədik. Neçə dəfə bizi devirmək istəmişdilər? Bunu Azərbaycan xalqı yaxşı bilir, bunu mən yaxşı bilirəm, çünki bəzi xarici dairələr bəzi yerli satqınların əli ilə məni devirmək istəyirdilər. Alınmadı. Nə üçün? Xalq dəstəkləmədi. Əgər xalq dəstəkləsəydi, əlbəttə, buna nail ola bilərdilər. Görün postsovet məkanında zor tətbiq etməklə nə qədər çevriliş baş verib. Buna indi inqilab deyirlər, çevriliş deyirlər, təkamül deyirlər. Amma fakt odur ki, hakimiyyət dəyişikliyidir. Elə götürün bu Ermənistanı. Əvvəlki Ermənistan rəhbərliyinə erməni xalqı o qədər nifrət edirdi ki, hətta müharibəni uduzmuş insana yenə də səs verdi, təki onlar qayıtmasınlar. Ona görə xalq dəstəkləmədi. Çünki xalq bilirdi, görürdü ki, bizim işimiz haqq işidir, biz ölkəmizi gücləndiririk.

Bizə edilən təzyiqlərin və təxribatların təməlində də bax, Qarabağ amili idi. Çünki prezidentlik dövründə, - mən bunu bir neçə dəfə demişəm, indi hələ vaxt tam yetişməyib ki, mən xalq qarşısında tam mənzərəni açım, - amma belə tezislər var idi ki, bəli, siz gərək Qarabağı unudasınız, siz gərək bu vəziyyətlə barışasınız, deməli, Ermənistanla barışasınız, əməkdaşlığa başlayasınız. Neçə dəfə təklif edilirdi ki, Azərbaycan güc tətbiq etməməklə bağlı öhdəlik götürsün öz üzərinə. Mən hər dəfə imtina edirdim, hər dəfə! Sonuncu dəfə Aprel döyüşlərindən sonra Vyana görüşündə. O vaxt məğlubiyyətdən sonra Ermənistanı dəstəkləmək üçün Minsk qrupunun həmsədri olan Amerika Birləşmiş Ştatları Vyanada tələm-tələsik bu görüşü təşkil etmişdi. Mən o görüşə gələndə artıq orada Minsk qrupunun xarici işlər nazirləri əyləşmişdilər və mənə bir protokol, yəni, bir bəyanat mətnini verdilər. Mən elə orada dedim ki, əgər bunu siz hazırlamısınızsa, bunu bir gün əvvəl, iki gün əvvəl verəydiniz. Niyə məni fakt qarşısında qoyursunuz? Mən başladım orada oxumağa. Gördüm ki, burada bizə sərf etməyən müddəalar var, o cümlədən güc tətbiq etməməklə. Mən imtina etdim. Dedim ki, mən buna imza atmayacağam. Dedilər necə? Dedim belə. Siz özünüz nə istəyirsiniz qəbul edin, mən buna imza atmayacağam. Yəni, sözüm odur, bütün təzyiqlərin təməlində bu dayanmışdı ki, biz daxili problemlərlə məşğul olaq, daxili problemlərin içərisində çabalayaq ki, Qarabağ unudulsun və Ermənistan bu torpaqlara əbədi sahib olsun. Bəzi xarici ölkələrin nümayəndələri deyirdilər ki, siz gərək reallıqla hesablaşasınız, siz müharibəni uduzmusunuz, yeni müharibəni heç kim qoymayacaq, biz qoymayacağıq, qonşu ölkələr qoymayacaqlar. Bizi hədələyirdilər. Hədələyirdilər ki, müharibə başlasa, biz yenə torpaq itirəcəyik. Ermənistanın oğurluğa görə bu gün həbsdə olan keçmiş müdafiə naziri bizi hədələyirdi. Amerika da hədələmişdi. Yəni, o, bunu özbaşına demişdi? Yox! Onun ağzına bu sözləri qoyanlar olub ki, biz bu vəziyyətlə barışaq, bu torpaqlardan əl çəkək, deyək ki, bəli, gəl indi Ermənistanla əməkdaşlıq edək. Mən demişdim ki, heç vaxt əməkdaşlıq etməyəcəyik, mən demişdim ki, nəyin bahasına olursa-olsun, Ermənistanı iqtisadi cəhətdən çökdürəcəyik. Bütün neft-qaz kəmərləri, nəqliyyat xətləri, dəmir yolu - hamısı Ermənistandan yan keçdi. Yəni, nəhayət Ermənistanı çökdürdük. İqtisadi cəhətdən artıq bizimlə rəqabət apara bilmədi, hərbi cəhətdən apara bilmədi, müftə alsa da, yenə də o istədiyi silahları ala bilmədi. Beləliklə, Ermənistanda daxili böhran artıq qaçılmaz idi, xalq qalxmışdı, nifrət etdiyi Sarkisyan rejiminə qarşı qalxmışdı və dəyişiklik oldu. Mən o vaxt demişdim, bəli, o dəyişiklikdə bizim əlimiz olub, əlbəttə ki, birbaşa yox. Biz yalan danışmamalıyıq. Bizim birbaşa yox, amma dolayısı ilə. Əgər Ermənistan inkişaf edən ölkə olsaydı, xalq ayağa qalxardı? Əlbəttə ki, yox. Ona görə bu hakimiyyət dəyişikliyində bizim rolumuz kifayət qədər böyük idi. Mən deyirdim ki, bizim hədəfimiz nəyin bahasına olursa-olsun, torpaqların azad edilməsidir və biz ölüm savaşına çıxdıq, bunu hər kəs bilir. Çünki kim deyə bilərdi ki, hansı ölkə necə hərəkət edəcək. Mən bu qarantiyanı verə bilməzdim. Biz faktiki olaraq ölüm-dirim savaşına çıxmışdıq, yəni, ya ölüm, ya olum, vəssalam, qurtardı. Daha səbrimiz tükənmişdi.

Yenə də deyirəm, müharibə başa çatandan sonra bu gün artıq yeni reallıqlar yaranıb və bəziləri bu reallıqları həzm edə bilmirlər. Baxın, Azərbaycana qarşı yenə də təxribat və uydurma kampaniyasının yeni dalğası artıq başlamışdır. Bu, davam edəcək, biz buna hazır olmalı idik və hazır idik. Heç bir şey, hansısa məsələ Qarabağdan, torpaqlarımızın azad edilməsindən üstün ola bilməz, heç bir məsələ bunu üstələyə bilməz. Bu gün biz artıq bu reallıqları qəbul etdirdik, kiminsə xoşuna gəlir, gəlmir, amma qəbul etdirdik. İndi isə bərpa işlərinə start veririk. Əminəm ki, təqribən 5 il ərzində elə bir yeni Azərbaycan, yeni Qarabağ, yeni Zəngəzur quracağıq ki, bütün dünya bizə qibtə edəcək. Bunu biz, ilk növbədə, insanlar üçün edirik. Əziyyət çəkmiş, çadırda, vaqonun altında, yataqxanada, uşaq bağçasında dözülməz şəraitdə yaşamış o insanlar ən yaxşı şəraitdə yaşamalıdırlar və yaşayacaqlar. Bunu biz təmin edəcəyik.

Bir daha sizi ürəkdən təbrik edirəm. İndi isə bizə təqdimat ediləcək və baxaq görək Cəbrayılın yeni görkəmi necə olacaq.

* * *

Azərbaycan Televiziyasının əməkdaşı **Mehriban MƏMMƏDOVA:** Cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Siz çıxış edirdiniz Jurnalistlər evində. Siz Cocuq Mərcanlıdansınız?

**Mehriban MƏMMƏDOVA:** Bəli, cənab Prezident. Həmin görüş vaxtı mən Sizə bir jurnalist kimi, eyni zamanda, bir Cocuq Mərcanlı sakini kimi minnətdarlıq etmişdim.

**Prezident İlham ƏLİYEV:** Bəli, yadımdadır.

**Mehriban MƏMMƏDOVA:** Amma bugünkü minnətdarlığımın səbəbi o qədər böyükdür ki, vallah, mən onu böyük cümlələr qursam belə ifadə edə bilməyəcəyəm. Mən bütün cəbrayıllılar, bütün xalqımız adından Sizə çox minnətdaram, cənab Prezident.

Siz bir neçə gün əvvəl Anadolu Agentliyinə müsahibə vermişdiniz. Keçmiş məcburi köçkünlərin çəkdikləri iztirabla bağlı çox incə bir məqamı o qədər səmimi, içdən ifadə etmişdiniz ki, bir vaxtlar məcburi köçkün olan insanların hər biri həmin gün duyğulanmışdı. Bu duyğu təbii ki, fərqli duyğu idi. Mən özüm balaca ikən oradan çıxmışdım. Amma uşağın yaddaşından heç nə çıxmır deyirlər. Mən unutmamışdım o anı. Amma uşaqlığımı da orada qoyub çıxmışdım. Mənim kimi minlərlə gənc. Amma bu gün sevinirik ki, bizim kimi gənclər Sizin sayənizdə gəncliklərini firavan yaşayırlar.

Cənab Prezident, çox təşəkkür edirik. Yaratdığınız bu yeni reallıqda, Cəbrayılın bir yaşında Sizi burada görmək çox xoşdur. Sizə bir daha minnətdarlığımızı ifadə edirik.

**Prezident İlham ƏLİYEV:** Sağ ol, təşəkkür edirəm.

**Mehriban MƏMMƏDOVA:** Siz sağ olun.

**Kişi sakin:** Bizim bayatılarımız əsrlərin daş yaddaşından süzülüb gəlir. Hesab edirəm ki, o bayatılardan birini bəlkə də 50 il, 100 il, 200 il bundan qabaq Sizə yazıb xalqımız. Nədir o bayatı?

*Əzizim Ordubada,*
*Yol gedir Ordubada.*
*Sərkərdə igid olsa,*
*Heç verməz ordu bada.*

Bax, bu, Sizə yazılıb.

Əməkdar artist **Yaqut ABDULLAYEVA** mahnı ifa edir:

*Əzizinəm aydın olsun,*
*Ay doğsun, aydın olsun.*
*Bu gün Cəbrayılın bir yaşıdır,*
*Görüm, bütün cəbrayıllıların gözləri aydın olsun.*

Xanəndə, Əməkdar artist **İlkin ƏHMƏDOV** mahnı ifa edir:

*Bu dağları aşmısınız Siz,*
*Zəfər yolunu açmısınız Siz.*
*Allaha şükürlər olsun,*
*cənab Ali Baş Komandan kimi,*
*Qarabağda, Cəbrayılda Azərbaycan*
*bayrağını asmısınız Siz.*

**Kişi sakin:** Yaşasın, Azərbaycan Prezidenti!

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Kişi sakin:** Mənim bir arzum da var ki, Sizinlə bir şəklim olsun, amma yan-yana.

**Prezident İlham ƏLİYEV:** Olar.

Azərbaycanın Milli Qəhrəmanı **Vahid QULİYEV:** Cənab Ali Baş Komandan, polkovnik Quliyev. Ulu Öndərin 9 oktyabr tarixli fərmanı ilə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşəm.

**Prezident İlham ƏLİYEV:** Milli Qəhrəman? Neçənci ildə?

**Vahid QULİYEV:** 1994-cü il oktyabrın 9-da 10-dan çox zirehli texnikanı məhv etdiyim üçün.

**Prezident İlham ƏLİYEV:** Sağ ol.

**Vahid QULİYEV:** Azərbaycan kişisinin qeyrətini özünə qaytardığınız üçün Sizə təşəkkür edirik.

Professor **Fazil ABBASOV:** Möhtərəm Prezident. Mən Eksperimental Cərrahiyyə İnstitutunda ürək cərrahıyam. Bizim institutun açılışında oldunuz.

**Prezident İlham ƏLİYEV:** Bəli, olmuşam.

**Fazil ABBASOV:** 2011-ci ildə Siz o institutu təkrar açandan sonra biz orada çox böyük işlər görmüşük. Mən bir söz demək istəyirəm. Bütün dünyanın, bizə ağıl öyrətmək istəyən dövlətlərin hamısının indiki dövrdə problemi, bütün dünyanın problemi lider problemidir.

**Prezident İlham ƏLİYEV:** Bəli.

**Fazil ABBASOV:** Allaha şükür ki, dünyanın bu saat ən möhtəşəm liderlərinin ikisi türk dünyasına məxsusdur.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Fazil ABBASOV:** Allah Sizi var etsin.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

**Din xadimi:** Xoş gəlmisiniz, cənab Prezident. Xoşbəxtəm ki, Sizinlə Cocuq Mərcanlıda da görüşmüşdük.

# zəfərlə başa vuracağıq

## Prezident İlham Əliyev Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşüb, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoyub



**Prezident İlham ƏLİYEV:** Bəli, indi burada da məscid tikəcəyik, İnşallah.

**Din xadimi:** Biz Cəbrayıl dindarları həmişə Sizi dəstəkləmişik və dəstəkləməkdə davam edirik.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Digər sakin:** Cənab Prezident, mən də Sizə təşəkkür edirəm. Allah Sizi qorusun.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Gəlin indi şəhərsalma komitəsinin rəhbəri bizə Cəbrayılın yeni görkəmi ilə bağlı təqdimat etsin.

Şəhərsalma və Arxitektura Komitəsinin sədri **Anar QULİYEV:** Cənab Prezident, ilk növbədə, Döyüş muzeyi və Memorial kompleks muzeyinin layihəsini təqdim etmək istəyirəm. İcazənizlə kiçik bir videoçarx nümayiş etdirək.

Videoçarx nümayiş etdirildi.

**Anar QULİYEV:** Cənab Prezident, muzey kompleksi bu şəhərin ərazisidir və 3 fərqli məkanda müvafiq sərgilər təşkil olunacaq. Döyüş muzeyi şəhərin cənub hissəsində yaradılacaq.

**Prezident İlham ƏLİYEV:** Giriş hissəsində?

**Anar QULİYEV:** Bəli, şəhərin giriş hissəsində. Həm də həqiqətən Cəbrayılın bu hissəsində çox şiddətli tank döyüşləri gedib. Bildiyiniz kimi, oktyabrın 4-ü şəhər işğaldan azad olunandan sonra işğalçılar tərəfindən bir neçə dəfə cəhdlər olub. Ordumuzun düşmənə cavabına uyğun olaraq muzey yeraltı səngərlər formasında qurulacaq. Ekspozisiyada döyüş strategiyaları, rəqəmsal baxış imkanları olacaq. Eyni zamanda, küçədə, açıq səma altında 4,5 hektarlıq ərazidə tanklar nümayiş olunacaq. Digər planşetdə həmin muzeyin sahəsi və yeraltı hissədə real səngərlər imitasiya olunacaq. Aparılan döyüşlərin səhnələri və Zəfər muzeyi bu ərazidə təşkil olunacaq. İcazənizlə, şəhərin digər ərazisində bir az əvvəl göstərdiyim kimi, yuxarı hissədə artıq Cəbrayıl Memorial Kompleks Muzeyi təşkil olunacaq.

**Prezident İlham ƏLİYEV:** Dağılmış evlərin bəziləri saxlanılıb?

**Anar QULİYEV:** Bəli, dağılmış evlərin bir hissəsi saxlanılıb.

**Prezident İlham ƏLİYEV:** Lazımdır ki, heç kim unutmasın.

**Anar QULİYEV:** Təbii ki, Sizin tapşırığınıza əsasən bir hissəsi saxlanılacaq və müasir həyata inteqrasiya olunacaq. Bəzilərindən qalereya şəklində və digər funksiyalarla istifadə olunacaq. Muzeyin öz binası bu hissədə olacaq. Bu hissədə isə Bayraq meydanı və Xudafərin körpüsündən ilhamlanaraq Zəfər tağı abidəsi yaradılacaq. Növbəti slaydlarda muzeyin strukturu, sahəsi haqqında bir qədər daha ətraflı məlumat verilir - birinci mərtəbədə 450 kvadratmetr, növbəti mərtəbələrdə 200 kvadratmetr. Burada həm bütün Qarabağın tarixi faktlarla, arxiv materialları ilə təqdim olunacaq, həm də Cəbrayıl haqqında məlumat, ondan sonra işğal dövründə Cəbrayıl əhalisinin çəkdiyi əziyyət, didərgin düşdüyü dövrə dair məlumatlar təqdim olunacaq.

**Prezident İlham ƏLİYEV:** Dağıntılarla bağlı bütün məlumatlar olmalıdır, videoformatda. Yəni, istənilən adam gəlib görə bilsin, çünki bu dağıntıların böyük hissəsi götürüləcək. Dərs alınacaq ki, insanlar unutmasın, gəlib görsün nə gündə idi. Bir hissə qalacaq, yəni, dağılmış evləri biz saxlayacağıq, amma mütləq İşğal muzeyində olmalıdır. İndiki maketi də ola bilər. Siz onu işləyin və dağılmış vəziyyətdə maket olsun ki, hər gələn görə bilsin.

**Anar QULİYEV:** Biz, əslində, planlaşdırma işlərindən əvvəl skanlaşdırırıq. Üçüncü məkan şərti olaraq Zəfər pavilyonu adlandırılır. Eyni zamanda, 4 oktyabr adı da şərti olaraq qoyulub. Bu kiçik tikili əsgərlərimizin, ordumuzun ilk azad edərək yerləşdiyi məkan olub və sonrakı günlər ərzində məhz bu məkanda həm strategiya qurulurdu, həm də idarə olunurdu.

**Prezident İlham ƏLİYEV:** Onu elə bil ki, təkrarlayır?

**Anar QULİYEV:** Bəli, əsas bina olduğu kimi saxlanılacaq, amma bir qədər müasirləşdirilərək. Hazırda da həmin binanın görüntüsü bu şəkildədir və orada artıq məhz ordumuza həsr olunan ekspozisiya təqdim ediləcək, təbii ki, müasir virtual metodlardan istifadə olunaraq.

* * *

Dövlət başçısı Cəbrayıl Memorial Kompleksinin təməlini qoydu.

* * *

**Prezident İlham ƏLİYEV:** Xahiş edirəm, bu tarixi gündə - muzeyin təməlqoyma mərasimində siz də fəal iştirak edin.

**Sakin:** Cənab Prezident, İnşallah, evlər tikilir, şərait yaradılır. Mən istəyərdim ki, Cəbrayılın bütün kəndləri bərpa ediləndə bizim Çaxırlı kəndində qonağımız olasınız, ayağınızın altında qurbanlar kəsək.

**Prezident İlham ƏLİYEV:** İnşallah, çox sağ olun.

**Sakin:** Hər şeyə görə çox təşəkkür edirik. Qarabağ qazisi kimi Sizdən xahiş edirəm.

**Prezident İlham ƏLİYEV:** Mütləq gələcəyik. Burada kəndlər qurulacaq, şəhər qurulacaq. Cəbrayıl ən gözəl şəhərlərdən birinə çevriləcək mütləq.

**Qadın sakin:** Cəbrayıllılar Sizi çox istəyir. Hamı, bütün Azərbaycan Sizi çox istəyir. Siz Azərbaycan tarixinə adınızı qızıl hərflərlə yazdınız. Sizdən yoxdur. Siz ləyaqətimizi, həm də torpağımızı bütövləşdirdiniz.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Mənim üçün ən xoş günlər sizinlə görüşməkdir. Bu günlərdə sizin sevincinizi görəndə mən də sevinirəm.

**Sakin:** Hamımız üçün əzizsiniz. Çox sağ olun.

**Əli HƏSƏNOV:** 2003-cü ilin oktyabrında cəbrayıllılar Sizi elə möhtəşəmliklə qarşıladılar ki, ondan sonra seçkiqabağı o cür möhtəşəm tədbir olmayıb.

**Prezident İlham ƏLİYEV:** Biləsuvarda?

**Əli HƏSƏNOV:** Bəli, Biləsuvarda. Özü də 10 gün, 15 gün idi ki, çadır şəhərciyinə köçmüşdülər.

**Prezident İlham ƏLİYEV:** Bəli, təzə köçmüşdülər.

**Əli HƏSƏNOV:** Orada 12 min cəbrayıllı var idi. Amma cənab Prezident, bu günlərdə, bu 44 gündə ortaya hələ çox brendlər çıxacaq. Onun biri də bu 17 ildə milli ruhda yetişdirdiyiniz gənclərdir, hansı ki müharibədə nəticəsini gördük. O mərdlik, cəsarət, milli, hərbi vətənpərvərlik həmişə deyiləcək. Yəni, bundan sonra o brendlər hələ çox olacaq.

**Prezident İlham ƏLİYEV:** Müharibə onu göstərdi. Heç düşmən də gözləmirdi. Onlar da gözləmirdilər. Onlar da bilmirdilər ki, belə bir nəsil yetişib, ölümə gedir.

**Oqtay HƏZİYEV:** Cənab Prezident, bir məsələni də Sizə deyim, mən bayaq dedim Şuşada yaşayıram. Ancaq bildiyiniz kimi, Şuşa şəhəri işğaldan azad olunanda ermənilər orada su xətlərini dağıtmışdılar.



**Prezident İlham ƏLİYEV:** Bəli, dağıtmışdılar.

**Oqtay HƏZİYEV:** O qəza-bərpa qrupuna mən rəhbərlik edirdim. Bir ildir mən o xidməti aparıram, yaşamaq deyəndə onu deyirəm.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı. Qısa müddət ərzində. Onlar deyəsən Zarıslı xəttini dağıtmışdılar. Bir də ki, biz o bulaqları bərpa edirik, onlar bütün bulaqları qurutmuşdular.

**Oqtay HƏZİYEV:** Cəbrayılda da kəhrizi qurutmuşdular.

**Prezident İlham ƏLİYEV:** Orada bir dənə də bulaqda su yox idi. Natəvan bulağı, ondan başqa 17 bulaq var, hamısını qurudublar.

**Əli HƏSƏNOV:** Faşistdirlər, başqa nə deyə bilərik. Dəfələrlə demisiniz ki, faşistdirlər.

**Sakin:** Cənab Prezident, axırıncı dəfə dediniz ki, onlar heç heyvan da deyillər.

**Prezident İlham ƏLİYEV:** Vallah, elədir. Axı, onu heç heyvan da etməz.

**Sakin:** Hamısını vəhşicəsinə dağıdıblar.

**Anar QULİYEV:** Möhtərəm cənab Prezident, ilk növbədə, Cəbrayıl şəhərinə keçməmişdən əvvəl mən işğaldan azad edilmiş ərazilərlə bağlı aparılan işlərə qısaca toxunmaq istərdim. Sizin tapşırığınıza uyğun olaraq, işğaldan azad edilmiş ərazilərin ümumi planı üzərində iş gedir, artıq bitmək üzrədir. Bu, regional inkişaf sxemində şərti olaraq əsas nəqliyyat vektorları, paytaxtdan gedən vektorlar göstərilib və işğaldan azad olunmuş ərazidə cənub inkişaf vektoru, sənaye, logistika, kənd təsərrüfatı bu istiqamətdə əsas sahələrdən biri olacaq. Mərkəzi hissədə daha çox mədəniyyət, turizm, təhsil sahələrini, Laçın, Şuşa şəhərlərini birləşdirən vektordur. Yuxarı hissədə isə Tərtər, Kəlbəcər, daha çox şimal inkişaf vektoru - turizm, yenə də kənd təsərrüfatı və sənaye.

Cəbrayıl rayonunun gələcəyi haqqında danışanda təbii ki, iqtisadiyyatı, sosial-iqtisadi inkişafı ən önəmli məsələdir və Siz də qeyd etdiyiniz kimi, nəqliyyat dəhlizinin böyük bir hissəsi Cəbrayılın ərazisindən keçir. Burada üç magistral - iki avtomobil yolu və bir dəmir yolu üzərində hazırda iş aparılır. Eyni zamanda, bu gün təməlini qoyduğunuz "Araz Vadisi İqtisadi Zonası" burada göstərilib. Biz hazırda Əlaqələndirmə Qərargahı çərçivəsində alternativ enerji resursları üzərində də işləyirik. Artıq bu hissələrdə 240 kilovat gücü təmin edə biləcək günəş enerjisi təsərrüfatının təşkili planlaşdırılır. Növbəti sxemdə iqtisadi dayanıqlıqla bağlı bir neçə məqam əksini tapıb. Cəbrayıl rayonu faydalı qazıntılarla da kifayət qədər zəngindir, burada göstərilib. Kavdar qumundan yataqlar və sair.

**Sakin:** Kavdar bizim kəndimizdir. Buradan 5 kilometr o tərəfədir.

**Prezident İlham ƏLİYEV:** Burada qum karxanası var?

**Anar QULİYEV:** Bəli, qum yataqları var, Kavdar qumu.

**Sakin:** Balaca kənddir, adı qalıb, kənd yoxdur.

**Anar QULİYEV:** Həmin məkanda 5 milyon kubmetrdən artıq qum yataqları var. Bununla yanaşı, vulkan külü tikinti materiallarının istehsalı üçün faydalıdır - daş, gəc, əhəng və s. Eyni zamanda, təbii ki, böyük turizm potensialı var. Burada tarixi abidələr də əhəmiyyət kəsb edir. Əsas istiqamətlər isə faydalı qazıntıların çıxarılmasıdır.

**Prezident İlham ƏLİYEV:** Kənd təsərrüfatı nəyin üstündə idi?

**Sakinlər:** Üzümçülük, taxılçılıq, heyvandarlıq, baramaçılıq.

**Sakin:** Baramaçılıqda ən böyük 10 rayonun içərisində idik, 300 tona yaxın barama istehsal olunurdu.

**Prezident İlham ƏLİYEV:** 300 ton, Azərbaycanda indi 500 ton barama istehsal olunur.

**Sakin:** Bəli, Arazboyu kəndlərin hamısı barama istehsal edirdi. Tut ağacları var idi, indi biri də qalmayıb.

**Prezident İlham ƏLİYEV:** Onun hamısını əkəcəyik. İndi yeni növ ağaclar var, yarpaqları da böyükdür.

**Sakin:** Biz onlardan qəsəbələrdə əkmişdik.

**Anar QULİYEV:** Üzüm bağları əsasən cənub hissədə, Arazboyu yerləşir və iqtisadiyyatın bunun üzərində qurulması planlaşdırılıb. Qeyd olunduğu kimi, sonra taxılçılıq, heyvandarlıq.

**Əli HƏSƏNOV:** Cəbrayıl ərazisinin ən yaxşı dövrü, yaşayış tərzi üzümçülüklə bağlı olub.

**Sakin:** 64 min ton üzüm yığılırdı.

**Prezident İlham ƏLİYEV:** Gəlir gətirib?

**Sakinlər:** Bəli.

**Prezident İlham ƏLİYEV:** Onda gərək biz üzüm bağlarını bərpa edək. Yerlər müəyyən olunub? Həmin yerlərdir?

**Anar QULİYEV:** Biz harada ənənəvi bağlar olub, o yerləri bu xəritədə göstərmişik. Artıq növbəti müddət ərzində bu, tətbiq olunacaq. İndi isə icazənizlə şəhərin inkişaf sxemini təqdim etmək istərdim. Tünd rənglə şəhərin işğala qədər məskunlaşma ərazisi göstərilib - 335 hektar təşkil edirdi.

**Prezident İlham ƏLİYEV:** 335 hektar?

**Anar QULİYEV:** Bəli.

**Prezident İlham ƏLİYEV:** Şuşadan bir qədər böyük.

**Anar QULİYEV:** İnzibati sərhəd bir qədər böyük, amma məskunlaşma ərazisi 335 hektar idi. Yeni inkişaf etdiriləcək ərazilər sarı rənglə qeyd olunub.

**Prezident İlham ƏLİYEV:** Bunlar kəndlərdir?

**Anar QULİYEV:** Bəli, 3 kənd - Şahvələdli, Qurbancəfər və Xubyarlı kəndləri şəhərə o dövrdə də inteqrasiya olunmuş, birləşmiş kəndlərdir. Cənab Prezident, baş planın konseptual əsasları - deməli, bu məkan yaşayış yeri, məşğulluq üçün imkanlar və ictimai-sosial rifah üçündür.

**Prezident İlham ƏLİYEV:** Şəhərin xəritəsində nəyin harada yerləşəcəyi ilə bağlı bölgü aparılıb?

**Anar QULİYEV:** Bəli, sağ tərəfdə simvolik olaraq şəhərin iş, məşğulluq yerlərinin, yuxarı tərəfdə sənaye aqroparkının təşkili planlaşdırılır və rayonun ərazisində nisbətən kiçik bir azad sənaye zonası da olacaq. Burada şəhərin zonalaşdırılması təqdim olunur. Şəhərin mərkəzi bu, bir nömrəli zonadır, yaşayış, inzibati və mədəniyyət binalarının əsasən yerləşdiyi ictimai işgüzar zonalar olacaqdır. Artıq mərkəzin qərbi 2 nömrəli zona, ondan sonra 3, 4, 5. Mərkəzdən kənara getdikcə yaşayış zonaları nisbətən seyrəkləşəcək, sıxlıq azalacaq. Bu gün Siz təməlini qoyduğunuz binalar.

Cənab Prezident, qeyd etdiyim aqropark şəhərin bu hissəsində yerləşəcək, 50 hektarlıq ərazi nəzərdə tutulur. Kiçik 20 hektarlıq sənaye zonası isə cənub hissədə.

**Prezident İlham ƏLİYEV:** Burada kifayət qədər iş yerləri olacaq. Çünki 200 hektarlıq "Araz Vadisi Sənaye Parkına" artıq təkliflər verilir. Biri də ki, şəhərin kənarında.

**Anar QULİYEV:** Bəzi zonalar, məsələn, 17-ci zona perspektiv zona kimi saxlanılır, növbəti mərhələdə işlənəcək. Bəzi hissələr çox maraqlı, 9-cu, 10-cu zona kimi çox gözəl mənzərəyə malik olacaqdır. Çünki şəhərin relyefi elədir ki, təpələr üzərində yerləşir və yaşıllaşdırmaya böyük əhəmiyyət verilib. Yaşıl rəngdə gördüyümüz bütün ərazilər ümumilikdə 150-152 hektar təşkil edir. Bunların təxminən yarısı xüsusi meşə zolaqları salınacaq ərazilərdir. Amma şəhər boyu ilk baxışda parkın olmadığı təəssüratı yarana bilər. Amma biz bütün şəhəri park kimi düşünürük, çox geniş yaşıl zolaqlar salınacaq.

**Prezident İlham ƏLİYEV:** İnanıram ki, çox yaxın gələcəkdə burada Türkiyə-Azərbaycan Dostluq Parkı da salınacaq. O, harada yerləşəcək?

**Anar QULİYEV:** Cənab Prezident, bu hissədədir, yuxarı hissədə. Həmin o Dostluq bulağı dördyoldadır və bu yolun üstündədir.

Əsas sosial obyektlərin yerləşəcəyi nöqtələr, məsələn, bu gün təməli qoyulan bina, məktəb buradadır. Cəmi üç məktəb olacaq, tünd göy rəngdə məktəblərin əhatə dairələri göstərilib. Elə yerləşmə nəzərdə tutulur ki, bütün hər kəs piyada rahat hərəkət edə bilsin.

**Prezident İlham ƏLİYEV:** Sovet vaxtında da burada 3 məktəb var idi?

**Sakin:** Bəli, internatla bir yerdə 3 məktəb.

**Anar QULİYEV:** Burada digər rənglərlə məktəbəqədər təhsil müəssisələri, açıq mavi rənglə daha çox sayda olacaq səhiyyə müəssisələri və sair göstərilir.

Bu üç əsas yol üzrə ictimai nəqliyyatın hərəkəti planlaşdırılır. Məşğulluq haqqında bir az daha detallı məlumat burada təqdim olunub. Aqropark, ümumiyyətlə, aqroparkın nümunələri verilib. Aqropark istehsal, emal, elmi-tədqiqat, avtoxidmət və ticarət üçün nəzərdə tutulub. Bunun çox böyük faydaları da var. Ölkə ərazisində artıq aqroparklar yaradılır.

**Prezident İlham ƏLİYEV:** İlk növbədə, məşğulluq üçün gərək planlı şəkildə iş görək, camaat buraya qayıdandan sonra iş də olsun. Bir nəfər də işsiz olmamalıdır.

**Anar QULİYEV:** Sənayeyə gəldikdə, düşünürük ki, tikinti materiallarının, qida məhsullarının, içkilərin istehsalı, toxuculuq, xalçaçılıq, metallurgiya, maşın avadanlıqlarının istehsalı və təmiri. Burada nəqliyyat sxemi təqdim olunub. Bayaq qeyd etdiyim kimi, bu yaşıl dəhlizlər boyu velosiped yolunun uzunluğu 18 kilometr təşkil edəcək. Piyada yolları üçün daha uzun məsafəli - 70 kilometrlik zolaq planlaşdırılır. Həm də yaşıl nəqliyyata çox böyük diqqət ayrılacaq.

**Prezident:** Elektriklə işləyən nəqliyyat.

**Anar QULİYEV:** Bəli, elektriklə. Küçə, yol profilləri nümunələri göstərilib. Plan elə qurulub ki, hər bir hərəkət iştirakçısı - piyada da, avtomobil də, velosiped də bir-birinə maneə olmadan sərbəst hərəkət edə bilsin.

**Prezident İlham ƏLİYEV:** Deməli, burada yaşıl nəqliyyatdan istifadə etməliyik.

**Sakin:** Mütləq.

**Anar QULİYEV:** Ümumiyyətlə, Qarabağ ərazisində.

**Prezident İlham ƏLİYEV:** Yaşıl məntəqələr, sonra avtobuslar.

**Anar QULİYEV:** Bəli, elektromobillər, elektroavtobuslar. Ümumiyyətlə, Siz elan etdiyiniz kimi, bütün Qarabağ yaşıl enerji zonası olacaq.

**Prezident İlham ƏLİYEV:** Bəli, yaşıl enerji zonası. Cəbrayıl və Zəngilan rayonlarının ərazisində 240 meqavatlıq Günəş Elektrik Stansiyası tikiləcək. Özü də BP şirkətinin vəsaiti hesabına. Görün, maraq nə qədər böyükdür. Artıq təhlil aparılıb. Cəbrayıl, Zəngilan günəşli günlərin sayına görə ən qabaqdadır.

**Anar QULİYEV:** Cənab Prezident, bu, təməli qoyduğumuz xəstəxanadır. Səhiyyə, sosial obyektlərdir, üstdəki üç şəkil xəstəxanadır. Rayon mərkəzi xəstəxanası 150 çarpayılıq olacaq. Aşağıdakı şəkillər təməli qoyulan ilk orta məktəbdir. Eyni zamanda, tarixi olan bir məktəbdir. Akademik Mehdi Mehdizadə adına məktəb əvvəllər də bu yerdə fəaliyyət göstərib. On bir hektarlıq ərazidə planlaşdırma işlərinə başlanılıb. Bu, təməli qoyulmuş ilk binanın yerləşdiyi məhəllənin görüntüsüdür. Binalar dörd, beşmərtəbəli, bəzi yerlərdə altımərtəbəli olacaq. Bacardığımız qədər çalışdıq ki, tarixi görkəmi qoruyaq, fərdi evlərdə, çoxmənzilli binalarda o eyvanları əsas götürək.

Cənab Prezident, şəhərin təməl daşını qoymağınızı xahiş etmək istəyirik.

**Prezident İlham ƏLİYEV:** Bəli, birlikdə.

* * *

Dövlət başçısı Cəbrayıl şəhərinin təməl daşını qoydu.

* * *

**Qadın sakin:** İcazə verin, biz də tökək.

**Prezident İlham ƏLİYEV:** Tarixdə əbədi qalacaq.

**Sakin:** Cənab Prezidentin Valdaydakı görüşündə dediyi "Qarabağ Azərbaycandır və nida işarəsi", mən ondan əmin oldum ki, Qarabağ azad ediləcək. Cənab Prezident, əsas odur ki, biz bu şanlı tarixi bir yerdə yaşadıq. Doğrudan da, Siz də çalışdınız, xalq da. Biz, doğrudan da, sülhpərvər xalqıq, humanistik. Siz də bunu dəfələrlə demisiniz.

Siz onu da demişdiniz ki, mən nəyi nə zaman, harada edəcəyimi bilirəm.

**Prezident İlham ƏLİYEV:** Onu bir il tez, bir il gec də etmək olmazdı.

**Sakin:** Bəli, Siz ən uyğun vaxtı seçib etdiniz.

**Prezident İlham ƏLİYEV:** Amma bunun üçün gərək hər şey hazır olaydı. Hazırlamışdıq.

**Sakin:** Bəli, onu da hazırlamışdınız. Həqiqətən cəbrayıllıların sevincinin həddi-hüdudu yoxdur, cənab Prezident. Allah Sizi qorusun. Bizə xoşbəxtliyi Siz bəxş etdiniz.

**Prezident İlham ƏLİYEV:** Tarixi günlər yaşayırıq.

**Yaqut ABDULLAYEVA:** Allah Sizə cansağlığı versin. Həmişə var olun, ailənizlə birlikdə xoşbəxt olun, Sizə cansağlığı arzulayıram. Allahım Sizi başımızın üstündən əskik etməsin. Ömürlük Prezidentimizsiniz. Başqa heç kəsi istəmirik.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

**Sakin:** Cəbrayıl ağsaqqalları artıq o qərarı qəbul edib. İnşallah olar, Allahın köməyi ilə.

* * *

Sonra xatirə şəkilləri çəkdirildi.

* * *

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakinlər:** Çox sağ olun, var olun. Cəbrayıllılar həmişə Sizinlədir, cənab Prezident.

# Prezident İlham Əliyevin Cəbrayıl rayonuna səfəri Türkiyə mediası tərəfindən geniş işıqlandırılıb

Azərbaycan Prezidenti İlham Əliyevin Cəbrayıl rayonuna səfəri, ictimaiyyət nümayəndələri ilə görüşü, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoyması Türkiyənin aparıcı kütləvi informasiya (KİV) vasitələri tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, Anadolu Agentliyi, NTV, "Haber türk, "A Haber" telekanalları, "Sabah", "Yeni şafak" qəzetləri və digər media qurumları Azərbaycanın dövlət başçısının səfərinin mahiyyətini türkdilli ictimaiyyətə olduğu kimi təqdim ediblər. Məlumatlarda vurğulanır ki, Azərbaycan müstəqil siyasət yürüdür və öz suveren hüquqlarını qətiyyətlə müdafiə edir.

"Bölgədə sabitliyin yaranmasında Türkiyə və Rusiyanın rolu böyükdür", "Heç kim işlərimizə qarışmasın", "Ermənistan tərəfi Azərbaycan və Türkiyəyə qarşı torpaq iddialarından əl çəkməlidir" və digər sərlövhələrlə təqdim olunan xəbərlərdə vurğulanır ki, Prezident İlham Əliyev bir daha Azərbaycanın müstəqil siyasət yürütdüyünü və mövqeyinin dəyişməzliyini dünya ictimaiyyətinə qətiyyətli şəkildə çatdırıb.

Həmçinin diqqətə çatdırılır ki, sülh, sabitlik və inkişaf tərəfdarı olan Azərbaycan işğaldan azad edilmiş bölgələrdə kompleks quruculuq və bərpa işlərini həyata keçirir.


SABAH ☰ SON DAKİKA GÜNDEM EKONOMİ YAŞAM SAĞLIK DÜNYA SEYAHAT

**Azerbaycan Cumhurbaşkanı İlham Aliyev işgalden kurtulan bölgeleri ziyaret etti**

AA

ABONE OL Google News

**Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, Ermenistan işgalinden kurtulan bölgelere ziyarette bulundu. Aliyev, ziyareti sırasında hidroelektrik santrallerinin açılışını da gerçekleştirdi.**

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, işgalden kurtanlmasının 1. yılında Talış köyü, Sukavuşan kasabası ve Cebrayıl şehrini ziyaret etti. Aliyev'in ziyareti dün, 3 Ekim 2020'de Ermenistan işgalinden kurtarılan Talış köyü ve Sukavuşan kasabasına gitmesiyle başladı. Terter'den Talış köyü ve Sukavuşan kasabasına giden yeni kara yolunun açılışını yapan Aliyev, Talış-Naftalan kara yolunun da temelini attı.

# Azərbaycan Respublikasının təhsil işçilərinin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan təhsilinin inkişafında xidmətlərinə görə aşağıdakı təhsil işçiləri təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Abbasov Ənvər Məhəmməd oğlu
Ələkbərova Faina Emmanuilovna
Xanlarova Sara Cəbrayıl qızı
Xəlilov Vidadi Cəmil oğlu

**"Tərəqqi" medalı ilə**

Abduləzimova İradə Baxış qızı
Abdullayeva Yeganə Akif qızı
Ağakişiyev Aslan Gənci oğlu
Ağamalıyeva Sədiqə Qəfər qızı
Ağayeva Əminə Bəxtiyar qızı
Allahverdiyev Yaşar İsmayıl oğlu
Apayeva Hüsnəxanım Şixəmməd qızı
Babayev Habil Heydər oğlu
Babayev Həbibulla Canisab oğlu
Babayev Şöyüb Əkbər oğlu
Bağırlı Nigar Əhməd Soltan qızı
Bağırov Fərhad Qurban oğlu
Balakişiyev Şahbaz Şəmməd oğlu
Bayramova Gülbəniz Məhərrəm qızı
Cavadov İlham Ağaqardaş oğlu
Cəbrayılov Samir Adil oğlu
Dadaşova Mənzər Ramiz qızı
Dəmirova Fərqanə Vahid qızı
Əhmədov Hümeyir Hüseyn oğlu
Əhmədov Vidadi İsgəndər oğlu
Əhmədova Təranə Sarxan qızı
Əhmədova Tutu Rza qızı
Əkbərova Mehriban Telman qızı
Ələkbərova Mənzər Nadir qızı
Əliyev Famil Abbas oğlu
Əliyeva Təranə Qaraş qızı
Əlizadə Xavər Şükür qızı
Əsədova Lalə Hacıbala qızı
Hacınskaya Reyhan Əkbər qızı
Hacıyev Asif Xatabala oğlu
Heydərova İlahə Xanəsən qızı
Həsənova Afət Musa qızı
Hüseynova Aidə Əli qızı
Hüseynova Laləzar Amil qızı
Hüseynova Südabə İsa qızı
İbrahimova Təranə Qəzənfər qızı
İsakov Mübariz Məmməd oğlu
İsmayılov Bünyad Fikrət oğlu
İsmayılova Sücayət Yaqub qızı
İsmayılova Sveta İldırım qızı
Kazımov Yaşar Nurəddin oğlu
Kərimova Mətanət Elçin qızı
Qasımova Nuriyyə Aslan qızı
Qulamov Elmar Rəfail oğlu
Quliyeva Simuzər Valeh qızı
Quliyeva Ulduz İsmixan qızı
Quluyeva Sədaqət Tofiq qızı
Qurbanova Gülbəniz Cəfərqulu qızı
Mahmudova Pərvanə Seyidağa qızı
Mehdiyeva Elmira Xasay qızı
Məmmədov Zəfər Həsən oğlu
Məmmədova Arzu Ramiz qızı
Məmmədova Elnarə Bahadir qızı
Məmmədova İradə Maşallah qızı
Məmmədova Kübra İbrahim qızı
Məsimova Samirə Nəriman qızı
Məstəliyev Elnur Mətləb oğlu
Mirzəyeva Gülnar Əlhəm qızı
Mirzəyeva Mehparə Ramazan qızı
Mirzəyeva Təranə Mirzə qızı
Muradova Şükufə Müslüm qızı
Musayeva Rəna Qiyas qızı
Mustafayeva Şəhla Gürşad qızı
Osmanova Nailə Paşa qızı
Rəhimova Afaq Vüqar qızı
Rəhimova Nuranə Elman qızı
Rəsulova İlahə Zahid qızı
Rufullayev İlham Hacıvəli oğlu
Rufullayev Qədir Məzahim oğlu
Rüstəmova Qəmər Xalıq qızı
Rzayeva Səbinə Rahil qızı
Sadıqov Fərman Ələvsət oğlu
Sadıqov Şəmil Kamil oğlu
Soltanova Əsli Məhəmməd qızı
Süleymanov Sahib Qədir oğlu
Şirinova Nəzakət Firidun qızı
Şükürova Sənubər Fəqani qızı
Talıblı İradə İbadulla qızı
Yusifova Cəmilə Rüstəm qızı
Zülfiyeva Sevil Vəli qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 oktyabr 2021-ci il*

# Azərbaycan Respublikasının təhsil işçilərinə "Əməkdar müəllim" fəxri adının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan təhsilinin inkişafında xidmətlərinə görə aşağıdakı təhsil işçilərinə "Əməkdar müəllim" fəxri adı verilsin:

Abbaslı Aybəniz Ərzuman qızı
Abbasova İlhamiyyə Ələddin qızı
Abbasova Kəmalə Əli qızı
Abdullayev Mirtahir Həsənağa oğlu
Abdurazaqov Rasim Rəşid oğlu
Abdurəhmanov Elşad Nərman oğlu
Ağayeva Məlahət İmran qızı
Allahverdiyev Aydın Çingiz oğlu
Aşımova Afət Nazim qızı
Aydın Könül Nadir qızı
Bayramova Səidə Mirbaba qızı
Cəbrayılov İntiqam Hilal oğlu
Cəfərova Məlahət Süleyman qızı
Cəlalova İradə Səttar qızı
Dadaşova Gülnaz Nəsib qızı
Dibirova Nəcibə Müslüm qızı
Əfəndiyeva Afət Nurməmməd qızı
Əliyev Nurəddin Qəhrəman oğlu
Əliyev Rüfət Nahid oğlu
Əliyeva Aynurə İldırım qızı
Əliyeva İradə Sabir qızı
Əliyeva Zəhra İsa qızı
Əlizadə Sahir Əlisa oğlu
Əsgərova Nəzakət Arif qızı
Əsgərova Zenfira Sabir qızı
Fərzəliyeva Fazilə Fərzəli qızı
Fətəliyeva Mehriban Ağa qızı
Hacılı Sona Qənbər qızı
Həmzəyeva Almayə Abbas qızı
Həsənov Nazim Yaqub oğlu
Həsənova Vəfa Əflatun qızı
Hüseynova Elmira Əsəd qızı
İbrahimov Saməddin Həsən oğlu
İbrahimova Hüsniyyə Bəhlul qızı
İbrahimova Şahnaz İbrahim qızı
İbrahimova Yeganə Ağali qızı
İsgəndərov Yaşar Çoban oğlu
İsmayılov Mərdan Rəhim oğlu
İsmayılova Nazlı Zəkəriyyə qızı
İsrayılova Gülzar Əvəz qızı
Kərəmli Aminə Kərəm qızı
Qarayev Mehralı Rəşid oğlu
Qasımova Rubiynə Elton qızı
Qədəşova Mətanət Müracəb qızı
Qəniyeva Kəmalə Əli qızı
Quliyeva Aytən Qəhrəman qızı
Quliyeva Fatmaxanım Ələkbər qızı
Quliyeva Gülarə Qoca qızı
Quliyeva Gülnarə Xuduş qızı
Quliyeva Qıztamam Əliağa qızı
Qurbanov Saleh Cümşüd oğlu
Manafov Əsgər Əmirxan oğlu
Məhərrəmova Adilə Adil qızı
Məmmədov İlham Allahverdi oğlu
Məmmədova Ceyran Məmmədalı qızı
Məmmədova Gülnarə Saleh qızı
Məsimova Elza Adil qızı
Mirzəliyeva Emiliya Abdulla qızı
Mövsümova Fəridə Əlihüseyn qızı
Muradova Rəna Səməd qızı
Musayev Vəli Cənnət oğlu
Mustafayeva Gültəkin Rafiq qızı
Nağıyeva İradə İsa qızı
Nəsibova Zareta Almas qızı
Rəhimova Şəhla Məmmədqasım qızı
Rüstəmov Akif Şahverdi oğlu
Semyonova Yuliya Genadiyevna
Səmədov Fəxrəddin Salman oğlu
Süleymanova Səadət Yunis qızı
Yolçuyeva Nüşabə Qərib qızı
Zayıdova Maral Zakir qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 oktyabr 2021-ci il*

# "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi" publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 yanvar tarixli 1245 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi" publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 yanvar tarixli 1245 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 15) 2.2-ci bəndində "3 (üç)" sözləri "5 (beş)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 oktyabr 2021-ci il*

# İ.Ə.Mustafayevin Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**
İbrahim Ənvər oğlu Mustafayev Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 oktyabr 2021-ci il*

# *Polşa səfiri:* "Qanunverici orqanlar arasında əməkdaşlıq dövlətlərarası münasibətlərin inkişafında mühüm rol oynayır"



Oktyabrın 5-də Milli Məclisin Sədri Sahibə Qafarova Polşa Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Rafal Poborski ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, parlamentin Sədri Polşanın Azərbaycan üçün dost ölkə olduğunu söyləyərək, iki ölkə arasında siyasi sahədə olduğu kimi, iqtisadi və humanitar sahələrdə də geniş əməkdaşlıq əlaqələrinin qurulduğunu qeyd edib. O, ölkələrimiz və xalqlarımız arasında münasibətlərin dərinləşməsində dövlət başçıları və hökumət rəsmilərinin qarşılıqlı səfərlərinin, tərəflər arasında imzalanan sənədlərin əhəmiyyətini vurğulayıb.

Sahibə Qafarova ötən ay Polşa Senatının sədri Tomas Qrodzki ilə Avstriyanın paytaxtı Vyanada keçirdiyi görüşü xatırlayaraq görüşdə bir çox məsələlər ətrafında müzakirələr aparıldığını bildirib. Qanunverici orqanlar arasında münasibətlərin mövcud səviyyəsindən danışan Milli Məclisin Sədri dostluq qruplarının uğurlu fəaliyyətinin, qarşılıqlı səfərlərin və təmasların əhəmiyyətini qeyd edib.

Görüşdə 44 günlük Vətən müharibəsindən və ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonra bölgədə yaranmış yeni reallıqlardan söz açan Sahibə Qafarova diqqətə çatdırıb ki, 2020-ci ildə Azərbaycan öz gücü hesabına torpaqlarını Ermənistanın işğalından azad edərək ərazi bütövlüyünü bərpa etdi. Ölkəmiz bununla da BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin icrasını təmin etdi. Münaqişənin artıq tarixə çevrildiyini bildirən Milli Məclisin Sədri ölkəmizin işğaldan azad olunmuş ərazilərimizdə bərpa və quruculuq işlərinə başladığını diqqətə çatdırıb. Sahibə Qafarova qeyd edib ki, Azərbaycan bölgədə daimi sülhün və sabitliyin təmin edilməsində maraqlıdır. Milli Məclisin Sədri Ermənistanın hələ də təxribatlarını davam etdirdiyini və sabitliyə mane olduğunu vurğulayaraq işğalçı ölkə tərəfindən törədilən təxribatlar haqqında məlumat verib.

Polşanın ölkəmizdəki səfiri Rafal Poborski ölkəsinin Azərbaycanla münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyini qeyd edib. O deyib ki, Azərbaycan ilə Polşa arasında bir çox sahələri əhatə edən əlaqələr möhkəm əsaslara malikdir. Siyasi sahədə mövcud olan müsbət dialoqun iqtisadi, humanitar sahələrdə də əməkdaşlıq üçün yaxşı imkanlar yaratdığını söyləyən Rafal Poborski ölkəmizdə diplomatik fəaliyyəti dövründə dost ölkələrimiz arasında münasibətlərin daha da inkişafına töhfə vermək üçün çalışacağını bildirib.

Səfir qanunverici orqanlar arasında əməkdaşlığın dövlətlərarası münasibətlərin inkişafında mühüm rol oynadığını qeyd edərək bu əlaqələrin uğurlu inkişaf yolu keçdiyini diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası olacaq

Ölkəmiz qısa müddətdə elektrik enerjisinin idxalçısından ixracatçısına çevrilib. 1990-cı illərdə xaricdən elektrik enerjisi alan Azərbaycan bu gün artıq dörd ölkəyə elektrik enerjisi ixrac edir. Prezident İlham Əliyev ölkəmizin bundan sonra da enerji təminatı sahəsində heç kimdən asılı olmayacağını bəyan edib. Bərpaolunan enerji növlərinin inkişafı da həmin məqsədə yönəldilib. Bu istiqamətdə böyük planlar tərtib olunub və genişmiqyaslı işlər görülür.

Bərpaolunan enerji növlərinin inkişafı ənənəvi enerji növlərinin inkişafı ilə bilavasitə bağlıdır. Odur ki, bütün dünyada bərpaolunan enerjidən istifadə getdikcə özünə daha geniş yer alır. Azərbaycanda da bu məsələyə xüsusi diqqət yetirilməsi təsadüfi deyil. Çünki bərpaolunan enerji sahəsinin inkişafı üçün ölkəmizdə əlverişli şərait mövcuddur. Bu növ enerjinin yaradılmasının əsas mənbəyi günəş və küləkdir. Azərbaycan isə dünyada məhz günəşli ölkə kimi tanınır. Coşqun Xəzərin sahilində və dağlar qoynunda yerləşən rayonlarımızda külək enerjisindən istifadə üçün də geniş imkan var. Bu, Azərbaycanın bir çox bölgələrində, o cümlədən işğaldan azad edilmiş ərazilərində bərpaolunan enerji stansiyalarının tikilməsini gündəmə gətirir. Təsadüfi deyil ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də bu növ enerjidən istifadənin genişləndirilməsi müəyyən edilib. Prezident İlham Əliyev həmin vaxta qədər elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılmasının hədəf kimi götürüldüyünü bildirib. Dövlət başçısının bu il aprelin 2-də imzaladığı "Qoyuluş gücü 230 MVt olan günəş elektrik stansiyasının tikintisi ilə bağlı pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında" sərəncam Azərbaycanı "yaşıl enerji" məkanına çevirmək istiqamətində atılan növbəti mühüm addımdır. Xatırladaq ki, ölkəmizdə Səudiyyə Ərəbistanı Krallığının "ACWA POWER" şirkəti ilə külək və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə günəş elektrik stansiyası tikiləcək.

Prezident İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində videoformatda çıxış edərkən ölkəmizdə bərpaolunan enerjinin inkişafına böyük diqqət göstərildiyini bir daha vurğulamışdır: "Növbəti 3-4 il ərzində ümumi gücü 700 meqavat təşkil edəcək 3 külək və günəş elektrik stansiyalarının inşasına sərmayə qoyuluşuna dair üç böyük beynəlxalq enerji şirkəti ilə müqavilələr imzalanıb. Layihələrdən biri 44 günlük Vətən müharibəsi zamanı Ermənistanın işğalından azad edilmiş Şərqi Zəngəzur bölgəsində həyata keçiriləcək. Bu 240 meqavat gücündə günəş elektrik stansiyası Azərbaycanın azad olunmuş ərazilərində ən böyük birbaşa xarici sərmayə qoyuluşu layihəsi olacaqdır. Mən digər beynəlxalq enerji şirkətlərini də Azərbaycanın azad olunmuş ərazilərində yaşıl enerji layihələrinə sərmayə qoymağa dəvət edirəm."

Dövlətimizin başçısı Qarabağı və Şərqi Zəngəzuru yaşıl enerji zonası elan etdiyini xatırladaraq bildirmişdir ki, Azərbaycanın azad olunmuş ərazilərinin 7200 meqavat günəş enerjisi və 2000 meqavat külək enerjisi potensialı var.

Bu bölgələrin bərpaolunan enerji istehsalı üçün imkanları çox genişdir. Belə ki, Yer səthinə düşən günəş radiasiyasının miqdarına görə Qarabağın cənub düzənlik hissəsi - Füzuli, Cəbrayıl, Zəngilan rayonları Naxçıvan Muxtar Respublikası ərazisindən sonra ikinci yerdə dayanır. Burada bir kvadratmetr üfüqi səthə düşən günəş radiasiyası ildə 1600-1700 kilovat/saat təşkil edir. Həmin ərazilərin ümumi günəş enerjisi potensialı 3000-4000 meqavatdır. Ölçü müşahidə stansiyalarının quraşdırılması yolu ilə potensialın daha dəqiq hesablanması həyata keçiriləcək.

Bu yerlərdə eləcə də külək enerjisi istehsal etmək mümkün olacaq. Çünki regionun dağlıq hissəsində 100 metr hündürlükdə küləyin orta illik sürətinin saniyədə 7-8 metr olduğu geniş ərazilər mövcuddur. Kəlbəcər və Laçın rayonlarının Ermənistanla sərhəd ərazilərində küləyin orta illik sürəti saniyədə 10 metrə çatır. Ümumilikdə Qarabağın dağlıq ərazilərində külək enerjisinin potensialı 300-500 meqavat kimi qiymətləndirilir. Ölçü müşahidə stansiyalarının quraşdırılması yolu ilə bu sahənin də dəqiq potensialı hesablanacaq.

Bunlardan əlavə, Kəlbəcərdə və Şuşada termal su ehtiyatları var. Qarşıda dayanan vəzifələrdən biri də termal mənbələrdən enerji məqsədli istifadənin mümkünlüyünü tədqiq etməkdir.

Beləliklə, işğaldan azad olunmuş ərazilərimiz "yaşıl enerji" zonasına çevrilir. Əslində, bu regionda bərpaolunan enerji mənbələrindən istifadə, enerji səmərəliliyi, ekoloji təmiz texnologiyalar, o cümlədən nəqliyyat vasitələrinin tətbiqi və digər məsələləri əhatə edəcək "yaşıl zona", yaxud "yaşıl məkan" konsepsiyasının hazırlanmasına hələ Vətən müharibəsindəki şanlı qələbəmizdən az sonra başlanmışdır. Bu il mayın 3-də isə Prezident "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalamışdır. Dövlət başçısı bu ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə 2021-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Energetika Nazirliyinə 1 milyon 391 min 40 ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılmasını qərara almışdır.

Bu gün dünyanın ən böyük enerji şirkətləri də Azərbaycanda bərpaolunan enerji növlərinin istehsalına maraq göstərir və artıq bu maraq reallaşır. İşğaldan azad edilmiş ərazilərimizdə "yaşıl enerji" zonasının yaradılması məqsədilə bərpaolunan enerji mənbələrindən istifadə ilə bağlı özəl investisiyaların cəlb olunması üçün investorlarla müzakirələr aparılır. Bir sözlə, bu rayonları "yaşıl enerji" məkanına çevirmək üçün imkanlardan səmərəli istifadə olunur . Bu da deməyə əsas verir ki, həmin istiqamətdə görülən işlər ölkəmizin daha böyük sosial-iqtisadi inkişafına xidmət edəcək.

***Flora SADIQLI,***
***"Azərbaycan"***



# Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin üçtərəfli görüşü keçirilib



Oktyabrın 5-də Gürcüstanın Kaxeti bölgəsində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyə Respublikasının milli müdafiə naziri cənab Hulusi Akar və Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze arasında üçtərəfli formatda görüş keçirilib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə müdafiə nazirləri bölgədə cərəyan edən hərbi-siyasi vəziyyət, üçtərəfli formatda hərbi əməkdaşlığın inkişaf etdirilməsi, regional layihələrin



təhlükəsizliyinin təmin olunması məsələlərinə dair müzakirələr aparıblar.

Qarşılıqlı etimada əsaslanan bu strateji tərəfdaşlıq platformasının bölgədə sülhün və sabitliyin, davamlı inkişafın, eləcə də xalqlarımızın rifahının təmin olunması baxımından mühüm rol oynadığı xüsusi vurğulanıb.

Tərəflər həmçinin üçtərəfli hərbi əməkdaşlıq sahəsində qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparıblar.

Sonda danışıqların yekununa dair protokol imzalanıb.

# Azərbaycan, Gürcüstan və Türkiyə müdafiə nazirlərinin mətbuat konfransı

Oktyabrın 5-də Gürcüstanın Kaxeti bölgəsində Azərbaycan, Gürcüstan və Türkiyə müdafiə nazirlərinin üçtərəfli formatda görüşündən sonra birgə mətbuat konfransı keçirilib.



AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akar və Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze mətbuata bəyanatlarla çıxış ediblər.

Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkələrimizin və xalqlarımızın mehriban qonşuluq və yaxın dostluq münasibətlərinin önəminə toxunub. Gürcüstanda keçirilən üçtərəfli görüşün ölkələrimiz arasında strateji səviyyəli dialoqun bariz nümunəsi olduğunu qeyd edən nazir birgə təlimlərin üçtərəfli fəaliyyətlərimizin yeni mərhələyə keçməsinə zəmin yaradacağını və nəticədə regional təhlükəsizliyə töhfə verəcəyini bildirib.

Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze görüşün əhəmiyyətini vurğulayaraq ölkəsinin üçtərəfli münasibətlərin inkişafına xüsusi diqqət yetirdiyini qeyd edib. Türkiyənin milli müdafiə naziri Hulusi Akar ölkələrimiz arasında mövcud dostluq münasibətlərinin daha da inkişaf edəcəyinə əminliyini bildirib.

Konfransda dövlətlərimiz arasındakı səmimi münasibətlərin və müdafiə sahəsi üzrə üçtərəfli əməkdaşlığın regionda sülhün, əmin-amanlığın təminatçısı və nümunəvi tərəfdaşlıq olduğu qeyd edilib.

Sonda media nümayəndələrinin sualları cavablandırılıb.

# Azərbaycanın və Gürcüstanın Müdafiə nazirlikləri arasında ikitərəfli əməkdaşlıq planı imzalanıb

Gürcüstanda rəsmi səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov oktyabrın 5-də bu ölkənin müdafiə naziri Cuanşer Burçuladze ilə görüşüb.



AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, söhbət zamanı ölkələrimiz arasında hərbi əməkdaşlığın müxtəlif sahələri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə dövlətlərimiz arasında müdafiə sahəsində əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyi xüsusi vurğulanıb.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan tərəflər ölkələrimizin ərazi bütövlüyünün qarşılıqlı şəkildə dəstəklənməsinin vacibliyini qeyd edərək ikitərəfli hərbi əməkdaşlığın inkişafının bölgədə sabitliyin və təhlükəsizliyin təmin olunmasına töhfə verəcəyini bildiriblər.

General-polkovnik Zakir Həsənov Vətən müharibəsi zamanı Azərbaycanın haqlı mövqeyini dəstəklədiyinə görə Gürcüstan tərəfinə dərin təşəkkürünü bildirib. Gürcüstanda keçirilən "Eternity-2021" kompüter dəstəkli üçtərəfli birgə komanda-qərargah təliminin keçirilməsinin ölkələrimiz arasında dostluğun və sarsılmaz əməkdaşlığın bariz nümunəsi olduğu bir daha diqqətə çatdırılıb.

Sonda Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Gürcüstan Müdafiə Nazirliyi arasında ikitərəfli əməkdaşlıq planı imzalanıb.

Müdafiə sahəsi üzrə əməkdaşlığın genişlənməsinin ölkələrimiz arasında münasibətlərin daha da dərinləşməsinə və inkişafına töhfə verəcəyi qeyd olunub.

# Daha 4 qazimiz "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilib

Vətən müharibəsində ağır yaralanan daha 4 qazimiz "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilib.



Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən xəbərə görə, həmin qazilər Əkbərov Xəyal Hüseyn oğlu, Məmmədov Azər Arif oğlu, Əliyev Kamran Yasir oğlu və Duniyev Kamil Əlibala oğludur.

"YAŞAT" Fondu tərəfindən Türkiyədən ölkəmizə gətirilən, həmçinin yerli həkimlərin rəyi nəzərə alınaraq qazilərimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi qardaş ölkədə davam etdiriləcək.

"YAŞAT" Fondu qazilərimizin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq. Fond tərəfindən həkim rəyi əsasında ağır yaralı olan qazilərimizin müalicə üçün xaricə davamlı şəkildə göndərilməsi təmin edilir.

Xatırladaq ki, fond tərəfindən bugünə qədər 136 qazimiz müalicə üçün Türkiyəyə göndərilib. Onlardan 90-nın müalicə proseduru uğurla yekunlaşıb və Vətənə qayıdıblar. Qazilərimizin qarşıdakı aylarda müalicəsi üçün nəzərdə tutulan dərman vasitələri də fond tərəfindən təmin edilib.

"YAŞAT" Fonduna müraciət etmək və fondun fəaliyyəti ilə tanış olmaq üçün yashat.gov.az portalı istifadədir.

Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid:

**https://yashat.gov.az/report/tableau**

Həmçinin fondun 8110 "Çağrı Mərkəzi" fəaliyyət göstərir.

# *Zakir HƏSƏNOV:* "Üçtərəfli fəaliyyətlərimiz regionda sabitliyin qorunmasına yönələn sülhməramlı mesaj kimi qiymətləndirilməlidir"

"Azərbaycan, Gürcüstan və Türkiyə hərbçilərinin iştirakı ilə keçirilən birgə təlimlər hərbi birləşmələr arasında əməliyyat uzlaşmasının əldə olunmasına yardım edəcək, üçtərəfli fəaliyyətlərimizin yeni mərhələyə keçməsinə zəmin yaradacaq və nəticədə regional təhlükəsizliyə töhfə verəcək".



AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov oktyabrın 5-də Türkiyə və Gürcüstanın müdafiə nazirləri ilə üçtərəfli görüşdən sonra təşkil olunan mətbuat konfransında deyib.

Üçtərəfli görüşün əhəmiyyətinə toxunan nazir bildirib ki, bu cür görüşlər ölkələrimiz arasında strateji səviyyəli dialoqun bariz nümunəsidir. Həm ikitərəfli, həm də üçtərəfli görüşlərdə üç dost və qonşu xalq arasında münasibətlərin və fəaliyyətlərin ikitərəfli və üçtərəfli formatlarda inkişaf etdirilməsinin vacibliyi və səmərəliliyi qeyd olunub.

"Biz bu formatda münasibətlərimizin perspektivlərini də müzakirə etdik və qarşılıqlı maraq doğuran istiqamətlər barədə geniş fikir mübadiləsi apardıq. Bölgədəki terrorizm və separatizm fəaliyyətlərinin davam etdirilməsinin regionda sülhün və sabitliyin bərqərar olmasına, iqtisadiyyatın inkişafına, eləcə də beynəlxalq fəaliyyətlərin təhlükəsizliyinə birbaşa təhdid olduğunu qeyd etdik", - deyə general-polkovnik Zakir Həsənov vurğulayıb.

Nazir bildirib ki, görüşdə üç ölkənin Silahlı Qüvvələri arasında hərbi, hərbi təhsil və hərbi tibb sahələrində əməkdaşlığın perspektivləri, keçirilən birgə təlimlərin təkmilləşdirilməsi imkanları barədə də fikir mübadiləsi aparılıb. Həmçinin üçtərəfli formatda keçirilən təlim və treninqlərin intensivləşdirilməsinin zəruriliyi qeyd edilib.

COVID-19 pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, cari ildə üç ölkə hərbçilərinin iştirakı ilə bir sıra tədbirlərin planlaşdırılaraq keçirildiyini vurğulayan Azərbaycanın müdafiə naziri deyib: "Hesab edirəm ki, dövlətlərimiz arasındakı səmimi münasibətlər və müdafiə sahəsi üzrə üçtərəfli əməkdaşlıq sülh naminə tərəfdaşlığın dünyaya örnək olacaq bir nümunəsidir. Üçtərəfli fəaliyyətlərimiz regionda sabitliyin qorunmasına yönələn sülhməramlı mesaj kimi qiymətləndirilməlidir".

# Yuxarı ətrafları amputasiya olunmuş qazilərin son nəsil protezlərlə təminatına başlanılıb

Yuxarı ətrafları amputasiya olunmuş qazilərimizin də yüksək texnologiyalı protezlərlə təminatına başlanılıb.







Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən verilən məlumata görə, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində qazilərin protezlərlə təmin edilməsi tədbirində iştirak edib, son nəsil protezlərlə təmin edilən qazilərdən bir qrupu ilə görüşüb.

Nazir bildirib ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu ötən il Vətən müharibəsində tariximizin şanlı qəhrəmanlıq səhifəsini yazdı. Misilsiz döyüş hazırlığı nümayiş etdirərək möhtəşəm Zəfər qazandı və yurd yerlərimizi Ermənistanın 30 ilə yaxın davam etmiş işğalından azad etdi.

S.Babayev postmüharibə dövründə nazirliyin reabilitasiya mərkəzlərində 1500 qaziyə xidmətlər göstərildiyini deyib. Birinci və İkinci Qarabağ müharibəsi əlillərindən ibarət 1000-ədək şəxsin 9100-dən çox reabilitasiya vasitəsi ilə, əksəriyyəti qazilər olan 850 əlilliyi olan şəxsin mühərrikli təkərli oturacaqla təmin edildiyini diqqətə çatdırıb.

Bildirib ki, hələ 2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərimiz Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə fondun icra etdiyi xüsusi layihə çərçivəsində Almaniya, İslandiya, İngiltərənin dünyada müasir protez istehsalçıları kimi tanınan şirkətlərinin yüksək texnologiyalı məhsulları ilə təmin ediliblər.

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə son illər Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində də dünyanın məşhur protez istehsalçılarından olan "OTTO BOKK" şirkəti (Almaniya) ilə əməkdaşlıq şəraitində yüksək texnologiyalı protezlərin hazırlanması sexi qurulub. Beləliklə, Vətən müharibəsində Zəfər əldə etdikdən az sonra, 2020-ci ilin dekabrından müharibə əlillərinin yüksək texnologiyalı, elektron protezlərlə təminatı işləri aparılır. Amputasiyası olan 180 qazidən artıq 145 hərbçi yüksək texnologiyalı, son - 4-cü nəsil müasir protezlərlə təmin edilib.

Yuxarı ətrafları amputasiya olunmuş 29 qazidən də bu günlərdə İslandiyanın "ÖSSUR" şirkətinin Rusiya nümayəndəliyinin mütəxəssisləri ilə birgə müvafiq ölçülər götürülüb və onların da yüksək texnologiyalı protezlərlə təminatına başlanılıb. Bu gün də yüksək texnologiyalı protezlərlə təmin olunan qazilər yuxarı ətrafları amputasiya olunmuş şəxslərdir ki, onlara da son nəsil protezlər verilib.

Görüşdə qazilər onlarla bağlı bütün sahələrdə aparılan dəstək işlərindən razılıqla bəhs edib, göstərilən yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

***"Azərbaycan"***

# Naxçıvanda "Sarsılmaz qardaşlıq-2021" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimi davam edir





Naxçıvanda "Sarsılmaz qardaşlıq-2021" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimi davam edir. Təlimin ssenarisinə əsasən bölmələr praktiki fəaliyyətləri yerinə yetirirlər.



Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, bölmələrin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaq üçün komanda məntəqələrindən idarəetmə sistemləri vasitəsilə qoşunlar fasiləsiz idarə olunur, birləşmə və hissələr döyüşə hazırolma planlarına uyğun fəaliyyət göstərirlər.

Komandirlər tərəfindən ərazi qiymətləndirilir, düşmən mövqelərinə gizli yaxınlaşma istiqamətləri seçilir, hərəkət marşrutları öyrənilir, şəxsi heyətin fəaliyyəti müxtəlif üsullarla məşq etdirilir.

Xüsusi həmlə qrupları tərəfindən düşmən mövqelərinə yaxınlaşma, düşmənin optik cihazlarından və sərrast atəşindən yayınma fəaliyyətləri icra olunur.

Döyüş təyyarələri, hərbi daşıma və zərbə helikopterlərinin cəlb edildiyi təlimdə çətin pilotoji manevrlərlə təlim-məşq uçuşları keçirilir.





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

## Güc və qətiyyətin quruculuq meydanındakı təcəssümü



### İlham Əliyev işğaldan azad olunmuş ərazilərimizin şöhrətini bərpa edir

Əvvəli 1-ci səh.

Bu qələbənin başqa bir reallığı isə Azərbaycanın regionda və dünyadakı nüfuzunu artırmasıdır. Müharibəyə qədər də respublikamız dünya birliyinin nüfuzlu və etimad göstərilən üzvlərindən biri idi. Cənubi Qafqazla bağlı heç bir qlobal layihə Azərbaycanın iştirakı və razılığı olmadan reallaşa bilməzdi. Beynəlxalq enerji təhlükəsizliyindəki söz sahibliyi, qlobal tranzit məsələlərində əsas oyunçulardan birinə çevrilməsi hələ müharibəyə qədər Azərbaycanın nüfuzunu yüksəldən mühüm amillərdir. Vətən müharibəsindəki zəfər isə dövlətimizin nüfuzunu daha da yüksəltdi və indi Azərbaycan dünyada həm də müharibədə qalib gəlmiş ölkə kimi tanınır.

Müharibədən sonra yaranan başqa bir reallıq isə işğaldan azad olunmuş torpaqlarımızın bərpası və yenidən qurulmasıdır. 30 ilə yaxın işğal altında qalan torpaqlarımız həm də erməni vandalizminin qurbanı olub. Şəhər və kəndlərimiz yerləyeksan edilib, dağıdılıb, Qarabağın və Şərqi Zəngəzurun təbiətinə, ekologiyasına zərbə vurulub, sərvətlərimiz talan olunub. Burada 30 ildə baş verənlər Ermənistanın işğalçı siyasətinin mahiyyətini özündə əks etdirir.

Müharibənin başa çatmasından ötən 11 ayda ərazilərin yenidən qurulması istiqamətində görülən işlərin miqyası olduqca əhatəli və qürurvericidir. Prezident İlham Əliyevin oktyabrın 3-də Tərtər rayonuna səfəri də göstərdi ki, azad olunmuş ərazilərimizin bərpa prosesi sürətli, dinamik və əhatəlidir.

### Suqovuşandan başlanan quruculuq

Ötən ilin oktyabr ayında cəbhədən ilk qələbə xəbəri Suqovuşandan gəldi. “Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!”, - deyə Prezident İlham Əliyev 2020-ci il oktyabr ayının 3-də özünün rəsmi “Twitter” səhifəsində yazmışdı.

Prezident İlham Əliyev elə həmin gün Madagizin tarixi adını bərpa etdi və Suqovuşan adlandırdı. Milli Məclisin oktyabrın 6-da keçirilən iclasında “Azərbaycan Respublikasının Tərtər rayonunun Madagiz kəndinin Suqovuşan kəndi adlandırılması haqqında” qanun layihəsi qəbul edildi.

Xatırladaq ki, Tərtər rayonunun strateji əhəmiyyətli ərazisi olan Suqovuşan 1994-cü ildə düşmən tərəfindən işğal edilmişdi. Suqovuşanın azad olunması Ağdərə və Sərsəng su anbarı istiqamətində mühüm əhəmiyyətə malik yolların nəzarətdə saxlanılmasına imkan verdi, eyni zamanda Ağdərə və Ağdamı birləşdirən əsas təminat yolu ordumuzun nəzarətinə keçdi. Beləliklə, bu ərazinin işğaldan azad olunması ilə Vətən müharibəsi dövründə ordumuz mühüm yüksəkliklərə yiyələnmiş oldu.

Azad olunduqdan qısa müddət sonra, ötən ilin oktyabr ayında Prezident, Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən Suqovuşan və Talış kəndlərinə gedən avtomobil yollarının bərpasına başlanıldı. Bu istiqamətdə avtomobil yolları ötən əsrin 70-ci illərində Suqovuşan su anbarının tikintisi ilə əlaqədar Ulu Öndər Heydər Əliyevin tapşırığına əsasən inşa edilmişdi. Lakin uzun müddət düşmən tapdağı altında olduğundan tamamilə sıradan çıxmış və dağılmışdı.

Ötən dövr ərzində Suqovuşan və Talışa gedən yollar ən yüksək standartlara uyğun yenidən çəkilib. Prezident İlham Əliyev oktyabrın 3-də Tərtər rayonuna səfəri zamanı bu yolların açılışında iştirak etdi. Ümumi uzunluğu 28,5 kilometr, eni 9 metr olan yol 2 hərəkət zolağından ibarətdir.

Həmin gün daha bir avtomobil yolunun - Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan yolunun tikintisinin təməli qoyuldu. Tərtərin Talış kəndindən Goranboy rayonunun Tapqaraqoyunlu kəndini keçməklə Naftalan şəhərinə doğru yeni yolun inşası yolboyu yerləşən yaşayış məntəqələrinin sakinlərinin rahat gediş-gəlişini təmin etməklə bərabər, bölgənin sosial-iqtisadi inkişafına töhfə verəcək. Bu yolun istifadəyə verilməsi nəticəsində Tərtər şəhəri ilə yanaşı, alternativ olaraq Naftalan şəhərindən də bu istiqamətdə hərəkət etmək mümkün olacaq.

İşğaldan azad olunmuş ərazilərin bərpası əsasən infrastruktur sahələrindən başlamaqla kompleks xarakter daşıyır. Həm yollar bərpa olunur, həm enerji ilə təminat yoluna qoyulur, həm də kənd və şəhərlərin bərpası üçün yeni layihələr icra olunur.

### Düşmənin vurduğu yaralar sağalır

Bir neçə ay əvvəl Laçında Güləbird su elektrik stansiyası istifadəyə verilmişdi. Oktyabrın 3-də isə Tərtərdə “Suqovuşan-1” və “Suqovuşan-2” kiçik su elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı oldu. Döyüşlər zamanı ermənilər 4,8 meqavat gücündə “Suqovuşan-1” və 3 meqavat gücündə “Suqovuşan-2” kiçik su elektrik stansiyalarının yararlı ehtiyat hissələrini söküb daşımış, apara bilmədiklərini isə dağıtmışdılar. Hər iki stansiya əsaslı şəkildə yenidən qurulmuş, o cümlədən onların idarəetmə mərkəzinin binaları və avadanlıqları, stansiyalararası elektrik veriliş xətti tam yenilənmişdir. “Suqovuşan-1” və “Suqovuşan-2” kiçik su elektrik stansiyaları işğaldan azad olunmuş ərazilərin, xüsusilə Suqovuşan və Talış qəsəbələrinin elektrik enerjisi ilə təmin olunmasında mühüm rol oynayacaq. Həmçinin burada istehsal olunan elektrik enerjisi paylayıcı şəbəkənin yeni çəkilən xətləri vasitəsilə digər istiqamətlərə də ötürüləcək.

Prezident İlham Əliyevin Tərtər rayonuna səfəri bir daha göstərdi ki, işğaldan azad olunmuş ərazilər sürətlə yenidən qurulur, düşmənin vurduğu yaralar sağalır. Həm də düz bir ilin tamamında azad olunmuş ərazilərimizin bərpası ilə müşahidə etdiyimiz reallıqlar Azərbaycanın gücünün, qüdrətinin ifadəsidir.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

## 6 ZƏFƏR gündəliyi oktyabr 2020-ci il



Cəbhənin bütün istiqamətlərində döyüşlər gedir. Müdafiə Nazirliyi işğaldan azad edilmiş Cəbrayıl rayonunun Çaxırlı kəndinin videogörüntülərini yayır.

Azərbaycan Ordusunun əks-hücum əməliyyatı zamanı müxtəlif istiqamətlərdə düşmənin zirehli texnikaları, atəş dəstək və təminat vasitələri darmadağın edilib. Düşmənin 63-cü tank taborunun daha 3 tankı, o cümlədən 41-ci və 62-ci artilleriya alaylarının 4 ədəd BM-21 Qrad yaylım atəşli reaktiv sistemi məhv edilib. 42-ci artilleriya alayının atəş mövqeyində yerləşdirilmiş D-20 artilleriya qurğuları və onların heyətləri zərərsizləşdirilib.

❖ ❖ ❖



Rusiyanın “Pervıy kanal” televiziyasına müsahibə verən Prezident İlham Əliyev Azərbaycanın savaşa muzdlu döyüşçüləri cəlb etməsi ilə bağlı iftiralara cavab verdi.

Prezident dedi ki, bu gün Azərbaycan Ordusu öz ərazilərimizi azad edir. Döyüş əməliyyatları yerindən çəkilmiş videolarda bizim artilleriyanın, pilotsuz uçuş aparatlarının necə işləməsi, azərbaycanlı əsgər və zabitlərin işğaldan azad edilmiş torpaqlarda bayraqlarımızı necə ucaltmaları görünür:

“Buna görə də bu ittihamlar əsassızdır, biz onları qətiyyətlə rədd edirik və bu cür şayiələrin, yoxlanılmamış məlumatların ictimai rəylə necəsə manipulyasiya etməsinə yol verə bilmərik. Qoy sübutlar təqdim etsinlər. Bu gün fəal döyüş əməliyyatlarının onuncu günüdür, bizə heç bir sübut təqdim edilməyib”.

Dövlətimizin başçısı vurğuladı ki, Ermənistan yenə də dinc əhaliyə atəş açır. Bu da erməni tərəfinin köhnə taktikasıdır. Onlar hər dəfə döyüş meydanında məğlubiyyətə uğrayanda dinc əhaliyə ziyan vurmağa və beləliklə, Azərbaycan Ordusunun əks-hücumunu dayandırmağa çalışaraq belə alçaq hərəkətlərə əl atırlar. Lakin onlar bu əks-hücumu dayandıra bilmirlər və bilməyəcəklər.

❖ ❖ ❖

Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xüsusi xidməti müşavirə keçirilir. Müşavirədə aparılan əks-hücum əməliyyatında hazırda mövcud olan vəziyyət təhlil olunaraq düşmən qüvvələrinin planlı, məqsədyönlü və ardıcıl darmadağın edilməsinin davamlılığı tapşırılır.

Müdafiə naziri qoşunlara azad olunmuş ərazilərdə həyati əhəmiyyətli və ilkin zəruri tədbirlərin görülməsinə göstəriş verir. Nazir tərəfindən “İsgəndər” əməliyyat-taktiki raket komplekslərinin tətbiq olunacağı halda adekvat cavab veriləcəyi bildirilir. Zakir Həsənov Azərbaycan Ordusuna arsenalındakı yüksəkdəqiqlikli və böyük dağıdıcı qüvvəyə malik silah növlərini tətbiq etməklə düşmən tərəfinin hərbi-strateji infrastrukturuna böyük zərbələr endirməyə planlaşdırmağı tapşırır.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələri Yevlax, Goranboy və Beyləqan rayonlarının ərazilərini atəşə tutur.

❖ ❖ ❖



İran İslam Respublikasının Prezidenti Həsən Ruhani Azərbaycan Prezidentinə telefonla zəng edir.

Həsən Ruhani Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın davam etməsindən ölkəsinin narahatlığını və münaqişənin tez bir zamanda sülh yolu ilə həll olunacağına ümidvar olduğunu bildirir.

Prezident İlham Əliyev qeyd edir ki, Ermənistanın təxribatına cavab olaraq başlanan savaşda hərbi qulluqçularımız, 27 mülki şəxsimiz həlak olub, 170-dən çoxu yaralanıb, 900-dən artıq evə ziyan dəyib və ya tamamilə dağıdılıb. Azərbaycan tərəfi uğurlu əks-hücum əməliyyatları həyata keçirərək, işğal olunmuş torpaqlarımızın bir hissəsini işğaldan azad edib.

Dövlətimizin başçısı qeyd edib ki, İran-Azərbaycan dövlət sərhədinin işğal olunmuş ərazisinin bir hissəsi Azərbaycanın nəzarətinə keçib və sərhədboyu işğaldan azad olunmuş ərazilərdə tezliklə Azərbaycan sərhəd qoşunlarının və sərhəd infrastrukturunun yerləşdirilməsi nəzərdə tutulur.

Prezident həmçinin Ermənistanın davam edən hərbi təcavüzünün və təxribatlarının regionda sülhün və təhlükəsizliyin təmin olunması işində ən böyük əngəl olduğunu bildirmişdi.

❖ ❖ ❖





Gün ərzində cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlərdə Ermənistan ordusuna məxsus 2 ədəd BM-21 “Qrad”ı sıradan çıxarılıb.

41-ci artilleriya alayının atəş mövqelərində dayanan “Qrad”lar Azərbaycan Ordusunun atəş zərbəsi ilə məhv edilib.

Bundan əlavə, 42-ci artilleriya alayının atəş mövqeyində yerləşdirilmiş D-20 artilleriya qurğuları və onların heyətləri də bölmələrimizin sərrast atəşi ilə məhv edilib.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***



## “Heç kim bizi dayandıra bilməz”

### İlham Əliyev Cəbrayıldan Qalib Komandan kimi Ermənistana, onun havadarlarına və Azərbaycana iftira atan bəzi dairələrə çox ciddi xəbərdarlıq etdi

*“Əgər kimsə hesab edir ki, müharibə bitdi və indi hər şey necə deyərlər, əvvəlki məcraya düşəcək, səhv edir. Müharibə bitdi, biz qalib gəldik, yeni reallıq yaratdıq, hər kəs bu reallıqla hesablaşmalıdır və hesablaşacaq. Mən deyəndə ki, biz imkan vermərik Ermənistanda yenə də bizə qarşı hansısa təxribat hazırlansın, mən bunu nəzərdə tuturam. Bizim legitim hüququmuzdur, əgər təhlükə görsək, əgər təhlükənin kiçik bir təzahürünü görsək, biz lazımi addımı atacağıq və heç kim bizi dayandıra bilməz, heç kim bizim qabağımızda dura bilməz”.*

Oktyabrın 4-də Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşündə Ermənistan və onun havadarlarına növbəti mesajını göndərən Ali Baş Komandan İlham Əliyev növbəti dəfə çox ciddi xəbərdarlıq etdi. Bununla İlham Əliyev müharibədən sonra Ermənistandakı revanşistlərə, ara qarışdıranlara xatırlatdı ki, “Dəmir yumruq” hər an zərbə endirməyə hazırdır. Bu mesaj həm də Azərbaycana iftiralar atan, hansısa proseslərdə günahlandırmağa cəhd edən qüvvələrə də ünvanlandı.

### Əsassız ittihamlar cavabsız qalmayacaq

Prezident bir daha xatırlatdı ki, İkinci Qarabağ müharibəsi dövründə Ermənistanın havadarları Azərbaycanın haqq işinə müxtəlif yollarla əngəl törətməyə çalışdılar. Bəziləri bəyanatlar verdilər, bəziləri isə başqa yollarla işğalçıya praktiki kömək göstərdilər. Ancaq bunun heç bir xeyri olmadı və bundan sonra da olmayacaq.

Bu gün postmüharibə dövründə yaşayırıq və Azərbaycan qalib dövlət kimi yaratdığı reallıqlara uyğun addımlarını atır. Hazırda regionda real praktiki əməkdaşlıq çərçivələri müəyyən olunur.

Son 18 ildə İlham Əliyevin yürütdüyü siyasət göz önündədir. Azərbaycan Prezidentinin müstəqil siyasəti hesabına ölkəmiz dünyada ən etibarlı tərəfdaş kimi qəbul olunur. Hazırda bu siyasət davam edir və ilk növbədə, qonşularla, bütün digər ölkələrlə əməkdaşlığın daha da möhkəmləndirilməsinə çalışılır. Azərbaycanın daxili işlərinə qarışmaq isə mümkün deyil.

Amma görünən odur ki, bəzi dairələr Azərbaycana iftiralar atmaqla ara qarışdırmağa cəhd göstərirlər. İlham Əliyev həmin dairələrə xəbərdarlıq edərək bildirdi ki, bizə qarşı səsləndirilən ittihamlar sübuta yetirilməlidir. Əks təqdirdə bunun cavabı ağır ola bilər. Prezident Azərbaycana qarşı iftiralar atan qüvvələrə belə cavab verdi: “Biz xoş niyyət göstəririk. Amma bu, o demək deyil ki, biz özümüzə qarşı əsassız ittihamları qəbul edəcəyik. Mən bunu burada - Cəbrayılda, bax, burada Araz çayının kənarında deyirəm, Azərbaycan xalqına və bütün dünyaya, bizə qarşı əsassız ittihamlar cavabsız qalmayacaq. Biz bu ittihamları rədd edirik, qəbul etmirik və sübutlar tələb edirik”.

### Regionun gələcək inkişafı - Azərbaycan əməkdaşlığa hazırdır

Azərbaycan regionun gələcək inkişafı, Zəngəzur dəhlizinin açılması və iqtisadi imkanların daha da genişləndirilməsi istiqamətində ciddi işlər görür.

İlham Əliyev həm Qarabağın əvvəlki şöhrətini özünə qaytarmaq, həm də yeni əməkdaşlıq formatlarının yaranması istiqamətində çox mühüm layihələr hazırlayır. Prezident müharibə bitdikdən dərhal sonra regionun gələcək inkişafı ilə bağlı əməkdaşlığa hazır olduğunu bəyan edib.

İlham Əliyev xarici mediaya müsahibəsində Ermənistan baş naziri ilə görüşməyə hazır olduğunu da demişdi. Buna cavab olaraq N.Paşinyan da eyni fikri səsləndirmişdi. İndi tərəflər arasında görüş baş tutarsa, sülh müqaviləsinin imzalanması reallaşa bilər: “Azərbaycan tərəfində siyasi iradə var. Ermənistan tərəfində də olarsa, hesab edirəm ki, iki ölkə özləri heç bir vasitəçisiz bu məsələləri həll edə bilər və bölgədə uzunmüddətli sülh ola bilər”.

Amma Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyasının həyata keçirilməsindən narahat olan qüvvələr məhz bu səbəbdən ölkəmizə qarşı iftiralar atmağa başlayıblar. Cənab İlham Əliyev faktlarla, tutarlı sübutlarla, hətta Ermənistan rəhbərliyinin səsləndirdiyi reallıqları həmin dairələrin diqqətinə çatdırmaqla göstərdi ki, Azərbaycan yalnız öz əraziləri çərçivəsində, öz gücünə addımlarını atır.

Regionda yeni dövrün başlandığını deyən Azərbaycan Prezidenti hesab edir ki, bu dövrü müsbət istiqamətə yönləndirmək lazımdır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın təklif etdiyi əməkdaşlıq formatını müsbət qiymətləndirən İlham Əliyev bildirir ki, bu gün Türkiyə-Rusiya əməkdaşlığı regionun sabitliyinin təminatçısıdır. Yəni bölgədə bu gün sabitliyin bərqərar olmasında Türkiyə və Rusiyanın rolu çox böyükdür.

Hazırda yeni əməkdaşlıq platformasının yaradılması istiqamətində danışıqlar davam edir. Əvvəlcə “3+3” əməkdaşlıq formatının (Azərbaycan, Türkiyə, Rusiya, İran, Gürcüstan, Ermənistan) yaradılması ətrafında müzakirələr aparılırdı. Amma İlham Əliyev deyir ki, Azərbaycan üçün Türkiyə-Rusiya-Azərbaycan-Ermənistan formatı da kifayətdir. Yəni digər qonşu ölkələr də bu platformaya qoşula bilər. Amma qoşulmağa məcbur da deyillər: “Kim istəyir qoşulsun, kim istəmir özü bilər. Hər halda bu gün Azərbaycanın razılığı olmadan bu bölgədə hər hansı bir təşəbbüs gerçəkləşə bilməz. Bunu hər kəs bilməlidir”.

### Dünya Azərbaycana qibtə edəcək

Göründüyü kimi, İkinci Qarabağ müharibəsinin qalib dövləti kimi Azərbaycan regionun hərtərəfli inkişafı istiqamətində ciddi addımlar atır. Yaranmış yeni reallıqlar fonunda həyata keçirilən proseslər göstərir ki, qarşıdakı yaxın illərdə Azərbaycan iqtisadi cəhətdən daha da güclənəcək və böyük qayıdışı reallaşdıracaq.

Bütün bunlara şahidlik edən bəzi qüvvələr təəssüf ki, bu reallıqları həzm edə bilmirlər. Azərbaycana qarşı yenə də təxribat və uydurma kampaniyasının yeni dalğası bunu bir daha təsdiq edir. İlham Əliyev isə deyir ki, bu proses hələ davam edəcək. Ona görə də istənilən iftiraya, uydurmaya layiqli cavab veriləcək: “Bu gün biz artıq bu reallıqları qəbul etdirdik, kiminsə xoşuna gəlir, gəlmir, amma qəbul etdirdik. İndi isə bərpa işlərinə start veririk. Əminəm ki, təqribən 5 il ərzində elə bir yeni Azərbaycan, yeni Qarabağ, yeni Zəngəzur quracağıq ki, bütün dünya bizə qibtə edəcək”.

Prezident bu fikirləri ilə Azərbaycana düşmən kəsilən hər kəsə gözdağı verdi. Dedi ki, ölkəmizin ünvanına nə qədər yalan, iftira xarakterli uydurmalar yayılsa da, Azərbaycanı yolundan döndərmək mümkün olmayacaq. Heç bir qarayaxma, iftira isə cavabsız qalmayacaq.

***R.BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında Əməkdar elm xadimi Tamerlan Əliyevin barelyefi açılıb

Bu gün görkəmli alim, Əməkdar elm xadimi, professor Tamerlan Əziz oğlu Əliyevin anadan olmasının 100 ili tamam olur. Bu münasibətlə Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının endokrinologiya şöbəsində Tamerlan Əziz oğlu Əliyevin barelyefinin açılışı olub.



Universitetin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, açılış mərasimində Azərbaycan Tibb Universitetinin (ATU) rektoru, professor Gəray Gəraybəyli çıxış edərək Tamerlan Əliyevi Azərbaycanın tibb elminin və səhiyyəsinin öndər nümayəndəsi adlandırıb: "Görkəmli elm xadimi Tamerlan Əliyevin ölkəmizdə tibb elminin inkişafında danılmaz xidmətləri olub. Həm də yüksək insani keyfiyyətləri ilə seçilən professor T.Əliyev Azərbaycan üçün yüksəkixtisaslı kadrların yetişdirilməsi işinə misilsiz töhfə verib. Fəaliyyətinin müəyyən dövrü Tibb Universiteti ilə bağlı olan Tamerlan Əliyevin 100 illik yubileyi bizim ali məktəbdə də geniş qeyd olunur".

Rektor bildirib ki, artıq ATU-da tibb elmləri doktoru, professor T.Əliyevin 100 illik yubileyi ilə bağlı silsilə tədbirlərə start verilib. Belə ki, ötən həftə universitetdə gənc alimlər və tələbələrin konfransı keçirilib. Oktyabrın 5-də isə Tibb Universitetində dünyanın 13 aparıcı elmi müəssisəsi və ali məktəbinin nümayəndələrinin iştirakı ilə beynəlxalq konqres işə başlayacaq. Üç gün davam edəcək tədbirdə Fransa, İngiltərə, Türkiyə, Kanada, ABŞ və Türkiyənin ali məktəblərindən qonaqlar iştirak edəcək.

Görkəmli alim T.Əliyevin qızı Tamfira Əliyeva nümayiş etdirilən diqqət üçün Tibb Universitetinin rəhbərliyinə minnətdarlığını bildirib. Atası haqqında xatirələrini bölüşən Tamfira Əliyeva onun iş həyatında Tibb Universitetinin mühüm rol oynadığını da qeyd edib.

Sonra barelyefin açılışı olub. Mərasimdə Tamerlan Əliyevin ailə üzvləri, yaxınları ilə yanaşı, ATU-nun nümayəndələri də iştirak ediblər.

# Gəncə Dövlət Dram Teatrının və İdman Sarayının inşası davam edir





Yaxın vaxtlarda Gəncədə daha iki nəhəng obyekt - Cəfər Cabbarlı adına Gəncə Dövlət Dram Teatrı və İdman Sarayı şəhər sakinlərinin ixtiyarına veriləcək.

Şəhərin M.A.Abbaszadə ilə "Azərbaycan bayrağı" küçələrinin kəsişməsində inşa edilən teatr binasının bütün inzibati otaqlarında rəngsaz və santexnik işləri yekunlaşıb. Tamaşaçı salonunda aparılan dekorasiya və işıq sistemi ilə bağlı işlər də tam başa çatdırılıb. Hazırda böyük səhnənin döşəməsi və texniki avadanlıqları quraşdırılır. Buna paralel olaraq kiçik səhnədə də işlər davam etdirilir.

Gəncə İdman Sarayında isə binanın fasadı, dam və digər müxtəlif yerlərində dəmir-beton işləri yekunlaşıb, böyük idman zalı və tribunalarda metal konstruksiyalar quraşdırılıb. Bununla yanaşı, binanın zirzəmisində, birinci və ikinci mərtəbələrində hörgü-suvaq, foyesində üzləmə-bəzək, fasadında isə şüşə-vitraj işləri görülüb. Növbəti mərhələdə binanın daxili memarlıq planına uyğun otaqların tikilməsi, digər hissələrdə döşəmə və tavanın vurulması, fasadında böyük ölçülü LED ekranın quraşdırılması və əlavə cari işlər həyata keçiriləcək.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# UNESCO-nun mənzil-qərargahında dahi Nizami Gəncəvinin 880 illiyi qeyd edilib

Parisdə UNESCO-nun mənzil qərargahında qurumdakı Azərbaycan Daimi Nümayəndəliyi, UNESCO Baş Direktorluğu və Azərbaycan Respublikasının UNESCO yanında Milli Komissiyasının birgə təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Nizami Gəncəvi ili" çərçivəsində Azərbaycanın böyük mütəfəkkiri və şairi Nizami Gəncəvinin anadan olmasının 880 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi səfir Elman Abdullayev, UNESCO Baş direktorunun mədəniyyət işləri üzrə müavini Ernesto Ottone Ramirez, Türkiyənin UNESCO yanında daimi nümayəndəsi səfir Altay Cengizer çıxış edərək Nizami Gəncəvinin yaradıcılığı və dünya ədəbiyyatına verdiyi töhfələrdən söz açılıb. Səfir Elman Abdullayev Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondunun ölkəmizin mədəniyyətinin və ədəbiyyatının dünyada tanıdılması istiqamətində həyata keçirilmiş layihələrə toxunaraq, Nizami Gəncəvi ədəbi irsinin beynəlxalq səviyyədə tanıdılması istiqamətində reallaşdırdığı işlərdən danışıb. Dahi şairin "Xəmsə"sinin bir çox Avropa dillərinə tərcümə edildiyi qeyd edilib. Anadan olduğu Gəncə şəhərini heç vaxt tərk etməmiş böyük mütəfəkkir və şairin bir neçə dildə yazıb yaratdığı diqqətə çatdırılıb.

Səkkiz əsr əvvəl yazıb-yaratmış dahi Nizami əsərlərində bu gün də aktuallığını itirməmiş ideya və dəyərlər - qadın hüquqları, bərabərlik, ədalət, sülhü təbliğ etdiyi bildirilib. Nizami əsərlərində təbliğ olunan ideya və dəyərlərin müasir dövrümüzdə də əsas ideyalar olaraq qaldığı və UNESCO-nun da bu gün bu ideyalar uğrunda çalışdığı diqqətə çatdırılıb.

UNESCO baş direktorunun mədəniyyət işləri üzrə müavini Ernesto Ottone Ramirez Nizami Gəncəvinin fəlsəfi ideyalarının əhəmiyyətinə toxunaraq əsərlərinin məziyyətlərindən danışıb.

Qeyd edilib ki, Nizami əsərləri əsasında hazırlanmış "Miniatür sənəti" nominasiyası 2020-ci ildə UNESCO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsi üzrə Reprezentativ Siyahısına daxil edilib.

Tədbir çərçivəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təqdim etdiyi sülh, ədalət, humanizm, yüksək əxlaq, azadlıq və bərabərlik kimi dəyərləri təbliğ etmiş dahi mütəfəkkir Nizami Gəncəvinin əsərlərinin motivləri əsasında çəkilmiş miniatürlərdən ibarət sərgi tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Azərbaycanlı pianoçu Etibar Əsədli və fransız violonçel Albertin Obert Nizaminin sözlərinə yazılmış musiqi əsərlərini səsləndiriblər.

Tədbirdə UNESCO yanında daimi nümayəndələr, səfirlər, yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

# VII Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasının zəngin proqramı təqdim olunub

Oktyabrın 6-dan 10-dək Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində VII Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası keçiriləcək.

AZƏRTAC xəbər verir ki, bununla bağlı oktyabrın 5-də "JW Marriott Absheron" hotelində mətbuat konfransı keçirilib.




Mətbuat konfransında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin müdiri Akif Marifli, "Caspian Event Organisers" şirkətinin baş direktoru Fərid Məmmədov və "Caspian Event Organisers" şirkətinin icraçı direktoru Bəhruz Hidayətzadə çıxış ediblər.

Bildirilib ki, kitab sərgisi dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinə ithaf olunur. Sərginin əsas məqsədi cəmiyyətdə kitaba olan marağı artırmaq və mütaliə mədəniyyətini təbliğ etmək, oxucuları nəşriyyat işi sahəsində olan rəqəmsal yeniliklərlə tanış etmək, ölkəmizdə kitab sənayesi sektorunun və müasir ədəbi proseslərin inkişafını dəstəkləməkdir.

Sərgidə uşaqlar üçün Nizami Gəncəvinin əsərlərinin motivləri əsasında kukla tamaşaları, "uşaq aləmi", nağıl saatları, uşaq yazarları ilə görüşlər, uşaqlar və böyüklər üçün master-klaslar, inklüzivlik və digər aktual mövzular üzrə kitab təqdimatları, imza günləri, konfranslar, simpoziumlar, kitab sənayesi sektorunun subyektləri arasında əməkdaşlıq platformaları və musiqi proqramları təşkil ediləcək. Azərbaycanın Xalq yazıçıları və şairləri, tanınmış gənc yazarlar və məşhur xarici yazıçılar və aktyorlar sərgidə iştirak edəcəklər. İştirakçılar tərəfindən sərgidə satışa çıxarılacaq bütün kitablara böyük endirimlər nəzərdə tutulur.

Qeyd edilib ki, sərgidə 12 ölkədən 43 xarici şirkət, Azərbaycandan isə 100-dən çox yerli nəşriyyat evləri, mətbəələr, kitab mağazaları, mədəniyyət mərkəzləri və poliqrafiya şirkətləri iştirak edəcək.

Sonra jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

## Tarixin izi ilə

# Göyçə mahalı qədim Azərbaycan torpağıdır

### Kuman türklərinin ulu yurdu Basarkeçərin adını saxtalaşdıran ermənilər unudurlar ki, bu yerlər türk mənşəli toponimlərlə çox zəngindir

Ulu yurdlarımızın tarixini zaman-zaman yadellilər saxtalaşdıraraq özününküləşdirməyə çalışıblar. Lakin toponimlər bu tarixi saxtakarlığı qəbul etmir, çünki onlar dini, mədəni, tarixi abidələrdə yaşayır.

Son iki əsrdə Azərbaycan ərazilərinə saxta iddialarla göz dikən, havadarlarının hərtərəfli dəstəyi ilə tarixi torpaqlarımızdan soydaşlarımızı çıxaran, soyqırımı törətməkdən belə çəkinməyən daşnak ermənilərin qurduqları Ermənistan başdan-başa türkmənşəli toponimlərdən ibarətdir.

Tarixi saxtalaşdırmaq, təhrif etmək və Azərbaycan torpaqlarının əzəli adlarını dəyişdirmək, süni surətdə Ermənistan dövləti yaratmaq ermənilərin yeritdiyi təcavüzkar siyasətin tərkib hissəsi olub.

Ümummilli Lider Heydər Əliyev Qafqazda son iki əsrdə azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımızın ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalması ilə bağlı fikirlərini bildirərkən demişdir: "...Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri dağıdılıb viran edilmişdir..."

Sovet hakimiyyətinin yaratdığı indiki Ermənistanın ərazisində belə mahallarımızın sayı 16 olub. Təəssüf ki, bu gün həmin tarixi torpaqlarda bir nəfər də olsun azərbaycanlı qalmayıb.

Azərbaycan Prezidenti İlham Əliyev bu il iyunun 3-də Tərtər rayonuna səfəri zamanı bu məsələ ilə bağlı bəzi məqamlara toxunub, ermənilərin Şərqi Anadoludan və İrandan bizim torpaqlarımıza köçürüldüklərini, XIX əsrin əvvəllərindən başlanmış həmin prosesin sonralar daha da genişləndiyini diqqətə çatdırmışdır.

Dövlət başçısı xatırladıb ki, mərhələlərlə indiki Ermənistan ərazisində azərbaycanlılara məxsus maddi-mədəniyyət nümunələri yer üzündən silinib, Azərbaycan torpaqlarında monoetnik respublika yaradılıb. Tarixi torpaqlarımızda yaşamaqlarına baxmayaraq, ermənilər bu gün də Azərbaycan və Türkiyəyə qarşı açıq şəkildə əsassız ərazi iddiaları irəli sürürlər: "İndiki Ermənistan Respublikasının ərazisi qədim Azərbaycan torpağıdır. Bu, faktdır, tarixi faktdır. Heç uzağa getmək lazım deyil. XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir. Hər kəs görər ki, indiki Ermənistanın bütün ərazisindəki toponimlərin, demək olar ki, mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Mən xahiş edirəm, bizim alimlərimiz bunu dərc etsinlər ki, hər kəs görsün..."

### "Vardenis yox, Basarkeçər"!

Azərbaycan Prezidenti İlham Əliyevin avqustun 16-da Kəlbəcər və Laçın rayonlarına səfərinin də mühüm tarixi və strateji əhəmiyyətə malik olması barədə geniş şərhə ehtiyac yoxdur. Bu səfər zamanı dövlət başçısının Ermənistanın sərhəddə törətdiyi təxribatlar və gərginliklər fonunda ölkəmizin prinsipial və qətiyyətli mövqeyini bir daha ifadə etməsi diqqətdən kənarda qala bilməzdi. Bu, təcavüzkarlara, həmçinin onun havadarlarına açıq və konkret mesajlar idi.

Dövlət başçısının toxunduğu mühüm məsələlərdən biri də ermənilərin qədim Azərbaycan torpağı olan indiki Ermənistan ərazisindəki toponimlərimizi saxtalaşdırmaları, özününküləşdirmələri ilə bağlı oldu: "Durduğumuz yol ermənilər tərəfindən çəkilmiş Basarkeçər-Kəlbəcər yoludur. Onlar Ermənistanı Qarabağla birləşdirmək üçün ikinci yol çəkdilər, Laçın dəhlizindən əlavə. Beləliklə, Kəlbəcəri və digər əraziləri məskunlaşdırmaq və özlərinin gediş-gəlişini daha rahat etmək üçün bu yolu çəkdilər. Bu yol birbaşa Basarkeçər rayonuna gedir. Basarkeçər rayonuna Ermənistanda "Vardenis" rayonu deyilir. Ancaq bu rayonun, bölgənin əsl adı Basarkeçərdir, Göyçə mahalıdır, qədim Azərbaycan torpağıdır. 1930-cu ildə Basarkeçər rayonu Ermənistan ərazisində yaradılıb. Orada yaşayanların da mütləq əksəriyyəti azərbaycanlılar olmuşdur. O cümlədən Zod kəndinin sakinləri də azərbaycanlılar idi, deportasiyaya məruz qalmışlar. Yalnız 1969-cu ilin iyun ayında Ermənistan Basarkeçər rayonunu, onun adını dəyişdirərək ona "Vardenis" adı qoymuşdur. Xahiş edirəm ki, Azərbaycanda bu bölgə ilə bağlı hazırlanan reportajlarda və ümumiyyətlə, bizim ümumi leksikonumuzda "Vardenis" yox, Basarkeçər adı bərpa edilsin".

Dövlət başçısı bugünkü işğalçı, təcavüzkar, terrorçuluğu dəstəkləyən Ermənistanın ərazisində yerləşən bütün digər qədim Azərbaycan yaşayış məntəqələrinin də əsl adları ilə çağırılmasının vacibliyini vurğuladı. Naxçıvan-Ermənistan sərhədində mövcud gərginliklə bağlı mətbuatı izlədiyini bildirən Müzəffər Ali Baş Komandan İlham Əliyev Ermənistanın Yerasx kəndi ətrafında baş verən hadisələrlə bağlı mətbuatın yazdıqlarında bəzi adların erməniləşdirilməsinə münasibətini açıq bəyan etdi: "...Bu kəndin adı Arazdəyəndir və azərbaycanlılar deportasiyaya qədər orada əbədi yaşayıblar. Ona görə bütün qədim, yəni tarixi adlar bərpa edilməlidir. Bu adlar bizdə müxtəlif kitablarda da öz əksini tapıb. Ona görə xahiş edirəm ki, həm jurnalistlər, həm ümumiyyətlə, insanlarımız bu yerlərin əsl adlarını çəksinlər - Vardenis yox, Basarkeçər rayonu, Basarkeçər şəhəri".

### Kumanların yadigarı - bazar, basar, yoxsa Basatkeçən?

Prezident onu da xüsusi vurğuladı ki, həm Qarabağ, həm Zəngəzur tarixi dədə-baba torpağımızdır. Qarabağ iqtisadi rayonunda bütün Qarabağ bölgəsinə aid olan rayonlar, Şərqi Zəngəzur iqtisadi rayonunda Şərqi Zəngəzura aid olan rayonlar birləşdi: "Qərbi Zəngəzur isə hazırda Ermənistanın nəzarəti altındadır. Ancaq Zəngəzur dəhlizinin çəkilişi nəticəsində, əlbəttə ki, biz bu dəhlizdən istifadə edib öz vətəndaşlarımızı dədə-baba torpaqlarımıza qaytaracağıq. Belə planlar var və bu da təbiidir. Çünki bizim vətəndaşlar indiki Ermənistan ərazisindən, təkcə Zəngəzur mahalından yox, Göyçə mahalından da, - bura ilə həmsərhəddir, - zorla qovulmuşlar və onların tam haqqı var ki, gedib öz dədə-baba torpaqlarında yaşasınlar. Biz bunu sonrakı mərhələyə saxlayırıq".

Xatırladaq ki, Göyçə mahalının əhalisi əsasən kuman (türk dillərində kürən, sarışın mənasını verir) türk tayfalarından ibarət olub. Eramızdan əvvəlki minillikdə qədim Azərbaycanın qərb qonşuluğunda yaşayıb, sonralar zaman-zaman Avropanın ortalarına doğru hərəkət ediblər.

Basarkeçər adının sonradan Vardenisə çevrilməsi isə türkmənşəli daha bir toponimə növbəti erməni təcavüzüdür. Azərbaycan folklorunun, aşıq sənətinin vətənlərindən biri kimi məşhur olan Göyçə mahalı türkmənşəli toponimlərlə çox zəngindir. Buradakı toponimlərin əksəriyyəti ermənilər tərəfindən sonralar dəyişdirilsə də, əsl adları bədii ədəbiyyatda, yaddaşlarda yaşamaqdadır.

Tarixi mənbələrdə göstərilir ki, kuman türk tayfalarının ilkin yaşayış məskəni Basarkeçər olub. Basarkeçər bölgəsinin qədim sakinləri olan kuman türk tayfaları barədə qədim Urartu mənbələrində yetərincə məlumatlar tapmaq mümkündür.

Basarkeçərin cənub-şərqində, Daşkənd yolunun təxminən iki kilometrliyindəki bir ərazidə eramızdan əvvəl III yüzilliyə aid qədim qalanın aşkar edilən bünövrə qalıqları birmənalı şəkildə deməyə əsas verir ki, oğuz türkünün bu kənddə məskunluğunun tarixi ən azı, 2000 illik bir dövrü əhatə edir. XVI əsrə dair sənədlərdə isə Basarkeçər Səfəvi Azərbaycan dövlətinin Qarabağ (Gəncə) bəylərbəyliyinə daxil olan ən iri yaşayış məskənlərindən biri kimi göstərilir. 1728-ci ildə Əhməd şah Mehmetxan oğlu tərəfindən təsdiqlənərək çap olunan "İrəvan əyalətinin icmal dəftəri"nin 16-cı səhifəsində Basarkeçərin sırf türk kəndi olduğu yazılır.

"Basarkeçər" sözünün toponimi barədə müxtəlif versiyalar var. Onlardan biri toponimin qıpçaq mənşəli "bazar" (basar) etnoniminə qeyri-qəti gələcək zamanda işlənən "keçər" sözünün qoşulmasından əmələ gəlməsidir. Daha bir versiya isə "Kitabi-Dədə Qorqud" dastanı ilə bağlıdır. Göyçənin el yaddaşında daşlaşmış rəvayətlərdən birinə görə, ilk vaxtlarda toponim "Basatkeçən" şəklində olub. El arasında bir versiya da belədir ki, Əmir Teymur buranı tutduqdan bir müddət sonra yerli əhali onun dəstələrinə hücum edir və kəndi geri qaytarır. Bundan sonra kəndin adı "Basarkeçər" qalır.

1828-ci ildə Türkmənçay müqaviləsi bağlandıqdan sonra İrəvan ərazisinə kütləvi şəkildə ermənilər köçürülüb. Bununla birlikdə yerli əhalinin, yəni türklərin İrəvan ərazisindən köçürülməsinə başlanılıb. Elə o zamanlaardan da İrəvan ərazisindəki yer adları dəyişdirilib, erməniləşdirilib ki, onlardan biri də hazırda Vardenis adlandırılan Basarkeçər rayonudur. Təkcə onu deyək ki, 1826-1829-cu illərdə erməni-rus hərbi birləşmələrinin Göyçə mahalında həyata keçirdikləri soyqırımı zamanı Basarkeçərin, ən azı, min illik tarixi olan Ağkilsə kəndinin əhalisi kütləvi qətliama məruz qalıb...

***İbrahim ŞƏFƏRLİ,***
***Kəlbəcər Dövlət Arxiv İdarəsinin müdiri***

# Azərbaycanda 1597 nəfər koronavirusdan sağalıb

Son sutka ərzində Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 826 yoluxma faktı qeydə alınıb, 1597 nəfər müalicə olunaraq sağalıb.




Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 15 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 487 min 204 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 467 min 043 nəfər müalicə olunaraq sağalıb, 6599 nəfər vəfat edib. Aktiv xəstə sayı 13 min 562 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 10 min 201, ümumilikdə isə 4 milyon 902 min 328 test icra olunub.

# Dünən Azərbaycanda koronavirusa qarşı 58 minə yaxın vaksin vurulub

Oktyabrın 5-də Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı 57 min 572 doza vaksin vurulub.




Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, onlardan birinci mərhələ üzrə vaksinasiyadan keçənlərin sayı 15 min 949, ikinci mərhələ üzrə peyvənd edilənlərin sayı 41 min 623 nəfər olub.

Hazırkı dövrədək ölkəmizdə vurulan vaksin dozalarının ümumi sayı 8 milyon 795 min 572-yə bərabərdir. Birinci mərhələ üzrə vaksin vurduranların sayı 4 milyon 824 min 323, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 3 milyon 971 min 249 nəfərdir.

# Hər iki valideynin razılığına əsasən 12-15 yaşlı yeniyetmələrə COVID-19 əleyhinə mRNT Pfizer peyvəndi vurula bilər

Müvafiq tibbi göstərişlərə və hər iki valideynin razılığına əsasən 12-15 yaşlı yeniyetmələrə COVID-19 xəstəliyi əleyhinə mRNT Pfizer ("Comirnaty") peyvəndi vurula bilər. 12-15 yaşlı yeniyetmələrin vaksinasiyası mərkəzləşdirilmiş şəkildə Bakı Sağlamlıq Mərkəzində aparılacaq.




Bu barədə AZƏRTAC-a Səhiyyə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, cari epidemioloji vəziyyəti, Avropa Dərman Agentliyi, Amerika Ərzaq və Dərman Administrasiyasının yeniyetmələrə mRNT Pfizer ("Comirnaty") peyvəndinin vurulmasına rəsmi icazələrini nəzərə alaraq Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurası bu barədə qərar qəbul edib.

Qeyd edək ki, "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq ölkə üzrə peyvəndlənmə prosesi davam edir.

## "Bərdə Avtonəqliyyat" ASC-nin səhmdarlarının nəzərinə

20.11.2021-ci il saat 11:00-da "Bərdə Avtonəqliyyat" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Səhmdar cəmiyyətin 2020-ci il maliyyə təsərrüfat fəaliyyətinin təhlili.
2. Yeni İdarə Heyətinin seçilməsi.
3. Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

**Ünvan: Bərdə şəhəri, Həzi Aslanov küçəsi, 119.**
**Telefon: 050-220-00-05.**

*"Bərdə Avtonəqliyyat" ASC*

## "Bərdə İnşaat Sənaye" ASC-nin səhmdarlarının nəzərinə

20.11.2021-ci il saat 11:00-da "Bərdə İnşaat Sənaye" ASC-nin səhmdarlarının ümumi yığıncağı keçiriləcəkdir.
Gündəlikdəki məsələlər:

1. Səhmdar cəmiyyətin 2020-ci il maliyyə təsərrüfat fəaliyyətinin təhlili.
2. Səhmdarlara 2019-2020-ci il təsərrüfat ilində dividendlərin bölüşdürülməsi.
3. Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

**Ünvan: Bərdə şəhəri, Heydər Əliyev prospekti, 122.**
**Telefon: 050-200-01-48.**

*"Bərdə İnşaat Sənaye" ASC*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti illik tələbat üçün mexaniki alətlərin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 15 oktyabr 2021-ci il saat 16:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1053.**

*Tender komissiyası*

## "Milli Hematologiya və Transfuziologiya Mərkəzi" Publik Hüquqi Şəxsi "222290 Digər kommunal xidmətlərin haqqının ödənilməsi" üzrə Liftlərin illik xidmət haqqının kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər: +994512507053.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 05.10.2021-ci il saat 16:30-dan 22.10.2021-ci il saat 10:00-dək qəbul olunur.

Mirəli Qaşqay küç., 145, **rtm.muhasibatliq@gmail.com**

*Tender komissiyası*

# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərmətbuatyayımı" ASC | (012) 440-46-94, (012) 441-19-91 |
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

# ÇXAO Tayvanda güc nümayiş etdirir

Çin Tayvan ərazisinə raket zərbələri üzərində aktiv iş aparır. Bu, aviasiyadan istifadə etməklə döyüş əməliyyatlarının hazırlanmasından xəbər verir.



Bu barədə xəbər yayan Avia.Pro portalının məlumatına görə, oktyabrın 2-də Çin Xalq Azadlığı Ordusu (ÇXAO) 24 qırıcı və bombardmançılarla, habelə radioelektron mübarizəsinin (REM) bir təyyarəsi ilə təlim hücumu həyata keçirib. Bir qədər sonra hücum təkrarlanıb, lakin bu dəfə 38 təyyarədən istifadə edilib.

Yazı müəllifləri izah edirlər ki, hər iki halda istifadə olunan REM təyyarəsi Tayvanın hava hücumundan müdafiə sistemlərini susduraraq bombardmançı və qırıcı təyyarələrin adanın hava məkanına maneəsiz daxil olmasını təmin edib.

38 döyüş təyyarəsinin iştirak etdiyi əməliyyat zamanı radioelektron hücum pərdəsi altında təlim zərbələri üçün Tayvan sərhədi iki dəfə pozulub. Çin bu taktikadan ilk dəfə istifadə edib. Ekspertlərin fikrincə, bu, Pekinin hücum üçün müxtəlif variantlar üzərində çalışdığını və hücum əməliyyatına başlaya biləcəyini göstərir.

Öz növbəsində, mignews.com saytı xəbər verir ki, Tayvan hərbi təyyarələrini havaya qaldırıb və raket sistemlərini döyüş hazırlığı vəziyyətinə gətirib. Tayvanın Baş naziri Su Tszen-Çan bildirib ki, "Çin regionda sülhü pozur və əsassız olaraq hərbi təcavüz aparır". "Global Times" portalının xəbərinə görə isə Pekinin bu addımı Tayvanda müstəqillik planları quran qüvvələrə və onları dəstəkləyən xarici ölkələrə ciddi siqnaldır.

Bu arada Ağ Evin mətbuat katibi Cen Psaki son hadisələrlə bağlı bəyanat verib: "Çin Xalq Respublikasının Tayvan yaxınlığındakı təxribatçı hərbi hərəkətlərindən, vəziyyəti pozmaqdan, yanlışlıqlar riski yaratmaqdan, regionda sülhü və sabitliyi pozmasından hələ də narahatıq".

C.Psakinin sözlərinə görə Pekin Tayvana münasibətdə hərbi, diplomatik və iqtisadi təzyiqlərdən və gücdən imtina etməlidir. O bildirib ki, ABŞ Tayvana yardımını davam etdirəcək: "Biz Tayvan boğazında sülh və sabitliyə dərin maraq göstəririk. Məhz buna görə də biz özünü müdafiə üçün Tayvana yardım göstərməyə davam edəcəyik".

Gözlənildiyi kimi, Çin tərəfi bu bəyanata dərhal reaksiya verib. Xarici İşlər Nazirliyinin rəsmisi Xua Çunyin Bazar bəyan edib ki, Pekin Tayvanın özünümüdafiə potensialına dəstək verdiyi üçün Vaşinqtona qəti etirazını bildirir.

Xatırladaq ki, ABŞ 1979-cu ildə Taybeylə diplomatik əlaqələri kəsərək Pekinlə qurub. Buna baxmayaraq, "bir Çin" siyasətini tanıyan Vaşinqton özünü idarə edən adanı dəstəkləməkdə davam edir və ona silah-sursat verir. Tayvan Çin ərazisinin ayrılmaz hissəsi hesab edildiyinə görə bu, ÇXR-də etirazlara səbəb olur.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Serjik Ermənistanda yenə istehza hədəfi oldu

## Samvel Baqramyan: "Sarkisyan qorxaqdır, vəzifədə olanda gücü ancaq kasıb insanlara çatırdı"

***Əvvəli 1-ci səh.***

Erməni mediasında gündəmə çevrilən bu faktlar məşhur Aprel döyüşlərinə aiddir.

Məlum olub ki, Serjik Aprel döyüşlərində özünün təbliğ etdiyi kimi "qəhrəman komandan" olmayıb. Əksinə, döyüşlərin qızğın vaxtında xaricdə istirahətindən qalmayıb. Belə ki, o, Aprel döyüşlərinin son günündə Baden-Badendə olub. İohanisyan qeyd edib: "O, Baden-Badendə olarkən hələ də cəbhə bölgəsində tank və toplardan istifadə olunurmuş, atəşkəsin perspektivi isə bəlli deyilmiş".

Erməni ictimai xadim bildirib ki, S.Sarkisyanın niyyəti ayın 6-da Berlinə səfər etmək olsa da, eks-prezident bunun əvəzində ayın 5-i Baden-Badenə uçub: ""Beləcə, o, bir gecə istirahət edib və sonra Berlinə uçub. Məsələyə maddi tərəfdən yanaşdıqda isə Sarkisyanın bizim vergilərimiz hesabına Baden-Badenə 16 dəfə səyahət etdiyini görərik. Sarkisyan bura yalnız tətil üçün getmirmiş".

Yeni aşkara çıxan bu faktlar sosial mediada sensasiya kimi qarşılanıb. Çünki hələ də erməni cəmiyyətində Serjikdən müharibədə xalqın yanında olan, daim ordunu düşünən "qəhrəman" obraz yaradanlar var.

Bu fonda onu da qeyd edək ki, Prezident İlham Əliyev azad edilən ərazilərə növbəti səfərində Serjikə və onun kimilərinə növbəti dəfə xəbərdarlıq edərək demişdir: *"Onun qulağından tutub dartmağımıza az qalmışdı. O da yenə haradansa öyrənib, bilib və Xankəndidən qaça-qaça gedib oturub İrəvanda. Bu yaxınlarda keçirilmiş seçkilərdə görün heç beş faiz səs toplaya bilməyib. Görün erməni xalqı bu məxluqa nə qədər nifrət edir ki, hətta müharibədə günahkar sayılan iqtidara daha çox səs verdi, nəinki ona. Odur ki, bir də deyirəm, bax, mən buradayam, Suqovuşandayam, mən Şuşadayam, mən Hadrutdayam, mən Xocavənddəyəm, hər yerdəyəm. Siz haradasınız?! Cəhənnəmdə, gorbagor statusla bir yerdə. Vəssalam, qurtardı, bitdi".*

Azərbaycan Prezidentinin bu açıqlamaları Ermənistanda böyük maraqla qarşılanıb. Sosial şəbəkələrin erməni seqmentində qeyd olunur ki, keçmiş hərbi xuntanın uydurmaları daha insanlar tərəfindən qəbul olunmur. İxtisasca iqtisadçı olduğunu qeyd edən Samvel Baqramyan "Facebook" sosial şəbəkəsində yazır: "Bilmirəm fikir verirsiniz ya yox, ümumiyyətlə, İlham Əliyev çıxışlarında Koçaryan və Sarkisyana meydan oxuyur. Hər dəfə Sarkisyanı hərbi cani adlandırır. Bu dəfə də dövlətimizi, ordumuzu biabır etdi. Serjikin isə Əliyevin dediyi kimi, onun cavabını verməyə cürəti çatmaz. Çünki qorxaqdır, vəzifədə olanda gücü ancaq kasıb insanlara çatırdı".

Simon Nalbadyan adlı istifadəçi isə "Facebook"da İlham Əliyevin son çıxışları ilə bağlı paylaşılan xəbərə rəy yazıb: "Mənim əmim Qarabağda gedən döyüşlərdə ölüb. Bu günə kimi hakimiyyət savaşlarının qurbanı olmuşuq. Keçmiş hakimiyyət nümayəndələrinin atdığı addımlardan sonra bu gün gördük ki, Qarabağ bizi parlaq gələcəyə yox, tam məhvolmaya apardı. Müharibədə uduzduq, dostlarımız həlak oldu. Torpaqları sakit şəkildə qaytarmaq olmazdımı?"

Rusiyalı ekspert Aleksandr Razuvayev isə məsələ ilə bağlı bildirib: "Ermənistanın çökməsi, müharibədəki məğlubiyyəti, kapitulyasiyası son 30 illik dövlət siyasətinin nəticəsidir. Bir düşünün, 30 il ərzində İsrail güclü iqtisadiyyat və güclü ordu yarada bildi. Modernləşdirilmiş iqtisadiyyatı, həyat şəraiti və əlbəttə ki, güclü silahlı qüvvələrini tamamilə yenidən yaradan Azərbaycana baxın. Bu, əlbəttə ki, ilk növbədə, Heydər Əliyevin və onun yolunu davam etdirən İlham Əliyevin xidmətidir".

Qeyd olunur ki, ötən illər ərzində Ermənistan güclü korrupsiyadan başqa heç nə yaratmayıb, üstəlik, sırf turizm və əmək miqrantları üzərində dayanan iqtisadiyyat modeli qurub. Təbii ki, bu, çox qeyri-sabit iqtisadiyyatdır. Aydındır ki, pandemiya bu iqtisadiyyatı "kart evi" kimi məhv etdi. Amma yada salsaq görərik ki, məhz Koçaryan və Sarkisyan bu model iqtisadiyyatla fəxr edirdi. Bu işdə hazırkı hakimiyyəti günahlandırmaq sadəcə gülüncdür. Bu iqtisadiyyat, ordu onilliklər ərzində qurulub. Məhz "yenilməz ordu", "güclü iqtisadiyyat" terminləri illərlə Koçaryan və Sarkisyanın vizit kartı olub.

Rusiyalı ekspert əlavə edib ki, Ermənistan iqtisadiyyatının və ordusunun dağılmasında, ilk növbədə, bu ölkənin bütün əvvəlki rəhbərləri, nazirləri, yüksək rütbəli məmurları günahkardır. Uduzmağı da bacarmağa kişilik lazımdır: "Azərbaycanda güclü lider var. Cənab Əliyevin dünyada, xüsusən MDB-də, o cümlədən Rusiyada böyük avtoriteti vardır. Ermənistanın belə lideri heç vaxt olmayıb. Təbii ki, indi Ermənistanda bütün siyasətçilər Əliyevə həsəd aparırlar. Amma səssizcə həsəd aparmaq lazımdır! Oturun, səsinizi kəsib həsəd aparın! Azərbaycanın qələbəsi güclü iqtisadiyyatın, müasir Silahlı Qüvvələrin, döyüş ruhunun bəhrəsidir ki, ordunun hər bir əsgəri şəhid olmağa, Vətənini azad etməyə hazır idi".

Bu məzmunlu şərhlərə çoxlu əlavələr etmək olar. Amma buna ehtiyac yoxdur. Çünki onsuz da 44 günlük müharibədə Ermənistan tarixinin ən böyük zərbəsini alıb və bunu bütün dünya bilir. Üstəlik Prezident İlham Əliyevin son günlər Qarabağa səfəri zamanı səsləndirdiyi fikirlər Ermənistana məğlubiyyətinin acısını yenidən yaşadır.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbə və müəllimlərinin isti yeməklə təmin olunması xidmətinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **adda.edu.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər.

Müraciət üçün son müddət 21 oktyabr 2021-ci il saat 16:30-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1000 (indeks), Zərifə Əliyeva küç., 18, ADDA-nın əsas inzibati binası.**
**Əlaqə telefonu: (012) 404-37-00 , daxili: 3042.**

*Tender komissiyası*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazova əzizi
**ÇİNGİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi Milli Aerokosmik Agentliyinin baş direktoru, professor Natiq Cavadov və agentliyin kollektivi Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi Elmi-Tədqiqat İnstitutunun direktoru Mürsəl Əliyevə atası
**İLDIRIM BABAŞ OĞLU ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsinin kollektivi Yoluxucu xəstəliklər kafedrasının dosenti
**İLHAM BAYRAMOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Dermatovenerologiya kafedrasının dosenti
**SVETLANA ƏLİYEVANIN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsinin kollektivi Dermatovenerologiya kafedrasının dosenti
**SVETLANA ƏLİYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5613
Sifariş 1869
Qiyməti 40 qəpik